MÜASİR AZƏRBAYCAN ƏDƏBİYYATI

# ZƏLİMXAN YAQUB

## SEÇİLMİŞ ƏSƏRLƏRİ

Ш6
Y-24

ZƏLİMXAN YAQUB

240547

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

İKİ CİLDDƏ

I CİLD

M.F.Axundov adına
Azərbaycan MK
Kitabxanası

"ŞƏRQ-QƏRB"
BAKI-2006

**894.3611-dc21**
**AZE**
**Zəlimxan Yaqub. Seçilmiş əsərləri.** İki cilddə. I cild. Bakı, "Şərq-Qərb", 2006, 248 səh.

Çağdaş Azərbaycan poeziyasında özünəməxsus yeri, poetik nəfəsi olan Zəlimxan Yaqubun seçilmiş əsərlərindən ibarət ikicildliyinə şeirləri və dörd poeması daxil edilmişdir.

Şairin əsərləri xalqımıza məxsus mütləq dəyərlərin, folklor yaradıcılığı qaynaqlarından süzülüb gələn ənənələrin diriliyi ilə səciyyələnir, ədəbiyyatımızda irsilik ideyasını tərənnüm edir. Aşıq sənətinə, saz şairlərinin poetik texnologiyasına bələd olan şairin qələmə aldığı şeirlər öz bədii-estetik enerjisi ilə oxucu qəlbinə yol tapır, onun ovqatının ifadəçisinə çevrilir.

**ISBN10 9952-34-008-7**
**ISBN13 978-9952-34-008-2**

© "ŞƏRQ-QƏRB", 2006

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# ÖN SÖZ

Saz və İrfan. Məkkə və təkyə. Quran və Turan. Ruh və Yaddaş... Zəlimxan Yaqubun şeirləri barədə yazmaq üçün ən əvvəl, bu mötəbər məqamlardan başlamaq lazımdır. Zəlimxan Yaqubu müasirlərindən fərqləndirən də elə əslində, çoxlarının ayrı-ayrılıqda söykəndiyi bu təməl amillərə bütövlükdə istinad etməsidir. Əgər milli-mənəvi dəyərlərimizin bu əsas qaynaqlarından biri Zəlimxanın düşüncə sistemində iştirak etməsəydi, onun zehniyyəti millətin sazı, ruhu, Məkkəsi, təkyəsi, Quranı və Turanından keçib, ruhani iqlimlərin qovşağında qərar tutmasaydı, indi biz bildiyimiz, tanıdığımız Zəlimxan Yaqub hadisəsinə yəqin ki, şahid olmazdıq. Sadaladığım amillərin Zəlimxan Yaqub yaradıcılığında bir araya gəlib vəhdət kəsb eləməsi, şairin yaradıclıq aurasını bütövlükdə qapsaması, şübhəsiz ki, Azərbaycanda ötən əsrin son çərəyi və XXI yüzilin ilk illəri üçün milli ədəbiyyat hadisəsi olaraq dəyərləndirilməlidir.

Zəlimxan Yaqub haqqında yazdığı bir məqaləsində görkəmli Azərbaycan alimi Xudu Məmmədov qeyd edirdi ki: "Yad tikinti materialları çox asanlıqla yad memarlıq forması gətirdiyi kimi, yad sözlər də yad şeir forması gətirir".

Bu mənada bir şair olaraq "yad tikinti materiallarına" – yad sözlərə və özgə düşüncələrə yönəlməməsi, sazın və klassik irfanın bəxş elədiyi doğma obrazlarla baş-başa qalması, məhrəm keçmişlərə ehya verməsi Zəlimxan Yaquba çağdaş Azərbacan şerində ayrıca bir mövqe qazandırdı. Müasir poeziyamızda yaddaş amilinin önə çəkilməsi də onun adı ilə çox bağlıdır. Yaşar Qarayev demişkən, sabit, mütləq dəyərlərin əbədiliyini, onların baba, əcdad, Yəsəvi, Əmrə kökünü və başlanğıcını... Zəlimxan bizə yenidən xatırlatdı, ənənələrin diriliyi və irsiliyi ideyasını tərənnüm etdi.

Yaşar Qarayevin müşahidə etdiyi prosesə təkcə müasir şerimizdə deyil, müasir həyatımızda da böyük ehtiyac vardı. Zəlimxan Yaqubun gücü onda oldu ki, o, ədəbiyyatın böyük ərzinə fitrətən şair olaraq, "ildırım kimi çaxaraq, günəş kimi parlayaraq" qədəm basdı. Nəsillərin şüurardında yuxuya dalmış aləmlərə can vermək üçün təzahür edənlərin sırasında onun da gəlişi zəruriydi. Tanrı onu başdan-binədən şair biçimində yaratmışdı və Zəlimxanın ədəbiyyatda estetik dəyərlərin nədən ibarət olduğunu öyrənməyə, mənimsəməyə ehtiyacı da yoxdu, çünki o öz missiyasının uğurlu icrasına anadangəlmə şair fəhminə və vergili ilhamına istinad edərək ilk şeirlərindən etibarən başlamışdı.

Mütləq dəyərlərin diriliyinin, baba, əcdad, Yəsəvi, İmrə başlanğıcının isbatına indi həmişəkindən daha çox ehtiyac duyuruq. Axı "millət öz irfanı içərisində yaşamalıdır" (Şeyx Ədəbalı) həqiqətinə inananlar bu gün az qala barmaqla sayılacaq dərəcədə azdır. Zəlimxan isə sübut etdi ki, onun gəlişi Ədəbalının Osman Qaziyə təlqin etdiklərinə yeddi yüz ildən sonra "Amin!" söyləməkdən ötrü baş verib:



> Kitab bizim, Quran bizim, ocaq bizim, pir bizim,
> Qıfıl bizim, açar bizim, hikmət bizim, sirr bizim,
> ...Bizim olan, bizdən olan, bizlərə xoş gəlmisən.

* * *

Zəlimxan Yaqubun şeirlərində türkün genetik yaddaşı dipdiridir. Onları məhdud məhəlli çərçivəyə salıb, yalnız bu müstəvidə dəyərləndirmək də olmur. Zəlimxanın obrazlar sistemindəki insanlar minillər boyu təşəkkül tapmış bir şəcərəni ehtiva edir: Alpamış, Manas, Koroğlu, Mete, Attila, Çingiz, Bilgə, Osman Qazi, Fateh, Əmir Teymur, Oğuz xan, Ərtoğrul bəy, Orxan Qazi, Xətayi, Sultan Səlim, Dədə Qorqud, Yunus İmrə, Əhməd Yəsəvi, Hacı Bəktaş Vəli, Tapdıq Əmrə, Mövlana, Nizami, Mənsur Həllac, Nəsimi, Füzuli, Kaşqarlı Mahmud... Siyahını istənilən qədər uzatmaq olar. Üstəlik Zəlimxanın təbivaalasının səfər etdiyi tarixi və coğrafi məkanlar da eyni ümummilli miqyasları qapsayır: Təbrizdən İstanbulacan, Göyçədən Qarabağacan, Naxçıvandan Borçalıyacan, Məkkədən, Mədinədən Anadoluyacan, Bakıdan Dərbəndəcən, Kərkükdən Çin səddinəcən... Tariximizin və mənəviyyatımızın bütün guşələrində Zəlimxan Yaqubun ilhamını dindirən vəsilələr çoxdur. Türkün cahan hakimiyyətinə bağlı və heç vaxt utopik olmayan düşüncəsi bu gün həm də Zəlimxanın yaradıcılığında cərəyan etməkdədir. Və şükür ki, onun Göylə də, Yerlə də rabitəsi daimidir. Özü demişkən, bir əli göydə, bir əli yerdədir, bir əli haqda, bir əli torpaqdadır.

Zəlimxan Yaqubun ilhamı haralara qanad gərir-gərsin, fərq etməz, onun şeirlərinin alt qatında Vətən əxlaqı başlıca yeri mənimsəyir. Bir daha əvvələ qayıdıb vurğulamaq istəyirəm ki, ümmət və milliyyət duyğusunu səbrlə, təmkinlə, inadla şeirdən şerə, misradan misraya aşılayan Zəlimxan Yaqub Azərbaycanın xalq şairi ünvanına gəlib çatanacan məmləkətin turançı şairi olaraq qalmağı bacardı. Sapmadı, sağa-sola büdrəmədi, heç vaxt "qızıl" Moskvanın, yaldızlı Qərbin şairi olmadı. O, türk milliyyətçiliyinin və iman işığının çevrəsində qələm çaldı. Bir Azərbaycanın deyil, ümumi və böyük vətənin şairi olan Zəlimxanın ədəbi və əbədi xisləti dəyişmədi. Gerçəkdən də: "Zəlimxanın şeirlərində Vətən mövzusu mütləq ölçülərdə təsvir olunmur, ölçüsüzlüyə çevrilir" (Xudu Məmmədov).

Xalq şairinin ikicildliyini oxuduqca ölçüsüzlüyə, müəyyən mənada həm də zamansızlığa qovuşmuş kimi görünən Turan aləminin tarixi VAXTının və əbədi ZAMANının bütün ərkanı ilə necə təzahür etdiyinin də şahidi olursan. Səlim və Xətayi qarğaşasının oxucunu dəbərdən tərəflərinə də hər kitabda Zəlimxan Yaqubun yazdıqlarından düşən işıq kimi bir VƏHDƏT işığı düşmür:

Bizə nə lazımdı? Ağız birliyi,
Ağ baxta yol açan ağ üz birliyi.
Qıpçaq qıvraqlığı, Oğuz birliyi,
Olsaydı Xətayi-Yavuz birliyi,
Axmazdı ildırım, çaxmazdı şimşək,
Bu gün yumruq kimi birləşə bilsək...

"Zəlimxanın nəfəsində bizim milli qəhrəmanımız Mete dilə gəlir, Türküstan dünyası dilə gəlir. Biz bilməliyik ki, Azərbaycanın guşədaşı türklükdür... Bizim Türkiyə və bütün Türküstan dünyasına güvənməyimizdir... Böyük salonlarda bu eşqi tərənnüm eləyir Zəlimxan. Ona görə biz Zəlimxanı ... ictimai ürək kimi tanımalı, ondan ibrət götürməliyik" (Xəlil Rza Ulutürk).

Ulutürkün Azərbaycanın guşədaşı adlandırdığı türklük təkcə Xəlil bəyin deyil, bu düşüncəni paylaşan, bu uğurda şəhid olmuş bütün milliyyətçi aydınlarımızın ədəbi-məfkurəvi qayəsi olub. Əbəs yerə deyildi ki, 1937-ci ildə idealpərvər sənətkarlarımızı elə məhz bu məfkurə sisteminə sədaqət göstərdikləri üçün məhv etmişdilər. Və əgər 1937-ci ildən indiyəcən bu simsar qayələrin arasındakı körpülər qoruna bildisə, əlaqə bağları qırılmadısa, bu mənada millətimizin ayaqda dura bilməsini təmin edən əsas güc mənbəyinin, enerji qaynağının başında daha geniş və böyük miqyasda ədəbiyyatımızın dayandığını etiraf etməliyik.

Milli poeziyanın daşıdığı missiya, təmsil etdiyi əxlaq Zəlimxan Yaqubun "Döyüşən türk, oyanan türk, qalxan türk" şerinin təlqin etdiyi milliyyətçi ovqatın çevrəsində aydın şəkildə yansımaqdadır. Şerin ritmi də, mahiyyəti də müstəsna bir türkçülük havasına malikdir, müəllifinin tarix bilgisi, Tanrı dağlarından Avropaya qədər şaxələnən savaş təfəkkürünə istinadı Zəlimxan Yaqubun sadəcə poetik deyil, fərdi də deyil, artıq çoxdandır ki, milli yaddaşa sahib olduğunu əyani təsdiq etməkdədir:

...Gilqamışdan, Alpamışdan, Manasdan
Geri qalmaz dastan olsun bu dastan.
Qurtar bizi bu həsrətdən, bu yasdan,
Dəniz kimi dalğalan türk, çalxan türk.
Döyüşən türk, oyanan türk, qalxan türk!



Hardan hara getdiyini bilən yol,
Üfüqlərə qovuşanda gülən yol,
Attiladan Atatürkə gələn yol,
Qalxan olsun, başın üstə qalxan türk!
Çanaqqala Malazgirdin davamı,
Türk deyil ki, öz qanından qorxan türk!
Təmiz süddən mayalansın, doğulsun,
Mete kimi, Oğuz kimi bir xan, türk!
Yaddaşında sıralansın, anılsın,
Ərtoğrul bəy, Osman qazi, Orxan türk!
Yenə Tanrı dağlarını qucaqla,
Dağlar olsun səngərin türk, arxan türk!
Döyüşən türk, oyanan türk, qalxan türk!!!

Savaş poeziyamızın dəyərli örnəklərindən hesab edə biləcəyimiz həmin şeir barədə müəllifə ünvanladığı yazıda professor Tofiq Hacıyev: "Türkün cild-cild kitabda deyilməli tarixi coğrafiyasını, qəhrəmanlar, sərkərdələr şəcərəsini bir şeirdə demisən – onları tutmusan, hər anın tarixi rəmzini tapmısan, türkün tarixini türk sözünə sığışdırmısan, türk sözünün bədii-estetik obrazını açmısan. "Mete kimi, Oğuz kimi bir xan, türk!" misra deyil, daşlaşmış etnik tarixdir, türkün şəxsiyyətinin açılmasıdır. Bu misra şerin içində bir şeirdir" – deyə qeyd edirdi.

Qarabağ ərəfəsindəki millətimizə ünvanlanmış ciddi bir çağırışın əks-sədası olan "Döyüşən türk, oyanan türk, qalxan türk"ü mütaliə etdikcə düşünürsən ki, ictimai həyatımızda 20 Yanvar müsibətindən sonra yaddaş ekologiyasının zəhərləndiyi kədərli bir macalda belə şeirlər yazmaq milləti səfərbər etmək baxımından çox əhəmiyyətliydi. Bəzən tarixin elə məqamları olur ki, poeziya ruhun vəsiləsinə çevrilir, cəmiyyətə yaşamaq və var olmaq duyğusunun klassik məşqlərini keçir, millətin ruhunu minordan majora, qərənfildən mərmiyə çevirməyi bacarır. Poeziyamızda iniltili və 20 Yanvardan sonrakı ruh halımız üçün bəlkə də yeganə qorxulu tendensiyasını bir də Zəlimxan Yaqubun şeirləri ortadan qaldırdı. Cəmiyyəti yenidən ruha, cana gətirmək naminə yazılan savaş şeirləri Qarabağ faciəsinin finalına hələ ki, zəfərlə gəlib çıxmamış məmləkətin ruhi ehtiyaclarından qaynaqlanır:

...Can bizim, baş bizim, ruh-bədən bizim,
Gül bizim, çöl bizim, göy çəmən bizim.
Yer bizim, göy bizim, bu vətən bizim,
Millətin yolunda qurbandır bu baş,
Savaş istəyirəm, dəli bir savaş!

* * *

...Zəlimxan Yaqubun qurub-yaratdığı söz aləmində Saz həm də bu poeziyanın həyat və dirilik mənbələrindən biridir. Folklor ənənələrimizə, saz mədəniyyətinə onun qədər içdən bağlanmış, aşıq sənətinin texnologiyasını onun qədər mükəmməl mənimsəmiş başqa bir müasir şairimizi misal göstərmək də çətindir.

Etiraf etməliyik ki, Azərbaycanda muğamın dərki müstəvisində ədəbiyyatın timsalında Bəxtiyar Vahabzadənin "Muğam" poeması hansı işi görübsə, Zəlimxan Yaqubun "Saz" poeması da saz havalarının dərki müstəvisində eyni işi görüb (Türk ədəbiyyatında belə təcrübələr əvvəllər də olmuşdu. Klassik türk ədəbiyyatında Nabinin "Hayriyə", Şəmsəddinin "Deh Mürğ", Vəhbinin "Lütfiyə" məsnəviləri bu qəbildən olan örnəklərdi).

Zəlimxan Yaqubun "Saz" poemasında ədəbiyyat tarixmizdə ilk dəfəydi ki, sazın ilahi mənşəyi barədə belə epik vüsətlə bəhs açılırdı. Poema saz havalarını canlı orqanizm, tərcümeyi-halı olan varlıqlar kimi şərh edirdi:

Bəlkə bir üsyandı bu, haqsızlığa,
Divani-məhkəmə, divan deməkdi.
Nahaqdan gedəndə güdaza insan,
Ürəkdə başlanan tufan deməkdi.

Yaxud:

Yox-yox! Sazın tellərində
nə susmaq var, nə lallıq var!
Hər pərdənin ahəngində
bir ölümsüz halallıq var!!!

Zəlimxan haqlıydı. Çünki "Saza və sözə münasibət Azərbaycanda bütün dövrlərin sənət yollarını öz üzərində saxlayan ana gövdədir. Bütün budaqlar bu gövdəni böyüdür və kökə bağlanır. Kənarda cücərmək olsa da böyüyüb bu gövdəyə yapışmaq olmaz. Bu gövdədə cücərib böyümək lazımdır... Kurqanlarda tariximizin keçmiş səhifələri saxlandığı kimi, sazla bağlı ədəbiyyatda da poetik təfəkkürümüzün yüksəliş naxışı saxlanıb" (Xudu Məmmədov).

Gerçəkdən də bu belədir. Hər nə qədər dünyaya çıxış yollarının müasir kodları bilinsə də millətin ədəbiyyatını dünyanın ədəbiyyatına çevirmək üçün yol, əsas qaynaq, ilkin həyat çeşməsi xalqın özündən gəlir.

...Zəlimxan Yaqubun poeziyasında Azərbaycan aşıq mühitinin bütün arealı sərgilənib. Allaha şükür ki, qədim-qaim Borçalı da, bu gün artıq itirdiyimiz və



aşıqlıq şəbəkəsini işğalın viran qoyduğu Göyçə də burdadır. Aşıq sənəti coğrafiyamızın xəritəsi "Saz" poemasında bütün konturlarıyla bahəm yerli-yerində naxışlanıb.

* * *

Milli-psixoloji mahiyyəti üzərində daha çox dayanmağa ehtiyac duyduğum Zəlimxan Yaqubun yaradıcılığı ədəbi-estetik baxımdan da Azərbaycan poeziyasının sərvətləri sırasında özünə layaqətli yer tutmaqdadır.

Ədəbiyyat adına millətin, millət adına ədəbiyyatın yanında olmağı və qalmağı bacaran Zəlimxanın urvatlı poeziyasının məhz bu məqamının etirafı kimi səslənən bu müşahidələr də sərrastdı: "Azərbaycan poeziyasının ən dərin qatlarından gələn, zaman-zaman meydana çıxmış müxtəlif "poetik təriqətlər"dən, "bədii sapmalar"dan yüksəkdə dayanan, "xalq ruhunu" dədə malı kimi qürurla daşımağı bacaran böyük şair Azərbaycan ədəbi-bədii düşüncəsinin, estetik fikrinin qarşısında yeni bir meydan açdı, "ədəbiyyat budur, poeziya bundan ibarətdir!" dedi..."

"...Ədəbi təriqət"lərə könül bağlaya bilməyən şair yazır:

Məndən küsdü soyadım,
Namərd olsun qoy adım.
Səni necə oyadım?
Layla, Xocalım, layla.

Bu və buna bənzər firavan misralarında layla qədimliyinə rəğmən çağdaş dərdlərimizin doğurduğu yeni obrazlar və qafiyə sistemi yaradan Zəlimxan Yaqub "ötəri", "ilğım" qafiyələri, demək olar ki, işlətmir, əvəzliklərlə "doldurulmuş" qafiyələr onu cəlb etmir".

* * *

İdeoloji basqılar hesabına sovet dövründə mahiyyətini itirmiş ənənəvi mövzuları müasir kontekstdə yenidən poeziyaya gətirə bilməsi Zəlimxan Yaqubun milli ədəbiyyatımız qarşısındakı böyük xidmətlərindən biridir. Zəlimxan Yaqub özünün milliyyətçi əhvalı, düşüncələrinin irfani mahiyyəti, çağdaş siyasi proseslərə həssas münasibəti ilə də, eyni zamanda xalq ruhunu şeirlərinin alt qatlarında bərqərar edib milli ruha ehya verə bildiyi üçün də yazdıqları çoxdandır ki, millətimizin dəyərli ədəbi əmanətlərinə çevrilib.

* * *

Azərbaycanın xalq şairi Zəlimxan Yaqub 1950-ci ilin 21 yanvarında Borçalı mahalının Kəpənəkçi kəndində dünyaya gəlib. Kəpənəkçidəki orta məktəbdə təhsil alıb, sonralar isə Bakı Dövlət Universitetini bitirib. Zəlimxan Yaqubu yetişdirən ocaq türk mənəviyyatı və savaş kitabının səhifələrinə Alxas Ağa Hacaloğlu, Kəpənəkçi Emin Ağa imzasını qoyan, Yaqub oğlu Alı kişi kimi bir el ağsaqqalı yetirən şərafətli bir ocaqdır.

Yunus İmrədən miras aldığı Tanrı və insan sevgisinə könül verdiyindəndir ki, Zəlimxan Yaqubun səsi bu qloballaşan dünyanın tən ortasında hər vaxt eşidiləcək və heç zaman qərib olmayacaq. Çünki bir səs ki haqdan gələ, heç zaman qərib olmaz... Çünki türklər dünyanı vətən etməyi bacarır...

Zəlimxan Yaqubun kitabı barədə düşüncələri türk alimi Nizaməddin Onkun sözləri ilə tamamlamaq yerinə düşərdi: "Sinəsində alov-alov duyğular parlayan Zəlimxan Yaqub, xalqını, millətini sevən insandır. Türkçüdür. Türk varlığından təsirlənmişdir. Soyuna, keçmişinə içdən bağlıdır. O öz irqinin köklü mədəniyyətə sahib olduğuna inanmış, könlünü buna vermişdir".

***Azər Turan***



# Şeirlər

## GƏLDİM

Mən yerin altdan çıxdım,
Mən yerin altdan gəldim.
Bir ucu göyə bağlı
İlahi səsdən gəldim.

Ruhum halal mayadan,
Mayam nurdan, ziyadan.
Dağdan, daşdan, qayadan,
Dəmirdən, misdən gəldim.

Haray sazı, ün sazı,
Ömür sazı, gün sazı.
Sinəmdə türkün sazı,
Dilimdə dastan gəldim.

Mənəm haqqın aşığı,
Söz haqqın yaraşığı.
Eşqim Allah işığı,
Haqq adlı dostdan gəldim.

Gözüm nəmin yuvası,
Könlüm qəmin yuvası.
Can sitəmin yuvası,
Ələmdən, yasdan gəldim.

Suya döndüm, içildim,
Yola döndüm, keçildim,
Gülə döndüm, açıldım,
Oldum gülüstan, gəldim.

Buludlardan üzüldüm,
Çiçəklərə düzüldüm,
Füzulidən süzüldüm,
Axdım, Yunusdan gəldim.

## RUHUM

Buludla yağış kimidir
ruhda canım, canda ruhum,
Can heç nədi, bədən heçdi,
çırpınmasa qanda ruhum.
Uçuş yeri üfüqlərdi,
bəzədiyi şəfəqlərdi,
Bir nəğmədi, bir əsərdi,
hər çırpınan anda ruhum.
Çiçəklərin ətrindədi,
sevənlərin xətrindədi,
Şerimin hər sətrindədi,
xalis baldı, şandı ruhum.
Qarın rəngindəki ağdan,
torpaqdakı yaşıl tağdan,
Rəng alıb, nişan götürüb,
qalıb bu nişanda ruhum.
Göylər kimi meydanı var,
neçə-neçə heyranı var,
Zəncirlənməz, buxovlanmaz,
qəfəsdə, zindanda ruhum.
Yuva qurar, yuvalanar,
hava duyar, havalanar,
Özünə bir sirdaş tapar,
hər duyan insanda ruhum.
Görüşdüyü mələklərdi,
qovuşduğu fələklərdi,
Həlak olmaz qasırğada,
sarsılmaz tufanda ruhum.
Turi-Sinada Musadı,
çarmıxda Həzrət İsadı,



Həra dağda Məhəmmədi,
dolaşır Quranda ruhum.
Məcnun kimi səhradadı,
Tahir kimi dəryadadı,
Min illərdi qanad çalır,
nağılda, dastanda ruhum.
Tamahları yox eləyər,
gözü-könlü tox eləyər,
Nə dərd olsa, əlac tapar,
şəfadı dərmanda ruhum.
"Məndə sığar iki cahan",
bu, bir Tanrı nidasıdı,
Əbədilik hökmrandı,
hər iki cahanda ruhum.
"Ləhni Davud avazı"dı,
Vaqif, Ələsgər sazıdı,
Ölümə meydan oxuyar,
yaşar Zəlimxanda ruhum.

*3 aprel 2003*

## ARASINDASAN

Ey insan, hayana qaçırsansa qaç,
Savabla günahın arasındasan.
Sağında gündüz var, solunda gecə,
Axşamla sabahın arasındasan.

Gündə bir qorxu var, gündə bir hədə,
Hər gün dərinləşir ürəkdə zədə.
Həyatla döyüşdə, mübarizədə,
Səngərlə silahın arasındasan.

Nəfsidir insanı döndərir ova,
Kimin hünəri var, qapıdan qova?
Oğulsan, əl atma yağlı plova,
Aş ilə tamahın arasındasan.

Vaxt səni döndərər ota, alafa,
Ha yalvar, yırtıcı gəlməz insafa,
Mədəsi dəyirman, ağzı kalafa,
Pələnglə timsahın arasındasan.

Açdılar, açılmaz sirrin yox sənin,
Soydular, soyulmaz dərin yox sənin,
Allahdan yuxarı yerin yox sənin,
Bəndəylə Allahın arasındasan.

## EY ALLAHI SEVƏNLƏR

Qulaq asın haqdan gələn səslərə,
Qulaq olun, ey Allahı sevənlər!
Qucaq açın "Allah" deyən kəslərə,
Qucaq olun, ey Allahı sevənlər!

Allah olsun dilinizin duası,
Allah olsun gözünüzün şüası,
Allah olsun qəlbinizin mayası,
Çıraq olun, ey Allahı sevənlər!

Gözəlliyin taxtı-tacı qurulsun,
Vurulanlar dönsün bir də vurulsun,
Sizə baxsın, bulananlar durulsun,
Bulaq olun, ey Allahı sevənlər!

Çeşmə duru, dəniz duru, qum duru,
Gül üstə şeh göz yaşından dumduru,
Hikkənizi içinizdə dondurun,
Uşaq olun, ey Allahı sevənlər!

Dinsizlərin insafından, dinindən,
Nifrətindən, qəzəbindən, kinindən,
İblisindən, şeytanından, cinindən,
Uzaq olun, ey Allahı sevənlər!



240547

Göyə baxın, dan ulduzu doğanda,
İşıqlanın, nur zülməti boğanda,
Haqqın nuru yağış kimi yağanda,
Torpaq olun, ey Allahı sevənlər!

Ayaz dəymiş yanaqları qızdırın,
Şaxta vurmuş barmaqları qızdırın,
Buza dönmüş otaqları qızdırın,
Ocaq olun, ey Allahı sevənlər!

Yükünüzü, çəkinizi tanıyın,
Allah adlı təkinizi tanıyın,
Yerə baxın, kökünüzü tanıyın,
Budaq olun, ey Allahı sevənlər!

Könül dostum bir Günəşdi, bir Aydı,
Qəlbimdəki haqdan gələn haraydı,
Zəlimxanın ürəyi bir saraydı,
Qonaq olun, ey Allahı sevənlər!

## BİR İNSAN SEVGİSİ, BİR ALLAH EŞQİ

İşığı, neməti boldu, tükənməz,
Min ildi gəldiyim yoldu, tükənməz.
Yerin işığıynan, göyün nuruynan,
Qəlbimə ömürlük doldu, tükənməz
Bir insan sevgisi, bir Allah eşqi.

Ruhuma Tanrının sazıynan gəlib,
Bəxtimə gözəlin nazıynan gəlib.
Enib göy üzündən mələk donunda,
Dünyanın ən gözəl qızıynan gəlib.
Qardan, qasırğadan keçib yolları,
Fəslin baharıynan, yazıynan gəlib.
Alın yazısı tək çıxıb qarşıma,
Allahın yazdığı yazıynan gəlib
Bir insan sevgisi, bir Allah eşqi.

"İncil"i yazdırır İsa dilində,
"Tövrat"ı yazdırır Musa dilində.
Cansızı canıyla çevirə bilər
Musa əlindəki əsa dilində.
Məhəmməd yaradır Quran dilində,
Fateh danışdırar Turan dilində.
Varlığı, həyatı gözəlləşdirər,
Bütün kainatı gözəlləşdirər
Bir insan sevgisi, bir Allah eşqi.

İlk qadın Həvvadı, ilk kişi Adəm,
İlk sevgi Adəmnən, Həvvadan gəlir.
İnsana vurulmaq, Allahı sevmək
Bu sudan, torpaqdan, havadan gəlir.
Dünya sevgisinə, dünya seyrinə
Hər kəs öz qurduğu yuvadan gəlir.
Duyana ürəkdi, baxana gözdü,
Yazana kitabdı, deyənə sözdü
Bir insan sevgisi, bir Allah eşqi.

Oğullar qəlbinə salır yanğını,
Sürməni qızların qaşına çəkir.
Can verir, qan verir yaratdığına,
Görün, yaradanın başı nə çəkir.
Ürəyi yananda bir dolça su tək,
Dənizi qaldırıb başına çəkir
Bir insan sevgisi, bir Allah eşqi.

Deməklə dəftərə, qələmə gəlməz,
O, südnən yoğrulub, sümüknən gəlib.
O, mənim könlümə dağlardan ağır,
Dağlardan çəkili bir yüknən gəlib.
Qəbir evində də izləyər məni,
Min ildən sonra da gözləyər məni.
Gələn sabahlara, gələn günlərə
Çatan səsim olar, sorağım olar.



Bulanmaz zamanın fırtınasında,
Axarı dumduru bulağım olar.
Hər şeyi tanıyar, hər şeyi görər,
Hər səsi eşidən qulağım olar.
Özüylə yaşadar Zəlimxanı da
Bir insan sevgisi, bir Allah eşqi.

*7 iyun 2000*

## ŞAİR SÜFRƏSİ

Bu süfrəyə uzanan əllərimdə ləkə yox,
Bu süfrənin üstündə haram adlı tikə yox,
Burda yavan çörək var, burda yağlı kökə yox,
Bu süfrə duasını özün oxu, ilahi!

Bu nurlu halallığın kökü dərindən gəlib,
Saflığı dağ çeşməsi, suyu sərindən gəlib.
Bu, əlin qabarından, alnın tərindən gəlib,
Bu süfrə duasını özün oxu, ilahi!

Niyə halal yeyəndə zəhər dönüb bal olmur,
Niyə haram deyəndə dillər dönüb lal olmur.
Hamının süfrəsində həmişə halal olmur,
Bu süfrə duasını özün oxu, ilahi!

Hər süfrə bir ocaqdı, hər közdə bir işıq var,
Hər süfrənin başında məhəbbət, barışıq var.
Bəndənin duasında nəsə bir qarışıq var,
Bu süfrə duasını özün oxu, ilahi!

Haqqın dediklərini bəndələr poza bilər,
Nə bir günah tanıyar, nə qorxu, cəza bilər.
Duasız insan oğlu yolundan aza bilər,
Bu süfrə duasını özün oxu, ilahi!

Bu süfrədə kitab var, qələm, bir də mürəkkəb,
Yaşaran göz, yanan can, coşan ilham, daşan təb,
Bu süfrənin neməti ulu söz, ali mətləb,
Bu süfrə duasını özün oxu, ilahi!

Bu, şair süfrəsidi, artıq tamahdan uca,
Savabdı başdan-başa, durar günahdan uca.
Kimdi sözün sahibi qadir Allahdan uca,
Bu süfrə duasını özün oxu, ilahi!

## MƏNDƏDİ

*Ulu Nəsiminin ruhuna salam olsun!*

Yenə könlüm xarabadı,
yenə ruhum talan olub.
Nahaq döyüb, haqq döyülüb,
haqqı gözdən salan olub.

Başımda bir duman var ki,
dağ yanımda yalan olub.
Bulud mənəm, duman mənəm,
amanlar, ahlar məndədi.

Qoca da mən, müdrik də mən,
uşaq da mən, çağa da mən,
Kərəm də mən, Lələ də mən,
xaqan da mən, qağa da mən.
Susan da mən, susduran da,
nökər də mən, ağa da mən.
Varlı da mən, yoxsul da mən,
gədalar, şahlar məndədi.

Bağrım başı dəlik-dəlik,
şiş ucunda kabab mənəm,
Dərman mənim, dərd mənimdi,
ağrı mənəm, əzab mənəm.



İldırım mən, şimşək mənəm,
nifrət mənəm, qəzəb mənəm.
Gecə-gündüz evlər yıxan
qanlı silahlar məndədi.

İblis məkri, şərlə böhtan,
demə, təkcə şeytandadı.
Dəvə kinli, qurd xislətli
insan özü meydandadı.
Vuruşmada, çarpışmada
hər gün həcvü-hədyandadı,
Yırtıcılar, əjdahalar,
vəhşi timsahlar məndədi.

Gərək haqqa inanasan,
çiçək açıb, bar tutasan,
Dərə dolu sellər, sular,
zirvə dolu qar tutasan.
Bu ən böyük günahdır ki,
haqqı günahkar tutasan,
Mən bəndəyəm, o Allahdı,
bütün günahlar məndədi.

*25 fevral 2000*

## HAQQA DOĞRU YOL GEDİRƏM

Ay dolandı, il hərlədi çarxını,
Əlli gəldi, keçdim ömrün qırxını.
Görə-görə qan-qadanı, qırğını
Haqqa doğru yol gedirəm nə vaxtdı.

Əsirgəməz Gün işığı, Ay nuru,
Qismətimdi yaz yağışı, yay nuru.
Allah mənə pay göndərib, pay, nuru
Haqqa doğru yol gedirəm nə vaxtdı.

Dərd gəlsə də özümü şən tutmuşam,
O işığın ətəyindən tutmuşam.
Heç bilmirəm uduzmuşam, udmuşam,
Haqqa doğru yol gedirəm nə vaxtdı.

Açdığım əl fələklərə doğrudu,
Tutduğum üz çiçəklərə doğrudu.
Hər gün üzüm mələklərə doğrudu,
Haqqa doğru yol gedirəm nə vaxtdı.

Sudan duru, aydan arı mənəm, mən,
Dağ çiçəyi, zirvə qarı mənəm, mən,
Can sirdaşı, könül yarı mənəm, mən
Haqqa doğru yol gedirəm nə vaxtdı.

Haqqa bağlan, tap qəlbində haqqa bağ,
Haqq axtarma, haqqa boylan, haqqa bax!
Mən sonrayam, haqq əzəldi, haqq qabaq,
Haqqa doğru yol gedirəm nə vaxtdı.

Ulu Tanrım!
"Olmaz"ları "ol!" – eylə,
Ulu Tanrım!
İmanımı bol eylə,
Ulu Tanrım!
Məndən sənə yol eylə,
Haqqa doğru yol gedirəm nə vaxtdı.

## GƏLDİM

Dünya mənim idi
mən olmamışdan,
Bilirəm dünyaya
mən nəyə gəldim.
Yazıldı alnıma
sözün qisməti,
Sözümü zamana
deməyə gəldim.



Yamac buz olanda,
yal buz olanda,
Yer üzü başabaş
sal buz olanda,
Allah tək olanda,
yalqız olanda,
Tanrıya yardıma,
köməyə gəldim.

*29 sentyabr 2000*

## KÖMƏYƏ HAQQI ÇAĞIRIN

Qəmisi darda qalanlar,
Zəmisi qarda qalanlar,
Namusu torda qalanlar,
Köməyə haqqı çağırın.

Halal haqqı əzilənlər,
Düzü tərsə yozulanlar,
Bəxti qara yazılanlar,
Köməyə haqqı çağırın.

Güldən çox alaq görsəniz,
Xeyrə şər calaq görsəniz,
Çarmıx, daşqalaq görsəniz,
Köməyə haqqı çağırın.

Əl üzməyin ətəyindən,
Balı süzün pətəyindən.
Çəkinməyin kötəyindən,
Köməyə haqqı çağırın.

Var-dövlət də, ad da yalan,
Damaqdakı dad da yalan,
Dost da yalan, yad da yalan,
Köməyə haqqı çağırın.

Çiyinləri əyəndə yük,
Başda biz-biz duranda tük,
Eşqi uca, səbri böyük
Köməyə haqqı çağırın.

Bəndənin verdiyi ahdı,
İşi-gücü suç-günahdı.
Haqqın ünvanı Allahdı,
Köməyə haqqı çağırın.

*25 noyabr 2001*

## QURANI SƏHV OXUMA

Biz ona ilahidən
verilən dərs demişik,
Biz ona ilahidən
süzülən səs demişik.
Biz ona yaranışdan
pak, müqəddəs demişik.
Quranı səhv oxuma,
Allaha ağır gedər.

Onun dərkinə varmaq
ər oğlu ər işidir,
Zərgərlik sənətidir
fikirlər zər işidir.
O, Tanrı möcüzəsi
o, peyğəmbər işidir,
Quranı səhv oxuma,
Allaha ağır gedər.

Nə ucadı məqamı,
nə şirindi əzabı,
Tilsimlərin dilidi,
sualların cavabı.



Dürüst oxu, gözəl de,
birə mindi savabı,
Quranı səhv oxuma,
Allaha ağır gedər.

İlqar-iman sahibi
ocaq olar, kül olmaz,
İmansız bir ürəkdə
tikan bitər, gül olmaz.
Allaha ağır gedən
bəndəyə yüngül olmaz,
Quranı səhv oxuma,
Allaha ağır gedər.

Quran nə bütpərəstin,
nə də ki, bir bütündü,
Yoxdu onu yandıran,
onu danan büt indi.
Yerlə göy arasında
dağılmaz bir sütundu,
Quranı səhv oxuma,
Allaha ağır gedər.

Dəryadakı damlada,
səhradakı qumdadı,
Torpaqdakı toxumda,
tarladakı tumdadı.
Gündüzlər xəyalımda,
gecələr yuxumdadı,
Quranı səhv oxuma,
Allaha ağır gedər.

Üstündə haqqın əli,
yaradanın zəhmi var,
Bir sözdə min aləmin
düşüncəsi, fəhmi var.

Demə ki, bağışlayar,
o, rəhmandı, rəhmi var,
Quranı səhv oxuma,
Allaha ağır gedər.

Yeri ucadan uca,
yaşı uludan ulu,
Hər nöqtəsi, vergülü,
ilahidən vurğulu.
Övliya da, şeyx də,
imam da onun qulu,
Hər qəlbə o kitabdan
yol gedər, cığır gedər,
Quranı səhv oxuma,
Allaha ağır gedər.

*15 noyabr 2000*

## ALLAH EVİNDƏ

Uçur, qanadlanır Allaha doğru
İnsan bir quş olur, Allah evində!
Duyduğu, gördüyü, fikirləşdiyi,
İnsana nuş olur, Allah evində!

Qüdrətdən xəlq olub, nur doğulubdu,
Möcüzə yaranıb, sirr doğulubdu.
Burda Əli kimi şir doğulubdu,
Könüllər xoş olur, Allah evində!

Quşun ləleyindən yüngül olur can,
Durulub damarda nura dönür qan.
İncəlir, kövrəlir, saflaşır insan,
Yanaqlar yaş olur, Allah evində!

Allahdan güc alır hər yanda insan,
Cahandan böyükdü cahanda insan.



Qara daş sehrini duyanda insan,
Heyrətdən daş olur, Allah evində!

Qızıl qapılarla öpüşən günü,
Ən uca arzuyla tapışan günü,
Kəbənin qulpundan yapışan günü,
Bir ömür beş olur, Allah evində!

Şərəfdi insanın dağlar aşması,
Ruhun kükrəməsi, qəlbin daşması.
Bəndənin Allahla yaxınlaşması
Ən böyük iş olur, Allah evində!

Doymazsan, min dəfə baxsan da azı,
Silinməz tarixdi, pozulmaz yazı.
Kəbənin içində qılsan namazı,
Hər şeydən baş olur, Allah evində!

*Məkkə-Bakı, avqust, 1994*

## MƏKKƏ YOLU

Bu yol Məkkə yoludu,
Bu yol şərəf-şan yolu.
İnsana, insanlığa
Nurlu Kəhkəşan yolu.

Göydən gələn səslərin,
Səsi duyan kəslərin,
Əsil müqəddəslərin
Əbədi nişan yolu.

Ürəkdən gələn sözün,
Sözdən yaşaran gözün,
Gözdə alışan közün,
Həddini aşan yolu.

Arzuların, kamların,
Sevgi dolu camların,
Haqqa qul adamların
Qaynayıb daşan yolu.

Fürsət verər duyana,
Canı haqqa qıyana,
Günahını yuyana
Ən böyük imkan yolu.

Gedən dost, gələn Hacı,
Peyğəmbərin meracı.
Bütün yolların tacı,
Din yolu, iman yolu.

Bu yol Məkkə yoludu,
Duyğuların saf yolu.
Tövbə, etiraf yolu,
Mərhəmət, insaf yolu.

Fikirlərin, hisslərin,
Su kimi şəffaf yolu,
Haqq yolu, vicdan yolu,
Din yolu, iman yolu!

Gözsüzlərə gur işıq,
Cansızlara can yolu!
Əbədiyyət yolunda
Əbədi nişan yolu!!!

*Bakı-Cidda, iyul, 1994*

## MƏKKƏDƏ

Çağırdıq qadir Allahı,
Yazıldı qismət Məkkədə.
Çəkdi bizi ziyarətə
Ulu bir qüdrət Məkkədə.



Həftələr aya qovuşdu,
Çeşmələr çaya qovuşdu.
Damla dəryaya qovuşdu,
Yox oldu həsrət Məkkədə.

Şəkər imiş sözdən ötrü,
İşıq imiş gözdən ötrü.
Zəm-zəm suyu bizdən ötrü
Oldu bir şərbət Məkkədə.

Fikir fikrə həyan oldu,
Səsimizi yayan oldu.
Baxanlara əyan oldu
Əsil həqiqət Məkkədə.

Yerdən göyə məhəbbət var,
Göydən yerə məhəbbət var.
Haqqa doğru hərəkət var
Bircədi sifət Məkkədə.

Nur yaranıb, zər doğulub,
İmam, peyğəmbər doğulub.
Əli kimi ər doğulub
Kəbəsi Hikmət Məkkədə.

Dilində Quran ayəsi,
Üstündə haqqın sayəsi.
Allahdandı sərmayəsi
Tükənməz sərvət Məkkədə.

Geyindik ehram paltarı,
Ağlığı dağların qarı.
Yeridik qibləyə sarı
Qıldıq ibadət Məkkədə.

Sevgi çələngi toxuduq,
Ətir daddıq, gül qoxuduq.
İmama rəhmət oxuduq,
Yezidə lənət Məkkədə.

Aydınlığı haqqın nuru,
Təmizliyi sudan duru.
Bu şöhrəti, bu uğuru
Yaradıb qeyrət Məkkədə.

Əl vuranda qara daşa,
Az qalır kı, ağlın çaşa.
Nə gördüksə, başdan-başa,
Heyrətdi, heyrət, Məkkədə.

Nahaq yerə ürək yarma,
Haqq olmasan, haqqa varma.
Ey insan, cənnət axtarma,
Gəzdiyin cənnət Məkkədə.

Baxışlardan nur tökülür,
Dodaqlardan dürr tökülür.
Hər yerdən şükür tökülür,
Yoxdu şikayət Məkkədə.

Tarix qədim, dərgah ulu,
Torpaq odlu, çeşmə sulu.
Kim olsa Allahın qulu,
Çəkməz xəcalət Məkkədə.

Baxın Kəbənin yaşına,
Dünya dolanır başına.
Toz qonsa bircə daşına,
Qopar qiyamət Məkkədə.

Ən uca dövlət kimidir,
Ən dadlı qismət kimidır.
Allaha xidmət kimidir
Kəbəyə xidmət Məkkədə.

Hər ürək bir dolu camdı,
Hər könül bir yanan şamdı.
Sabaha bir ehtiramdı,
Dünənə diqqət Məkkədə.



Bir tanış ol, yaxşı tanış,
Qələmim, yaz, dilim, danış.
Allah əli toxunmamış
Yoxdu bir sənət Məkkədə.

Ər demişik ərənlərə,
Haqqa könül verənlərə.
Məhəmmədi görənlərə
Var bır şərafət Məkkədə.

Yaxın gəlməz ağrı-acı,
İman olsa başın tacı.
Zəlimxan da oldu Hacı,
Tapdı səadət Məkkədə!

*Məkkə, iyul, 1994*

## AÇILDI ÜZÜMÜZƏ KƏBƏNİN QAPILARI

Ulu bir ziyarətin yolunda zəvvar olduq,
Allah bizim yarımız, biz Allaha yar olduq.
Dünyaya təzə gəldik, biz təzədən var olduq,
Ürəklər sudan duru, könüllər Aydan arı,
Açıldı üzümüzə Kəbənin qapıları!

Sanki quru səhralar yumşaldı, məxmər oldu,
Göz gördü bu hikməti, ürəyə xəbər oldu.
Dilimizin nidası "Allahu Əkbər!" oldu,
Fikrimiz, düşüncəmiz dağların dümağ qarı,
Açıldı üzümüzə Kəbənın qapıları!

İllərlə vaxt gəzmişik bu qapını açmağa,
Bu məbədin nurunu ruhumuza saçmağa.
Allah verdi fürsəti, qanadlanıb uçmağa,
Yüz illərin arzusu yetirdi şirın barı,
Açıldı üzümüzə Kəbənin qapıları!

Burda iki tərəf yox, hamı bir tərəf oldu
Durna qatarı kimi möminlər səf-səf oldu.
Ehram paltarı geymək ən böyük şərəf oldu,
Yeridi ağ dalğalar üzü qibləyə sarı,
Açıldı üzümüzə Kəbənin qapıları!

Ağrıların dərmanı, dərdlərin əlacıymış,
Gözün, könlün istəyi, ruhun ehtiyacıymış.
Görüşlərin, yolların, səfərlərin tacıymış,
İllərdi yar gəzirdim, tapdım həqiqi yarı,
Açıldı üzümüzə Kəbənin qapıları!

*Məkkə, iyul, 1994*

## İŞIQLAN KƏBƏNİN NURUNDA, KÖNLÜM

Bu da bir fürsətdi baxtına düşüb,
Baxtın ucalığın taxtına düşüb.
Zamanına düşüb, vaxtına düşüb,
İşıqlan Kəbənin nurunda, könlüm!

Sirdaş ol ulduzla, Günəşlə, Ayla,
Yoldaş ol çəmənlə, çeşməylə, çayla.
Aldığın işığı dünyaya payla,
İşıqlan Kəbənin nurunda, könlüm!

Amandı, çökməsin sis ürəklərə,
Qaranlıq gətirir his ürəklərə.
Allah nuru payla pis ürəklərə,
İşıqlan Kəbənin nurunda, könlüm!

İmanı olanlar dumandan çıxar,
Şübhədən sıyrılar, gümandan çıxar.
Nə çıxsa, yenə də imandan çıxar,
İşıqlan Kəbənin nurunda, könlüm!



Sığın bu dünyanın yaraşığına,
Peyğəmbər nuruna, haqq işığına.
Çevril sevə-sevə haqq aşiğına,
İşıqlan Kəbənin nurunda, könlüm!

Tanrı işığında hamı nurlanar,
Dünyanın sarayı, damı nurlanar.
Yanar ürəklərin şamı nurlanar,
İşıqlan Kəbənin nurunda, könlüm!

Hər kim qara daşı əyilib öpər,
Dizinə güc gələr, qəlbinə təpər.
Yaxşılıq yağdırar, aydınlıq səpər,
İşıqlan Kəbənin nurunda, könlüm!

Süd kimi təmiz ol, qar kimi ağ ol,
Çırpınma şübhənin torunda, könlüm!
Alış ömrün boyu müqəddəsliyin
Odunda, közündə, qorunda, könlüm!
Bəndənin şöhrəti Allah nurudu,
İşıqlan Kəbənin nurunda, könlüm!

*Məkkə, iyul, 1994*

## HƏZRƏTİ ƏLİYƏ QƏSD OLAN GECƏ

O gecə gözünə getmədi yuxu,
Fikri, düşüncəsi getdi dərinə.
Bəndənin Allaha ağ olmağından
Şikayət elədi peyğəmbərinə.

O gecə zülmətlə əlbəyaxaydı,
Nur kimi dünyaya dağılan kişi.
Kəbənin içində dünyaya gəlib,
Allahın evində doğulan kişi.

Onun gözlərində, baxışlarında
İşıqlar sozaldı, şamlar əridi
Bilmirdi o gecə son gecəsidı,
Bilmirdi o səhər son səhəridi.

Qəlbinə dammışdı nəsə elə bil,
Qəlbindən, ruhundan al qanlar axdı.
Özü də bilmədi, sonuncu dəfə
Həsənə boylandı, Hüseynə baxdı.

O hardan biləydi qarşıda nə var,
Evindən çıxanda gecə yarıydı.
Bağlanan həyatın nurlu gözləri,
Açılan ölümün qapılarıydı.

Kufə məscidinə gedirdi evdən,
Bilmirdi bu gediş son gedişidi.
Ağlına gəlməzdi başına gələn,
Neyləsin, hamısı Allah işidi.

Burda tamamlandı ömür dəftəri,
Son arzu, son istək, son gedişidi.
Dilindən düşmədi Allahın adı,
Son gecə, son namaz, son nəfəs oldu.

Daşıdı yükünü daşınmaz qəmin,
Getdi güdazına bir ağlıkəmın.
Qılıncı enəndə ibn Mülcəmin,
Dünya gözlərində dar qəfəs oldu.

Başından almışdı qəfil zərbəni,
Nurlu saqqalına axırdı qanı.
Tanıdı gözləri sataşan kimi
Qatil Mülcəm oğlu Əbdülrəhmanı!

Əbu Süfyan oğlu Müaviyənin
Qurduğu fitnəyə, felə gedirdi.



Allahın aslanı, Allahın şiri,
Bu qoca dünyadan belə gedirdi.

Arxadan adama yara yetirmək
Alçağın, namərdin işi sayılıb.
Döyüş meydanında döş-döşə gəlib,
Üz-üzə gələnlər kişi sayılıb.

Kişilik hardaydı Müaviyədə,
Öndə kişi durar, daldada gədə.
O heç istərdimi cənab Əliylə
Döş-döşə dayansın, üz-üzə gəlsin.
Gücü çatardımı qara bayquşun
Günəşin nuruyla göz-gözə gəlsin!

Kədər bir dəryadı, sevinc qətrədi,
Dinmək istəyənin dili büdrədi.
Məkkə silkələndi, Kəbə titrədi,
Həzrəti Əliyə qəsd olan gecə!

Qaya parçalandı, daş quma döndü,
Axdı göz yaşları, daşqına döndü.
Çaşdı, eşidənlər çaşqına döndü,
Həzrəti Əliyə qəsd olan gecə!

Kufənin köksündə qanlı yaradı,
Bağrı didim-didim, para-paradı.
Tarixin yanında üzü qaradı
Həzrəti Əliyə qəsd olan gecə!

*Kufə, sentyabr, 1994*

## KƏRBƏLA TORPAĞI

Kərbəla düzündən torpaq götürdüm,
Axdı, damarımda qan oldu torpaq.
Qəlbimdə qaynadı, ruhumda yandı,
Canımda ikinci can oldu torpaq.

Kərbəla düzündən torpaq götürdüm,
Gördüm ki, sərasər qandı Kərbəla!
İmam Hüseynin ahına döndü,
Ovcumda od tutub yandı Kərbəla!

Çəkdi xəyalımı olub-keçənlər,
Səhrada küləklər əsən günüydü...
Yezidin qılıncı Həzrət Abbasın
Qələm qollarını kəsən günüydü...

Şəhidlik zirvəsi dağlardan uca,
Düşmənin hiyləsi qırx arşın quyu.
Körpələr "Su!" – deyib qovrulan zaman,
Şırhaşır axırdı Dəclənin suyu...

Gözümə körpəcə Əliəkbərin
Dümağ avazıyan rəngi göründü.
On minlık orduyla yetmiş adamın
Döyüşü, qovğası, cəngi göründü.

"Beyət et!" – dedilər ımam Hüseynə,
O təslim olmadı, olmazdı, bəli!
Onu qoyardımı rüsvay olmağa,
Babası Məhəmməd, atası Əli!?

Gözünün önünə gəldi Hüseynin
Ağrıdan qəddini əydiyi gecə.
Zəhərli qılıncı ibn Mülcəmin
Məsciddə Əliyə dəydiyi gecə.

Gəldi, gözlərinin önünə gəldi,
Acı göz yaşları, təəssüf, qəhər...
Məkkənin içində imam Həsənə
Mərvanın əliylə verilən zəhər...

Kufədən Məkkəyə məktublar gəlir,
Onu çağırırdı xəlifəliyə.
Hanı o məktubu yazan "kişilər"?
Onun köməyinə yetişmir, niyə?!



İşini görmüşdü hiylə, xəyanət,
Dərd sinə üstündə kotandı, xışdı.
Məkkədən Kufəyə gələn Hüseyni
Düşmən Kərbəlada qarşılamışdı..

İki yol var idi qarşıda bu gün,
Ya ölüm, ya qalım, hansını seçsin?
Ölsə, əqidəsi diri qalacaq
Öz şirin canından, bəs necə keçsin?!

O təslim olsaydı Yezıd əmrinə,
Düşmən lovğalanıb, yekələnərdi.
Şəhidlik hüsnünü bəzəməsəydi,
İslamın tarixi ləkələnərdi!

Ulu peyğəmbərdən bır səs ucaldı,
Səs nura çevrildi, nur səsə döndü
Çatdı qulağına imam Hüseynin
Canında bir eşqə, həvəsə döndü!

"Ey mənim istəklim, ey mənim nəvəm,
İşıqsan, zülmətə əyilmə!" – dedi.
"Allahın yolunda şəhid olursan,
Tapın o qüdrətə, əyilmə!" – dedi.

Kimin nəvəsisən, kim olub atan,
Günahdan çəkinmir günaha batan.
İlan tək qıvrılan, iblistək yatan
Kinə, küdurətə əyilmə!" – dedi.

"Sevgidi insanın Məkkəsi, piri,
Əqidən yolunda yan diri-diri.
Şəhid ol, belədir haqqın tədbırı,
Bağlan o qüvvətə, əyilmə!" – dedi.

Nərəsi titrətdi Həzrət Əlinin
Sonsuz səhraları, saysız qumları.
İlahi, mən necə sözə çevirim
Qələmə gəlməyən bu duyumları!

"Bağrımın parası, gözümün nuru,
Tez sarıl silaha, əyilmə!" – dedi.
"Şərə əyiləni haqq bağışlamaz,
Batarsan günaha, əyilmə!" – dedi.

"Sarsılma, düşsən də bərkə, çətinə,
Qoy Tanrım yar olsun mərdə, mətinə.
Peyğəmbər güvənir sədaqətinə,
Sadiq ol Allaha, əyilmə!" – dedi.

"Bilirəm ay oğul, işin dardadır,
Demə gücüm hanı, qüvvəm hardadır?
İslamın sabahı sabahlardadır,
Boylan o sabaha, əyilmə!" – dedi.

Bu səsdən güc alan əyilərdimi,
Əyilməz kəslərə tarix baş əymiş.
Mən indi bildim ki, bu qətiyyətin
Kökü hardan gəlir, səbəbi nəymiş!

O yana boylanma, bu yana baxma,
Məni duy, məni sev, mənə bax – dedi.
Qalın kitabların deməyini
Ovcumda tutduğum bu torpaq dedi.

Kərbəla düzündən torpaq götürdüm,
Tapdım sərvətimi, tapdım zərimi.
Dəftərdən, qələmdən, kitabdan əvvəl
Bu torpaq danışdı dediklərimi!

*Kərbəla, sentyabr, 1994*

## UCALIQ

Bəşər yaddaşına yazdı, yaşatdı,
Dünyaya tək gəlib, tək gedənləri.
Hər ocaq yetirməz, hər ana doğmaz,
Dünyaya pak gəlib, pak gedənləri.



Kim sürdü ömrünü, kim verdi bada,
Kimi doğmalaşdı, kim döndü yada.
Ucalan görmədim heç vaxt dünyada
Tanrı varlığına şəkk edənləri.

Şöhrət min illəri keçdi, haqladı,
Nə dağ silkələndi, nə daş laxladı.
Allah öz qəlbində əziz saxladı,
Allahı qəlbinə həkk edənləri!

*Bağdad, sentyabr, 1994*

## ZİYARƏTİN QƏBUL OLSUN, İNSAN OĞLU!

Bir od axdı ürəyimdən dodağıma,
Sətir-sətir sözlər düşdü varağıma.
Pıçıltılı bir səs gəldi qulağıma,
Ziyarətin qəbul olsun, insan oğlu!

Bu səfərdə şərəf, zəhmət, yorulmaq var,
Bir inama min inamla vurulmaq var.
Bu səfərdə çalxalanıb durulmaq var,
Ziyarətin qəbul olsun, insan oğlu!

Niyyət elə, arzuların seç xasını,
Təmiz saxla qəlbin, ruhun aynasını.
Duyğuların sil tozunu, aç pasını
Ziyarətin qəbul olsun, insan oğlu!

Məzar-məzar xatırladın ölənləri,
Səndən əvvəl bu dünyaya gələnləri.
Sən də aşdın Kərəm aşan bələnləri,
Ziyarətin qəbul olsun, insan oğlu!

Bu Qars oldu, bu Qağızman, bu Ərdəhan,
Bu Konyadı – Mövlanası nurlu cahan.

Dolmabağça qızıl tağlı bir asiman,
Ziyarətin qəbul olsun, insan oğlu!

Sadiq olub haqdan enib gələn əmrə
Dadaloğlu, Qaracaoğlan, Yunus İmrə.
Nurun yağsın neçə qəlbə, neçə ömrə,
Ziyarətin qəbul olsun, insan oğlu!

Heyran qaldım səndə olan bu heyrətə,
Dağ baş əyər dağdan ağır məhəbbətə.
Sən özün də çevrilesən ziyarətə,
Ziyarətin qəbul olsun, insan oğlu!

Bir qaydadı, baxan görər, gəzən tapar,
Eşqin gücü birnəfəsə min dağ çapar.
Yoluna göz dikənlərə işıq apar,
Ziyarətin qəbul olsun, insan oğlu!

Ömür keçir, bir qırpımdı, bircə andı,
Səni bura çəkən qüdrət ruhdu, qandı.
Mən ocağam, sənin adın Zəlimxandı,
Ziyarətin qəbul olsun, insan oğlu!

*Konya, 1991*

## ŞAİRİN ANDI

***Ey qadir Allah! Sənə ona görə səcdə eləmirəm ki, sənin cənnətinə tamahım var, ona görə səcdə eləmirəm ki, sənin cəhənnəmindən qorxuram Sənə ona görə səcdə edirəm ki, sən bu səcdəyə layiqsən***

***Həzrəti Əli***

Allah evi! And içirəm,
Ərənlərin canı haqqı!
Məni sənlə görüşdürən
Vaxtın xoşbəxt anı haqqı!



Ürəklərin dolu camı,
Könüllərin yanan şamı,
Gecələrin dadı-tamı,
Sübhün nurlu danı haqqı!

Fikri səf-səf olanların,
Haqqa tərəf olanların,
İşi şərəf olanların
Ölməz adı-sanı haqqı!

Düzün gülü, dağın qarı,
Göyün nuru, yerin barı,
Güldən şırə çəkən arı,
Bal süzdürən şanı haqqı!

Təmizlərin təravəti,
Halalların ləyaqəti,
Zirvələrin əzəməti,
Otun, suyun sanı haqqı!

Doğan günün, xoş saatın,
Üzə gülən bir həyatın,
Yerin, göyün, kainatın,
Əbədi nişanı haqqı!

Mənim fikrim, mənim hissim
Haqq yolundan dönməyəcək!
Əqidəmin qulluğunda
Məhəbbətim sönməyəcək!

Əl vurub Kəbə daşına
Olmuşamsa haqq aşığı,
Mənim süfrəm indən belə
Haqq xörəyi, haqq qaşığı!

Ey evimə gələn qonaq,
Süfrəmdə şərab görməzsən.
Canımda bır narahatlıq,
Ruhumda əzab görməzsən.

Haqqı səpə bilməyənlər
Həqiqəti dərə bilməz.
Heç kəs məni əqidəmdən,
Yolumdan döndərə bilməz!

Qarışqa məndən incimoz,
Danışaram, dilim təmiz.
Yatanda yatağım halal,
Qalxanda mənzilim təmiz.

Özünü yormasın şeytan,
Onu yaxına qoymaram.
Ömrüm boyu haqq yolunda
Qılıncı qına qoymaram!

İnanıram, mən əl vursam,
Əlim qumu göyərdəcək.
Nəfəsim daşlar üstünə
Düşən tumu göyərdəcək!

Minadan ucalan eşqim,
Kəbədən güc alan eşqim,
Məkkədə hac olan eşqim,
Saf toxumu göyərdəcək!

Mən ki qırx beş yaş içində
Zəvvar oldum ziyarətə,
Girdim Kəbə qapısından,
Durdum haqqa, ibadətə,

Mən ki Zəm-zəm bulağında
Əl-üzümü yuya bildim.
Göz gördü, qulaq eşitdi,
Həqiqəti duya bildim,

Mən ki ehram paltarına
Cənnət ətri səpə bildim,
Dilim "Allah!" deyə-deyə
Qara daşdan öpə bildim.



Mən ki Məkkə xatirəli
Bir səfərin zəvvarıyam,
Peyğəmbərin Mədinəsi*
Bir şəhərin zəvvarıyam.

Bulaqların gözü kimi
Ruhun təmiz olmalıdı.
Könülləri isitməyə
Eşqin dəniz olmalıdı.

Gələn gəlmiş axın-axın,
Daha mənə indən belə,
Hamı doğma, hamı yaxın,
Hamı əziz olmalıdı!

Bu söhbəti mən demirəm,
Bu hikməti Quran deyir.
Haqqın ulu dərgahına
Öz evitək varan deyir.

Meraca çapıb atını,
Dində tapıb həyatını,
Göyün yeddinci qatını
Bir gecədə yaran deyir.

Ziyarəti qəbul olan,
Hekayəti məqbul olan,
Allahına Rəsul olan
İman əhli iman deyir.

Ulu Tanrım! Varlığımı
Bu imana layiq elə!
Peyğəmbərin damarından
Axan qana layiq elə!

* Məhəmməd peyğəmbər 622-ci ildə Məkkədən Mədinəyə hicrət etmiş, burada müsəlman icması (ümmü) yaratmışdır. Peyğəmbərin qəbri də Mədinədədir.

Daha mənə ölüm yoxdu,
Daha mənə zaval yoxdu.
Daha menim dəftərimdə
Həqiqət var, xəyal yoxdu!

Daha mənım yeriyəndə
Büdrəməyə haqqım yoxdu.
Daha mənim danışanda
Titrəməyə haqqım yoxdu!

Əlin harama haqqı yox,
Dilin yalana haqqı yox.
Qəlbin kinə, küdurətə,
Nəfsin talana haqqı yox.

Qadir Allah, daha mənim
Günahımı bağışlama!
Bir nemətə əyri baxsam,
Tamahımı bağışlama!

Şair könlüm, indən belə
Günah sənin işin deyil!
Alan alsın, verən versin,
Tamah sənin işin deyil!

Çəkil xəlvət bir guşəyə,
Qələm olsun, varaq olsun.
Qəlbin, ruhun haqq yolunda
Şölələnən çıraq olsun!

Dözüm min bir əzabına,
Hər haqqına, hesabına.
Canım qurban kitabına,
Canı cana layiq elə!

Haqqın yerdə nişanıyam,
Övliyalar mehmanıyam.



Hər kimin ki heyranıyam,
O heyrana layiq elə!

Dərk elədim hikmətini,
Bildim ki, nəyə layiqsən.
Səcdə qılır bəşər sənə,
Sən bu səcdəyə layiqsən!

Qayaların sinəsindən
Qalxan atəşə layiqsən.
Gedən vaxta, gələn günə,
Doğan Günəşə layiqsən!

Buludların yağışına,
Çiçəklərin naxışına,
Ulduzların baxışına,
Göyün rənginə layiqsən!

Bu qurğunun, bu nizamın,
Öz əlinlə yanan şamın,
Bu əbədi ehtişamın
Xoş ahənginə layiqsən!!!

*Məkkə–Bakı, avqust, 1994*

## ŞERİ VARAQDAN OXUMA

Ürəyinə köçür, yaddaşına yaz,
O şeri varaqdan oxuma, qardaş.
Vallah, o misralar varaqlıq deyil,
O şeri varaqdan oxuma, qardaş.

Tanrının dilindən keçib o sözlər,
Allahın əlindən keçib o sözlər,
Kərbəla çölündən keçib o sözlər,
O şeri varaqdan oxuma, qardaş.

Düşüb bir gərəksiz axına gəlmə,
Məndən uzaqsansa, yaxına gəlmə.
O, gərək ürəkdən oxuna, gəlmə
O şeri varaqdan oxuma, qardaş.

Varı tanıyarsan, yoxu bilərsən,
Hardadı ağrının çoxu bilərsən.
Mənim gözlərimdən oxu, bilərsən
O şeri varaqdan oxuma, qardaş.

Ürəkdi, yaddaşdı, ruhdu, nəfəsdi,
Havadı, layladı, nəğmədi, səsdi,
Bütün qəfəsləri qıran həvəsdi,
O şeri varaqdan oxuma, qardaş.

Ocağı səngimir, közü qaralmır,
Meydanı kiçilib, yeri daralmır.
Varaqlar saralır, yaddaş saralmır,
O şeri varaqdan oxuma, qardaş.

Sənlə kəlmə kəsməz, söhbət başlamaz,
Sənlə əkin əkib, torpaq xışlamaz.
Allah bağışlamaz, bəndə xoşlamaz,
O şeri varaqdan oxuma, qardaş.

*8 yanvar 2002*

## HAQQIN DİLİ

Dilim-dilim dillər açır,
Ocağın ocaq dili var.
Ağacın ağac ləhcəsi,
Torpağın torpaq dili var.

Könüllərin eşqinə bax,
Duyğuların məşqinə bax.
Sinələrdə daşqına bax,
Sevginin bulaq dili var.



Dərd danışar ah dilində,
Zor danışar şah dilində.
Danışaq Allah dilində,
Yaradanın haqq dili var.

## HAQQA ARXA ÇEVİRSƏN

Yaradanın yanında günahımız olmasa,
Başımıza bu qədər qan gəlməz, qada gəlməz.
Tərəzinin gözündə savaba yer qalmadı,
Ruhumuz zəhərlənib, ağzımıza dad gəlməz.

Varlığından qanad tax əsib keçən mehlərin,
Saflıq götür nurundan səhər düşən şehlərin,
Haqqa yolu açıqdı əməlisalehlərin,
Dostu şeytan olanın Allahı yada gəlməz.

Haqqa arxa çevirsən, yeyərsən kötəyindən,
Dada bilməzsən eşqin balından, pətəyindən.
Nahaq yerə yapışma Tanrının ətəyindən
Allahı çağırarsan, Allahdan səda gəlməz!

## AYDIN ÜFÜQLƏRƏ BAX, DURUL – DEDİ

Nəyi istəyirsən, hər şeyi verdi,
Dünyaya baxmağa göz verdi Allah.
Bizim əlimizdə qələm işlədi,
Bizim dilimizə söz verdı Allah.

Ocaq bir yerimiz, su bir yerimiz,
Bu dağlar, bu daşlar səbir yerimiz.
Öləndə hazırdı qəbir yerimiz,
Kəfənə bükməyə bez verdi Allah.

Nəfsə, iştahaya olma qul, – dedi,
Nəfs edər adamı qara pul, – dedi.
Aydın üfüqlərə bax, durul, – dedi
Nur verdi, od verdi, göz verdi Allah.

Köhlən havalandı, meydan dar oldu,
Bəzən baharda da yağan qar oldu.
Bir az gəncliyimiz tezbazar oldu,
Bir az ağrıları tez verdi Allah.

Meydan əllinin yox, yüzün olaydı,
Uzun yaşamağa üzün olaydı.
Ömrümüz bir az da uzun olaydı,
Heyif ki, möhləti az verdi Allah.

## TANRIM

Həmişə yüksəliş həsrətindəyəm,
Məni yüksəklərə tuş elə, Tanrım!
Bir zirvə yanında zirvəyə döndər,
Bir qartal yanında quş elə, Tanrım!

Yandır, közə döndər, kömürə döndər,
Qayalar üstündə mamıra döndər,
Məni daşa döndər, dəmirə döndər;
Bir qala bürcündə daş elə, Tanrım!

Qovuşdur ilhamı qaynar çağına,
Qaldır söz gəmimi Ağrı dağına.
Döndər misraları dağ bulağına,
Sən də o çeşmədən nuş elə, Tanrım!

Qəlbində ləkə yox, ruhunda zədə,
Dədələr zirvədi, zirvələr dədə.
Məni uca saxla öldürəndə də,
Belə bir müqəddəs iş elə, Tanrım!



## QOCATƏPƏ CAMESİNDƏ

Qocatəpə camesi... namaz cümə namazı,
Tanrı ibadətində qırx min adam var, azı.
İlk dəfə silkələndi qəlbim, ruhum, varlığım,
Əyilmək taleyimə mənim minnətdarlığım!
Əyildim ucalığa qırx min adamla birgə,
Ulu bır intizamla, dürüst nizamla birgə!
Əyilməz türk övladı nə sultana, nə şaha,
Əyilməz türk övladı nə zora, nə silaha!
Əyilir bu gün ancaq
Ayağının altdakı müqəddəs bir torpağa,
Başının üstündəki uca, qadir Allaha!
Türk oğlu nə düşmənə, nə bir yada əyilər,
Əyilsə əqidəyə, etiqada əyilər!
Türk oğlu dizə çökməz, dız çöksə dağlar belə!
Acı zəhərə dönsə, ən şirin çağlar belə!
Diz çökür bu gün ancaq
Ən qədim bir millətin yenilməz inamına,
Çatır burda ürəklər arzusuna, kamına.
Dilimizə dad verir Quranın hər ayəsi,
Haqqa tapınmaq olmuş insanlığın qayəsi!
Bizi haqqa bağlayır göyə açılan əllər,
Dumduru düşüncələr, tərtəmız, saf əməllər!
Dilimdə xeyir-dua şerimi yaza-yaza,
Çağırıram dünyanı haqq yolunda namaza,
Çağırıram dünyanı türk yolunda namaza!!!

*Ankara, 1990*

## MÖVLANA TÜRBƏSİNDƏ

Xorasandan çıxan köç Bağdaddan, Şamdan keçib,
Neçə güneşli gündə, aylı axşamdan keçib.
Əqidədən doğulub, ölməz inamdan keçib,
Neçə-neçə can yatır Mövlana* türbəsində!

---

* Böyük türk şairi və mütəfəkkiri Cəlaləddin Rumi (1207-1273)

Candakı ruha baxdım, ruhdakı canı gördüm,
Bir zərrənin içində bütöv cahanı gördüm.
Qədim Konyanı gördüm – deməк dünyanı gördüm,
Nə qədər insan yatır Mövlana türbəsində!

Atası Bahəddinlə övladı Sultan Vələd,
Elmlərin sultanı, haqqa dərindən bələd.
Bu müqəddəs ocağa olma, könül, nabələd,
Dumduru vicdan yatır Mövlana türbəsində!

Haqq yolunda əriyən, yana-yana şam olan,
Etiqadı yenilməz, əqidəsi tam olan,
Sözü Allah kəlamı, bayrağı islam olan,
Tanrıya heyran yatır Mövlana türbəsində!

Sözü qələmə gəlməz, haqq-hesaba sığışmaz,
Hər suala yerləşib, hər cavaba sığışmaz.
Bir kitabın açması min kitaba sığışmaz,
Ulu bir dastan yatır Mövlana türbəsində!

Allahdan aşağıda ucaların ucası,
Ustadların ustadı, xocaların xocası.
Şəmsin* könül həmdəmi, Şərqin ulu qocası,
Haqqa mehriban yatır Mövlana türbəsində!

Bura ümid qapısı – dərdə dərmana gəldim,
Dərindən nəfəs dərib, yenidən cana gəldim.
Torpağına baş əydim, dinə, imana gəldim,
Dürüst bir iman yatır Mövlana türbəsində!

Hökmü var bu həyatda hər saatın, hər anın,
Bir evdə doğulan kəs şöhrətidir hər yanın.
Sahili var dünyada hər dənizin, dəryanın,
Sahilsiz ümman yatır Mövlana türbəsində!

* XIII əsr Azərbaycan şairi və mütəfəkkiri Şəms Təbrizi



Sevənə söhbət açar sevilənin adından,
Çıxmaz şeri, söhbəti sərrafların yadından.
"Rəngsizəm, nişansızam!" – deyən söz ustadından
Əbədi nişan yatır Mövlana türbəsində!!!

*Konya. 1991*

## UNUTMA

Ovçu, ova çıxırsan,
Silahını unutma!
Bir damla qan axıtsan,
Günahını unutma!

Dərvişəm deyən kişi,
Dərvişlik paltarını
Əyninə geyən kişi,
Hara gedirsənsə, get
Yaradanın, Tanrının
Dərgahını unutma!

Axşamdan yatan oğul,
Bal kimi yuxuların
Ətrinə batan oğul,
Elə ayıl, elə yat
Zülmət gecələrdə də,
Davam eləsin həyat.
Axşamını fikirləş,
Sabahını unutma!

Ey dilində həmişə
Dedi-qodu gəzdirən,
Qəlbində iblis məkri,
Şeytan odu gəzdirən
Danışanda həmişə
Başının üstünə bax.
Nəyi unutsan, unut,
Allahını unutma!

## GİZLİDİ

Aşkar olan heç nə yoxdu,
Həyatda hər şey gizlidi.
Baxdığın göylər qapalı,
Yer gizlidi, göy gizlidi.

Qaranın üzü sürtülü,
Hara gəldi hey dürtülü.
Yaşılın üstü örtülü,
Mavi gizli, göy gizlidi.

Doğranan, dəlinən deyil,
Kəsilən, bölünən deyil.
Dodaqda çalınan deyil,
Könüldəki ney gizlidi.

"Bağ"dan "Boq"a yol gəlmişik,
Tərs yeriyib, sol gəlmişik.
Dərddən əli bol gəlmişik,
Sevinc gizli, toy gizlidi.

Bağdaddadı, Misirdədi,
Təbrizdəki qəsrdədi.
Kökün hansı əsrdədi?
Nəsil gizli, soy gizlidi.

Kimlər getdi, kimlər gəldi?
Qayaları kimlər dəldi?
Dədəm Qorquddan əvvəldi,
Dastan gizli, boy gizlidi.

Demə, şerin zərifiyəm,
Demə, elmin arifiyəm.
Demə, sufi, hürufiyəm,
Əlif gizli, bey gizlidi.
Aşkar olan heç nə yoxdu,
Həyatda hər şey gizlidi.



## ARZU

Nə ömür tükənə, nə yol tükənə,
Yeriyib gedəsən dağlara doğru.
Zaman əllərində yumağa dönə,
Keçəsən çağlardan-çağlara doğru.

Aşılmaz sədləri bir-bir aşasan,
Bir gün qaynayasan, bir gün daşasan.
Getdikcə özünə yaxınlaşasan,
Yatasan köklərə, tağlara doğru.

Təzə cığır sala, iz tuta insan,
Yolu da yol kimi, düz tuta insan.
Üz qoya Allaha, üz tuta insan,
Gedə dirilərə, sağlara doğru.

## RUH

Ruhun qanadlarını qırmaq olmaz həyatda,
Ruhsuz heç bir cəbhəni yarmaq olmaz həyatda.
Ruhla oyan, ruhla yat, davam eləsin həyat,
Ruhsuz bir addım yola varmaq olmaz həyatda!

## RUHUM

Nə vaxt sakit olacaqsan,
Narahat, nigaran ruhum?
Bir bucağa çəkilməklə
Yoxmu sənin aran, ruhum?

Tərs durub yana çəkdilər,
Hər gün meydana çəkdilər.
Qansızlar qana çəkdilər,
Sağalmazmı yaran, ruhum?

Sən zirvədə görünən qar,
Sən budaqda yetişən bar.
Bir yerdə tutmadın qərar,
Gah dağsan, gah aran, ruhum.

Ulduza yaraşıq olub,
Günəşə sarmaşıq olub,
Dan yerinə işıq olub,
Qaranlığı yaran ruhum.

Keçilməz hədləri keçib,
Qorxulu sədləri keçib,
Bütün sərhədləri keçib,
Varılmaza varan ruhum.

## ŞAİR

Mövzularmı yoxa çıxdı,
duyğularmı tükəndi,
Bəlkə, daha deyiləsi
sözü yoxdu şairin?
Ürəyinin qapıları
gözəlliyə bağlanıb,
Bəlkə, daha görmək üçün
gözü yoxdu şairin?

Yüzilliklər, minilliklər gəlib
keçir aradan,
Zaman özü bircə-bircə seçir
ağı qaradan.
Hər şairə öz yanında yer göstərmir
yaradan,
O dərgahda biri varsa, yüzü yoxdur
şairin.



İlham dağın çeşməsidir, söz çəmənin
çiçəyi,
Haqdan gəlsə solan deyil, sözün bircə
ləçəyi.
Bəndə ilə danışmağa yoxsa dili, dilçəyi,
Allah ilə görüşməyə üzü yoxdur şairin.

## HEYİF GÖY ÜZÜNƏ, HEYİF GÖYLƏRƏ

Göylərin bakirə vaxtı var idi,
Göyün də göy kimi baxtı var idi.
Allahın yanında xətri, hörməti,
Peyğəmbər yanında taxtı var idi.
İbrahim dilində, İsa dilində,
Məhəmməd dilində, Musa dilində
Göydən "İncil" gələr, "Tövrat" gələrdi,
Quran ayəsinin hər gəlişiylə
Dünyaya təzə bir həyat gələrdi.
Hələ göy üzünə insan oğlunun
Raket zərbələri tuşlanmamışdı.
Hələ göy üzünə allahsızların
Qəfil hücumları başlanmamışdı.
"Ağılsız köpəklər ulduza hürüb",
Göy üzü bu qədər daşlanmamışdı.
Min il gözləsən də bu yer üzünə
Daha göy üzündən bir ayə gəlməz.
Tək bircə nöqtəsi, vergülü belə
Bir günə, həftəyə, bir aya gəlməz.
Nahaqdan Allahı çağırmaq əbəs,
İnsanı şeytandan ayırmaq üçün
Allahın özü də haraya gəlməz.
Şeytanın fitvası tutub dünyanı
Çirkab olan yerdə Allah görünməz.
İnsanın başına öz əməlləri
Corab olan yerdə Allah görünməz.

Şeir də, ayə də, nəğmə də, söz də,
Göylərin durulan yerindən gələr.
İnsanın ilahi bir məhəbbətlə,
Göylərə vurulan yerindən gələr.
Heyif göylərdəki büllur saflığa,
Heyif ləkələnmiş bu şəffaflığa.
Bir dəfə deməklə qəlbim soyumaz,
Bəlkə milyon kərə,
bəlkə min kərə,
Heyif göy üzünə,
heyif göylərə.

## SÖZ

Ürək kökü, səs qanadı, el gücü,
Zərif sözdü, kövrək sözdü, incə söz.
Bal dillərdə qaymaqlanar, ballanar,
Lal dillərdə qısılandı küncə söz.

Ovu quşun caynağından saldırar,
Hökmü ilə çay dayanar, sal durar.
Söz yıxanı Tanrı çətin qaldırar,
Şillə sözdü, yumruq sözdü, pəncə söz.

Könül ovlar, qəlb ovsunlar, dil açar,
Gülləkeçməz qayalara yol açar.
Səpiləndə pardaqlanar, gül açar,
Xam torpaqdı qoyulanda dincə söz.

İlahidən gələn nurdu, şüadı,
Tanrıların dilindəki duadı.
Şəhər-şəhər yaratmışıq bu adı,
Təbriz sözdü, Dərbənd sözdü, Gəncə söz.

Onsuz ömrün nə balı var, nə şanı,
O qaynadır qaynayanı, daşanı.
Söz Allahın yer üzündə nişanı,
Allah özü, məncə sözdü, məncə söz.



## GƏLİB

Üzdən ağladığım yadıma gəlmir,
Ağlasam, göz yaşım ürəkdən gəlib.
Sevgim də, sözüm də, məhəbbətim də,
Nə varsa beşikdən, bələkdən gəlib.

Gah sola boylandım, gah da ki, sağa,
Yeridim başıma qar yağa-yağa.
Qalxa bilmişəmsə uca bir dağa,
Bu, təmiz arzudan, diləkdən gəlib.

Varlığım titrəyər, ürəyim əsər,
Qəmli söz qəlbimi doğrayar, kəsər.
Qəriblər dilində yazdığım əsər
Durnanın saldığı ləlәkdən gəlib.

Ancaq özümündü itən sözlərim,
Haqqındı göyərib bitən sözlərim.
Yerin qulağına çatan sözlərim
Göyün üzündəki mələkdən gəlib.

Sazla havalıyam, sözlə diriyəm,
Sevəndə bildim ki, eşqin piriyəm.
Xəstə Qasımların mən də biriyəm,
Mənə bu xəstəlik fələkdən gəlib.

## ÇIRAQQALA

*Memar dostum Ömər Qoçuluya*

Hər qalanın adında bir zamandan nişan var,
Bu qala nur qaladır, bu qala Çıraqqala!
Tacından Günəş öpər, taxtından yaşıl çəmən,
Düşmən üçün göz dağı, dost üçün yaraq qala!

Durar öz səngərində, bərəni, bəndi gözlər,
Göz olar sərhədimə, şəhəri, kəndi gözlər,
Sağı doğma Bakını, solu Dərbəndi gözlər,
Qoymaz haqqın yerini şər tuta, nahaq ala!

Oduyla, alovuyla açılıb lala kimi,
Zaman bağrına basıb istəkli bala kimi.
Hər insanın ömründən bu məğrur qala kimi,
Tarixlərdə yadigar səs qala, soraq qala!

Əllərinlə sığal çək, əldən od alsın qaya,
Ruhlar salama gəlsin, ərənlər çatsın haya.
Hər səhər zirvəsindən boylan bütün dünyaya,
Hər axşam ətəyində sönməz bir ocaq qala!

Bu ucalıq eşqinə qoy dillənsin ozanım,
Mən də coşum, çağlayım, öz zamanım, öz anım.
Ey mənim tale adlı kitabımı yazanım,
Qoyma bu yer tarixin gözündən iraq qala!

Zaman görər işini, yazı dönər qışına,
İlişərsən taleyin kotanına, xışına.
Şair, dön bu qalanın kərpicinə, daşına,
Bəlkə qoca dünyada səndən bir varaq qala!!!



## BAX, BU YAŞAMAQDI, BAX, BU HƏYATDI

Mənə gəl-gəl dedi bu axşam, bu dan,
Aldım qüvvətimi torpaqdan, sudan.
Yetişdim istəkdən, bitdim arzudan,
Elə ki bu dünya qəlbimə yatdı,
Ürəklə dilləndim, ürəklə dedim:
Bax, bu yaşamaqdı, bax, bu həyatdı!

Mehlə mayalandı, şehlə yuyuldu,
Sözümdən həyatın ətri duyuldu.
Şerim ki güllərin ətrinə batdı,
Bax, bu yaşamaqdı, bax, bu həyatdı!

Köklər zolaq-zolaq, budağa bağlı,
İnsan yurda bağlı, dağ dağa bağlı.
İgidlər həmişə yarağa bağlı,
Cığırlar kəmənddi, qayalar atdı.
Köhlən səyirdirəm belədən-belə,
Bax, bu yaşamaqdı, bax, bu həyatdı!

Elə ki ömrümü güldürdü baxtım,
Elə ki zirvədən dünyaya baxdım,
Elə ki ucada quruldu taxtım,
Səsim də Tanrının səsinə çatdı.
Allahdan bir özgə umacağım yox,
Bax, bu yaşamaqdı, bax, bu həyatdı!

Nə kamandan gəlir, nə neydən gəlir,
Avaz haqdan enir, səs göydən gəlir.
Təravət güneydən, quzeydən gəlir,
Qəlbim də, ruhum da donub elə bil,
Gözəllik önündə heyrandı, matdı
Bir günün ləzzəti bir ömrə dəydi,
Bax, bu yaşamaqdı, bax, bu həyatdı!

Torpaq yer üzündə gör neçə rəngdi,
Bulud göy üzündə gör neçə qatdı.
Yerlərlə, göylərlə əlləşə bilsən,
Bax, bu yaşamaqdı, bax, bu həyatdı!

Seli də, çayı da, arxı da gördüm,
Ölüm də, həsrət də, qorxu da gördüm,
Ömür pilləsində qırxı da gördüm.
Bu yarı yaşımda işığa dönüb,
Nur verə bildimsə bir çıraq qədər,
Bar verə bildimsə bir budaq qədər,
Od verə bildimsə bir ocaq qədər,
Desələr, Zəlimxan həyat yolunda
Hər gün addımını inamla atdı,
Düşmən də dost olub deyər ürəkdən:
– Bax, bu yaşamaqdı, bax, bu həyatdı!

## BAŞKEÇİD

Sıxanda könlümü aran yerləri
Quş olub çiyninə qonam, Başkeçid.
Yaşıl yaylaqlara yarım demişəm,
Dilbərim, istəklim, sonam Başkeçid!

Yellərin əliylə açıla yaxam,
Dünyaya qoynundan boylanıb baxam.
Qarınla əriyəm, selinlə axam,
Buzunla bərkiyəm, donam, Başkeçid!

Bədbəxt o kəsdir kı, eşqi dayazdı,
Mın dəfə başına dönsəm də azdı.
Adını ömürlük qəlbimə yazdı,
Çalanda laylamı anam Başkeçid!

Vuruldu şəhərə, bağlandı kəndə,
İstəyim dayanıb durmadı gendə.



Uca zirvələrdən söhbət düşəndə,
Mən sənə gətirdim inam, Başkeçid!

Sözlə xatırlasın, söhbətlə ansın,
Zəlimxan eşqinlə yandıqca yansın.
Qoy sənin adınla qoşa dayansın
Özülüm, şöhrətim, binam Başkeçid!

## BAŞKEÇİD YAYLAĞI

Bura yüz yaşında bir qoca gəlsə,
Göz işığa gələr, diz qüvvət tapar.
Baxar gözəllərin şux yerişinə,
Hər bulaq başında bır cənnət tapar.

Baxmaz baharına, qışına baxmaz,
Saçlar qar olsa da, başına baxmaz.
Təbiət insanın yaşına baxmaz,
Könül doxsanında məhəbbət tapar.

Şehlə dodaqlansın güllərin camı,
Yaşa ürəyincə arzunu, kamı.
Belə bir oylaqda gəzən adamı
Nə dərd üstələyər, nə həsrət tapar.

Qaytarma üstündə dillənəydi saz,
Qayıda biləydim qoynuna hər yaz.
Burda aşıq olsa, şirin bır avaz,
Burda şair olsa, şeriyyət tapar.

Xoşdu bu yerlərdə duman da, sis də,
Meylin nə çəkirsə, dağlardan istə.
Hər çay kənarında, hər bulaq üstə,
Ömür bir əbədi təravət tapar.

Zəlimxan, yaşama torpaqdan ayrı,
Közün nə ömrü var ocaqdan ayrı?
Sözün bu arandan, yaylaqdan ayrı,
Nə dildə səslənər, nə şöhrət tapar.

## SƏHNƏ

Min illərdi qış gələndə qar yağır,
Min illərdi leysan yağışlar yağır.
Yağıb,
        yağır,
                yağacaq yenə!

Min illərdi güllər öpür şəfəqdən,
Min illərdi Günəş doğur üfüqdən.
Doğub,
        doğur,
                doğacaq yenə!

Min illərdi şimşək pozur sükutu,
Min illərdi torpaq sağır buludu.
Sağıb,
        sağır,
                sağacaq yenə!

Min illərdi atmaq olmur həsrəti,
Min illərdi işıq boğur zülməti.
Boğub,
        boğur,
                boğacaq yenə!

Nə gördümsə, təzə heç nə görmədim,
Yer üzündə hər nə varsa, köhnədi.
Bu qədimlik, bu köhnəlik içində
Dünya hər gün təzələnən səhnədi!



## YAŞIL ÇƏMƏN

Qəmli-qəmli üz tutmuşam dərgahına,
Məni qəmdən uzaq elə, yaşıl çəmən!
Macalım yox ömrüm boyu qalmaq üçün,
Bircə günlük qonaq elə, yaşıl çəmən!

Təmizlənim zirvələrin qarı kimi,
Ətirlənim budaqların barı kimi.
Ləçəklərdən şirə çəkən arı kimi,
Sevgimi bir bulaq elə, yaşıl çəmən!

Qəm küsdürür, dərd ağladır ürəkləri,
Məlhəm kimi qoy yarama çiçəkləri.
Səhər vaxtı əsib keçən küləkləri
Saçlarımda daraq elə, yaşıl çəmən!

Yaxşı yağıb, qışda görüb qar işini,
Yaz toxuyub arğacını, ərişini.
Ətir payla, yurdumun hər qarışını
Gözlərimə çıraq elə, yaşıl çəmən!

Mən gəlmişdim nəfəsini qoxlamağa,
Söz vermişdim ömrü cavan saxlamağa.
Nə qalıb ki əlli yaşı haqlamağa,
Qaytar məni uşaq elə, yaşıl çəmən!

## GÖYGÖL

Sazın "Müxəmməs"i, "Misri", "Dilqəm"i,
Tarın "Çahargah"ı, "Şur"udu Göygöl.
Böyük Nizamidən yadigar qalıb,
Xalqımın gözünün nurudu Göygol.
Ləkəsiz qəlbidi Azərbaycanın,
Odur kı, bu qədər durudu Göygöl!

## BİR ŞAİR "DOST"UMA

Qardaş, mən də bu torpağın oğluyam,
Elə bilmə, çox uzaqdan gəlmişəm.
Əzizlərin, doğmaların dostuyam,
Nə ögeyəm, nə qıraqdan gəlmişəm.

Üzdəniraq, yad qazanda bişmisən,
İsti vurub, tuluxlayıb şişmisən.
Sən zənbillə göydən yerə düşmüsən,
Mən ruhumla enib haqdan gəlmişəm.

Neçə dəfə buzdan, qardan çıxmışam,
Min sınaqdan, min bir dardan çıxmışam.
Sıldırımlı qayalardan çıxmışam,
Diş göynədən buz bulaqdan gəlmişəm.

Kişi pozmaz ilqarını, əhdini,
Saya salmaz müxənnətin cəhdini.
Çəmən-çəmən çiçəklərin şəhdini,
Süzə-süzə bal-qaymaqdan gəlmişəm.

Səyirtmişəm babaların atını,
Tanımışam nışanını, zatını.
Öyrənmişəm yerin yeddi qatını,
Qədirbilən bir ocaqdan gəlmişəm.

Əsən yellər qanad verib, qol verib,
Coşan sellər çağlamağı bol verib.
Qarlı dağlar sinəsindən yol verib,
Gen ətəkli göy yaylaqdan gəlmişəm.

Sədasından çox yatanlar ayılar,
Halal ilham haqq vergisi sayılar.
Dalğa-dalğa yer üzünə yayılar,
Bır nəğməyəm, min dodaqdan gəlmişəm.



Küt getdisə, çörək olmaz kündədən,
Göyə çıxsa, Allah olmaz bəndədən.
Ha səpirsən, heç göyərmir səndə dən,
Mən zəmili bir oylaqdan gəlmişəm.

Mən qırmışam bulaqların buzunu,
Sən udmusan varaqların tozunu.
Nəyə gərək söz-söhbətin uzunu?
Sən kitabdan, mən torpaqdan gəlmişəm.

## GÖZƏLDİR

Payız kövrəldəndi, bahar coşduran,
Məni sərt eləyən qış da gözəldir.
Ürəyin daşdımı, demə, ay insan,
Duymağı bacarsan, daş da gözəldir.

Bir gözəl çıxanda çəmənə, düzə,
Fikir ver yanağa, nəzər sal üzə.
Gözəllik baxarmı əyriyə, düzə,
Demə ki, əyridi, qaş da gözəldır.

Zəlimxan, olmasın nə ah, nə aman,
Ağrıdan ağlamaq yamandır, yaman.
Sevincin qəlbini dolduran zaman,
Yanaqdan süzülən yaş da gözəldır!

## GETMƏRƏM

Su içmişəm bulağından dağların,
Bulaq olub süzülməmış getmərəm.
Yazın xeyli həsrətini çəkmişəm,
İntizardan üzülməmış getmərəm.

Gözüm qalıb naxışında, zehnində,
Dayanmışam küləyində, mehində

Qoy islanım yağışında, şehində,
Dolusunda əzilməmiş getmərəm.

Vurulmuşam şimşəklərin oynuna,
Sığınmışam çəmənlərin qoynuna.
Misralarım çiçəklərin boynuna
Muncuq kimi düzülməmiş getmərəm.

Aran anam, yaylaq bacım, dağ atam,
Gərək hər gün şirə çəkəm, tağ atam.
Şerim olub düzə ləzzət, dağa tam,
Bu yerlərə yazılmamış getmərəm.

## XOŞBƏXTƏM

Bu gecə dünyanın ən xoşbəxtiyəm,
Bulaq bir yanımda, çay bir yanımda.
Təbiət nazımla oynayır mənim,
Ulduz bir yanımda, Ay bir yanımda.

Həyat hər insana bir həvəs verir,
Od ürək, od baxış, od nəfəs verir.
Dinirəm, səsimə çöllər səs verir,
Sükut bir yanımda, hay bir yanımda.

Dağlar nə möhtəşəm, nə vüqarlıdır,
Zəlimxan, kainat necə varlıdır.
Ətək çiçəklidir, zirvə qarlıdır,
Qış bir yanımdadı, yay bir yanımda.

## ÇAMLICA

İstanbula baxırsansa, Çamlıcadan bax,
Qoy gözünə gözəlliyin taxtı görünsün.
Ən istəkli nəğməsini oxusun dodaq,
Qoy tarixin ən işıqlı vaxtı görünsün!



İstanbula baxırsansa, Çamlıcadan bax,
Baxışında bu şəhərin baxışı qalsın.
Ürəyində Günəş boyda yansın çılçıraq,
Yaddaşında sarayların naxışı qalsın!

İstanbula baxırsansa, Çamlıcadan bax,
Qəlbin dəniz laylasına, qoy qulaq assın.
Fatehlərə, sultanlara açılan qucaq,
Bir gecəlik qoy səni də bağrına bassın!

İstanbula baxırsansa, Çamlıcadan bax,
Yoxuş çıxıb yol yerisən, zəhmətə baxma.
Az da olsa, ucalığa qonaq ol, qonaq,
Bu bir Tanrı fürsətidir, əldən buraxma!

İstanbula baxırsansa, Çamlıcadan bax,
Türkiyənin göz bəbəyi gözdə nur olsun.
Elə bax ki, sinən altda alışsın ocaq,
Doğma səslər qaynağında səsin gur olsun!

İstanbula baxırsansa, Çamlıcadan bax,
Heyran qalıb, hər baxışa uyarsan onda!
Nə deməkdi kişilərin qoyduğu papaq,
Türkün gücü nə deməkdir, duyarsan onda!!!

*İstanbul, 1991*

## SAXLA

Qocalıb gedirəm aran yerində,
Yaylaq, məndən ötrü dağ yeri saxla.
Çəkim sığalımı körpə güllərə,
Bağbanlıq eşqinə bağ yeri saxla.

Sellərə yem olar sümüyüm, ətim,
Vətənsiz qəribəm, torpaqsız yetim.

Qoy sənin qoynunda bərkıyim, bitım
Kökündən üzülməz tağ yerı saxla.

Yeriyir üstümə dərd qucaq-qucaq,
Solan bir yarpağam, sönən bir ocaq.
Qəbrımi qazmağa bır parça torpaq,
Kəfənim olmağa ağ yeri saxla.

## TƏBİƏT ALLAHIN ŞAH ƏSƏRİDİ

Yenə təbiətlə üz-üzəyəm mən,
Döş-döşə, baş-başa, göz-gözəyəm mən.
Çıxmışam dünyanın adiliyindən,
Gözəllik adlanan möcüzəyəm mən.
Belə duymamışdım gözəllikləri,
Dünyaya gəldiyim gündən bəridi.
Bir səs dalğalandı qulaqlarımda:
– Təbiət Allahın şah əsəridi!

Gəlir ildırımlar kəllə-kəlləyə,
Şimşəklər döyüşür hey kəllər kimi.
Hər zaman döyüşlər sərkərdəsidi,
Qayalar dayanıb heykəllər kimi.
Bilinmır tarixi, bilinmir yaşı,
Buluddan nəm çəkir dağların başı.
Tanrıdan gəlmədi nəqşi, nəqqaşı,
Günəş qızılıdı, şəfəq zəridı.
Günəş də dilləndi, şəfəq də dedi:
– Təbiət Allahın şah əsəridi!

Çeşməsi çağlayır mın illər boyu,
Dərədə çay axır, dağda qar durur.
Qartalı zirvənin, kəkliyi daşın,
Dağ kəli qayanın yaraşığıdır.
Arısı çəmənin, quşu havanın,
Balığı dəryanın yaraşığıdır.



Nazlanır bəxtəvər gözəllər kimi,
Çiçəklər xanımdı, güllər pəridi.
Böcək də, arı da səs-səsə verdi:
– Təbiət Allahın şah əsəridi!

Vurula-vurula gördüklərinə
İnsan şaır oldu, peyğəmbər oldu,
Oğul igid oldu, kişi ər oldu.
Bulaqdan saflığı götürə bildi,
Sudan şəffaflığı götürə bildi,
Qayadan sərtliyi götürə bildi,
Palıddan mərdliyi götürə bildi.
Qolları yollara bənzətdi dünya,
Cığırlar qollarda əzələ kimi.
Şimşəkdən öyrəndi qəzəbi insan,
Coşdu tufan kimi, zəlzələ kimi.
Dalğanı görəndə daldı xəyala,
Dənıztək qabardı, çəkildi insan.
Qara şuma baxdı, qara torpağa,
Şum kımi, yer kimi əkildi insan.
Rəssamdı dağların şəklini çəkən,
Daşlara can verən heykəltəraşdı.
Dağı görməyənin gözləri bağlı,
Daşı duymayanın ürəyi daşdı.
Təbiət eşqinə, sənət eşqinə,
Nə qədər ürəklər yandı, əridi.
İnsan əsər dedi yaratdığına.
– Təbiət Allahın şah əsəridi!

Əli baltalılar ayaq saxlasın,
Yaşını kəsənlər başını kəsər.
Qurudar suyunu gen dərələrin,
Yazını, yayını, qışını kəsər.
Qışda qarı yağmaz, yazda yağışı,
Naləsi kamana, neyə çəkilər.
Bir parça yaşıllıq görmək istəsə,
Yağlı əppək olub, göyə çəkilər.

Qaynar çeşmələri duru saxlamaq,
İşığı qorumaq, nuru saxlamaq,
Yer üstə ocağı, piri saxlamaq,
Torpağın ruhunu diri saxlamaq,
İnsanın ən böyük cavabdehliyi,
Bəşərin ən böyük dərdi-səridi.
Allahı qoruyar şahı qoruyan,
Təbiət Allahın şah əsəridi!!!

## TƏBİƏTİN QOYNUNDA

Dan sökülür, gül açılır, şeh düşür,
Acı sözdən, bəd sifətdən xəbərsiz.
Qartal süzür qayaların qaşında,
Köləlikdən, əsarətdən xəbərsiz.

Bir daş olam, dönəm burda kaş daşa,
Arxa durur, dayaq olur daş daşa.
Min illərdi dağlar verib baş-başa,
Xəbislikdən, xəyanətdən xəbərsiz.

Könül sevir, göz oxşayır, can təpir,
Yaddaşlara möhür vurur iz, ləpir.
Ulu göylər Yer üzünə nur səpir,
Yer üzündə cinayətdən xəbərsiz.

İnsan bilir çətin nədir, zor nədir,
Diri-diri yaşadığın gor nədir.
Gül nə bilsin hiylə nədir, tor nədir,
Ətir saçır siyasətdən xəbərsiz.

İnsan oğlu zilin, bəmin içində,
Gah sevincin, gah da qəmin içində.
Ömür sürüb cəhənnəmin içində,
Kim olubsa bu cənnətdən xəbərsiz.



## SALAM, SARVAN DAĞLARI

Torpaq adı, daş adı, ocaq adı, yurd adı,
Haqqın nuru, işığı həmişəlik burdadı.
Dağa çıxıb Zəlimxan, Musa kimi Turdadı,
İlahi bir eşq ilə baxır sizlərə sarı,
Salam, Sarvan dağları!

Əlli yaşımda çıxdın ürcahıma, uğruma,
Yüz ilin həsrətitək basdım səni bağrıma.
Şır-şır axan suların məlhəm oldu ağrıma.
Göy yaylaqlar başında sən çiçəksən, mən arı,
Salam, Sarvan dağları!

Yaddaşında ellərin neçə qəmli dastanı,
Əbədi sükutdadı Sarvanın qəbristanı.
Torpaq burda şehlə yox, göz yaşıyla istanı,
Möhürlənib daşlara yurdun ötən çağları,
Salam, Sarvan dağları!

Aşırımlar, bələnlər ömrün-günün sınağı,
Xınayaxdı yeridi qayaların yanağı.
Qızlar təpəsindədi gözəllərin yığnağı
Pərvazlanır bəy-gəlin, sığallanır qız, qarı,
Salam, Sarvan dağları!

Borçalı mahalının sərvətisən, zərisən,
Neçə-neçə dostumun dilinin əzbərisən
Ovsunlu bir gözəllik, sehirli bir pərisən,
Ruhumun yaraşığı, eşqimin şirin barı,
Salam, Sarvan dağları!

Min illərlə kişnəyib babamın atı burda,
At üstündə keçirib ömrü, həyatı burda,
Nağıl, dastan, oxşama, qoşma, bayatı burda,
Yenə də arzuların yamyaşıldı tağları,
Salam, Sarvan dağları!

İrvahımlı, Qavıllı, Gərəkməzli, Bədəlli,
Xaccaoğlu, Dəlallar, Talıblı xalqa bəlli.
Nay Vəlinin bulağı könlümüzə təsəlli,
Bu adları qorumaq elin qeyrəti, arı
Salam, Sarvan dağları!

Məmmədxanlı, Çıldırrı, Gərəkməzli, Kələlər,
Şair qədəmlərinə çiçək səpər, gül ələr.
Bu yerlər başımızdan qızıl tökər, ləl ələr.
Aşıb-daşar sel kimi elın dövləti-varı,
Salam, Sarvan dağları!

Qazı yurdu, Qarğalar, Güləmmədli, Qaralar,
Məhəmmədlər, Koxalar qəlbi qəmdən aralar.
Yurdun havası dəysə, tez sağalar yaralar,
Məlhəmimi özün qoy, yaramı özün sarı,
Salam, Sarvan dağları!

Niyə saydım dalbadal bır bu qədər adları?
Yazdım ki, gen açılsın yaddaşın qanadları.
Yurda sahib oğullar yəhərləsin atları,
Yaxına buraxmasın yağıları, yadları.
Millətım qucaqlasın karvan-karvan dağları,
Salam, arxam-dayağım,
Görüşümüz mübarək,
Salam, Sarvan dağları!

## TƏBİƏTİN OVSUNUNA DÜŞƏNDƏ

Nə hirs, nə də acıq olur, İlahi,
Sinə necə varaqlanır, yumşalır.
Ürək necə àçıq olur, ilahi,
Təbiətin ovsununa düşəndə.

Nifrət olmur, qəzəb olmur, kin olmur,
İşıq olur, baxışlarda çən olmur.
İnsaf, iman ürəklərdən gen olmur,
Təbiətın ovsununa düşəndə.



Çəmən sənin, çiçək sənin, quş sənin,
Yaddaş sənin, həvəs sənin, huş sənin.
Yaz səndindi, yay sənindi, qış sənin,
Təbiətin ovsununa düşəndə.

Yada düşməz ağrı-azar söhbəti,
Dedi-qodu, küçə-bazar söhbəti.
İlham gələr, qələm yazar söhbəti,
Təbiətin ovsununa düşəndə.

Qanqalsansa, dönüb çiçək olursan,
İblissənsə, dönüb mələk olursan,
Qayasansa, dönüb ipək olursan,
Təbiətın ovsununa düşəndə.

Lilpar adlı dolça yaşıl, cam yaşıl,
Dəyə yaşıl, daxma yaşıl, dam yaşıl,
Duyğuların dönüb olur yamyaşıl,
Təbiətin ovsununa düşəndə.

Arıya bax, bal süzür, şan yaradır,
Cana məlhəm, gözə dərman yaradır
Hər mənzərə bır Zəlimxan yaradır,
Təbiətin ovsununa düşəndə.

## KƏNDİRLİ QARTAL

Sənın ki məskənın dağlar başıdı,
Sən ki öyrənmısən hündürə, qartal!
Dərələr dibınə kim salıb səni,
Niyə ilişmisən kəndirə, qartal?

Gözün ellərdədi, baxışlardadı,
Gah ələ baxırsan, gah ətə, qartal!
Zirvələr sultanı nə günə qalıb?
Gəldim bu səhnədən dəhşətə, qartal!

Doğra o kəndiri caynaqlarınla,
Səmalar fatehi, qayalar şahı!
Hünərin çatmasa, çağır köməyə,
Yerdə peyğəmbəri, göydə Allahı.

Mahir bir ovçunun baş tutub ovu,
Pusquya salıbdı, bəndə salıbdı.
Allah uçmaq üçün yaradıb səni,
Sürünmək kökünə bəndə salıbdı.

Bülbül qəfəsdə də coşub oxuyur,
Can dustaq olsa da, dili lal deyil.
Qartal buludları yarmaq üçündü,
Şığıya bilmirsə, o qartal deyil.

## YOL

Yola çıx, yola çıx,
Yolları yollara dola çıx!
Eniş en, yoxuş qalx,
Sağa çıx, sola çıx!
Yaxanı yelə ver,
Ömrünü yola ver,
Baş açıq, qol açıq!
Səfərdən qalana
Həmişə yol bağlı.
Səfərə çıxana
Həmişə yol gözəl,
Həmişə yol açıq!!!

## DAĞLAR QONAQLIQ VERİR

Qonaq gəlib dağlara, sazlı-sözlü, qələmli,
Sevincindən kövrəlib, baxır gözləri nəmli.
Yenə də bulaq başı tamaşalı-sənəmli,
Şair gəlib dağlara, dağlar qonaqlıq verir.



Yenə qaynar çeşmədən bir gözəl su gətirir,
Yenə çoban sürüdən qumral quzu gətirir
Yerdən, göydən, havadan Tanrı ruzu gətirir
Şair gəlib dağlara, dağlar qonaqlıq verir.

Cığır tutub əlindən yüksəklərə qaldırır,
Qaya "dirsəklən" deyir, çəmən xalı saldırır.
Sellər, sular dil açıb saz havası çaldırır,
Şair gəlib dağlara, dağlar qonaqlıq verir.

Gah açılır – nur yağır, gah tutulur – çən gəlir,
Duyğumuz, düşüncəmiz zirvələrə tən gəlir.
Üzündə gül haləsi neçə gülbədən gəlir,
Şair gəlib dağlara, dağlar qonaqlıq verir.

Baxır göyün rənginə, baxır qarın ağına,
İnsan burda qovuşur ömrün zirvə çağına.
Ürəyini süfrətək açıb öz qonağına,
Şair gəlib dağlara, dağlar qonaqlıq verir.

Qaya, mamır, daş-kəsək, yağış, bulud, çən, çisək,
Nurlu gün, təmiz hava, yumşaq meh, sərin külək.
Havalanıb coşanda sinəyə sığmır ürək,
Şair gəlib dağlara, dağlar qonaqlıq verir.

## DAĞLAR OĞLU

Dağ çeşməsi istərəm, dodağından öpməyə,
Dağ yağışı istərəm, ürəyimə səpməyə.
Dağ zirvəsi istərəm, qanadlanıb süzməyə,
Dağ yolları istərəm, sinəsində gəzməyə.
Dağ çiçəyi istərəm, ətriylə məst olmağa,
Dağ qartalı istərəm, könlümcə dost olmağa.
Dağları səsləməkdən dilimdə dağ bitdi, dağ,
Dağsız dağlar oğluna çətin olub yaşamaq!!!

## QAYTAR ALDIQLARINI

Mən bir kənd adamıyam, sığmıram şəhərlərə,
Allahım, qaytar məni, geniş düzlərə qaytar.
Gecələr ulduz dərim göylərin yaxasından,
Dan yerinə qovuşdur, saf gündüzlərə qaytar.

Dünyaya quru gələn dünyadan quru getdi,
Uğursuz ömürlərin əldən uğuru getdi.
Asfalt döşəmələrdə gözümün nuru getdi,
Şehdən düşən işığı sönən gözlərə qaytar.

İllər əldən çıxanda yellərdən yeyin gedir,
Çaxnaşmalar içində baş gedir, beyin gedir.
Tanrı, nə itirirsən, mayadan nəyin gedir?
İşıqlı çöhrələri solmuş üzlərə qaytar.

Düşüb ömrün axşamı, səhər gedib, dan gedib,
Qandakı təpər gedib, damardakı qan gedib.
Hər dəfə dərd gələndə canımızdan can gedib
Qaytar gücü, qüvvəti, heysiz dizlərə qaytar.

Gör nə tez başa çatdı tamaşamız, sərimiz,
Üstümüzü qar aldı, isinməmiş yerimiz.
Yox, deyəsən səninlə baş tutmur alverimiz,
Qaytar aldıqlarını, qaytar bizlərə, qaytar.

## BİR KÖHLƏN AT MİNDİM QARABULAQDA

Qarlı Başkeçidin göy yaylaqları
Çəkdi xəyalımı dağlara sarı.
Yarısın sevgidən hamının yarı,
Mənim də sevgim var odda-ocaqda,
Bir köhlən at mindim Qarabulaqda!



İfçin yəhərləndi sevdiyim bir at,
At üstə başqa cür görünür həyat.
Şimşəkdən kişnərti, küləkdən qanad,
Dədə kişilərin sözü dodaqda,
Bir köhlən at mindim Qarabulaqda!

Beynişan oğullar çapdı atları,
Dəydi bir-birinə göyün qatları.
Yarışa çağırdım yelqanadları,
Nisgilim, həsrətim qaldı uzaqda,
Bir köhlən at mindim Qarabulaqda!

Mən dəli bir ovçu, dağ dəli bir ov,
Əlimi yandırdı çəkdiyim cilov.
Burnundan od çıxdı, ağzından alov,
Səyirtdim yağışda, çapdım quraqda,
Bir köhlən at mindim Qarabulaqda!

Dilimdə söz yandı, əllərimdə saz,
Cilvələndi bahar, çiçəkləndi yaz.
Oldum Dəmirçoğlu, oldum Xan Eyvaz,
Koroğlu nərəsi dindi qulaqda,
Bir köhlən at mindim Qarabulaqda!

Bu Söyünçayıdı, bu Salamməlik,
Birinə həsrətəm, birinə ləlik.
Dağlar dilə gəldi: qal həmişəlik,
Səhərin ayazı gəzdi yanaqda,
Bir köhlən at mindim Qarabulaqda!

Qızıl üzəngili, gümüş yəhərli,
Cilovu qızıldan, naxışı zərli,
Tərlan tamaşalı, meydan təpərli,
Uçan qartallarla səsdə-soraqda,
Bir köhlən at mindim Qarabulaqda!

Üz tutun müqəddəs torpağa sarı,
Döşdə gülü öpün, zirvədə qarı.
Gəlin, Borçalının mərd oğulları,
Borçalı qalmasın gözdən iraqda,
Çapın Qıratları Qarabulaqda!!!

## BAHARIN GƏLİŞİ

Yenə təbiətin gəlhagəlidi,
Torpağın tükənməz sərvətinə bax!
Arının çiçəklə öpüşməsinə,
Bülbülün budaqla söhbətinə bax!

Açılıb dağların çatılan qaşı,
Sevincdən süzülür gözünün yaşı.
Toxum dimdiyində qaldırır daşı,
Darının dağ boyda qüvvətinə bax!

Allah vergisidir hər gül, hər çiçək,
Öpür şeh damlası, oynadır külək.
Baxırsan, qızarır qız yanağıtək,
Gülün həyasına, ismətinə bax!

İsınir qayanın, daşın nəfəsi,
Geriyə çəkilir qışın nəfəsi.
Çör-çöpə can verir quşun nəfəsi
Leylək yuvasının hikmətinə bax!

Can verir ovçuya, qan verir ova,
Tərpənir yaz yeli, durulur hava.
Gör necə bərkiyib qurduğu yuva
Quşun dimdiyindən kəlbətinə bax!

Əlləşər, can verər xəstə nar üçün,
Zirvə qar üçündü, bağça bar üçün.



Nə qədər yol gəlib bir bahar üçün,
Qaranquş ömrünün həsrətinə bax!

Yerin sirdaşıdır, göyün həyanı,
Torpaqdan götürür gücü, mayanı.
Palıdın kökləri yarır qayanı,
Yaşamaq eşqinin qüdrətinə bax!

Yerlə pıçıldaşır, göylə danışır,
Sazla söhbət edir, neylə danışır.
Nələri dindirir, nəylə danışır,
Sən bir Zəlimxanın qismətinə bax!

## MEYDAN HƏQİQƏTİNDİR

Xalq ilə görüşməyə üzü olan oğullar,
Xalq ilə danışmağa sözü olan oğullar,
Xalqın beyni, ürəyi, gözü olan oğullar,
Meydan sizindir bu gün!

Bu torpağın odunu yer üzünə yayanlar,
Yurdun hər qarışını göz bəbəyi sayanlar,
Məsləkdə Nəsimiyə, Babəkə oxşayanlar,
Meydan sizindir bu gün!

Qanı təmiz, qəlbi saf, eşqi duru olanlar,
Çöhrəsində, üzündə haqqın nuru olanlar,
Canında el qeyrəti, dağ qüruru olanlar,
Meydan sizindir bu gün!

Ocağa keşik çəkən, gül qoruyan kimsələr,
Bəd nəfəsdən, yad gözdən el qoruyan kimsələr,
Dillərin hücumundan dil qoruyan kimsələr,
Meydan sizindir bu gün!

Nə bəxşişdir, nə paydır, nə hədiyyə, nə sovqat,
Zəhmətin bahasıdır bizə verilən həyat.
Qartal vətəndaşlarım, qeyrətlə çalın qanad,
Meydan sizindir bu gün!

Vəzifəyə, şöhrətə satılanlar, satanlar,
Böyüklər kölgəsində xumarlanıb yatanlar,
Xalqı güdaza verib aralığı qatanlar,
Tərk edin bu meydanı!



Tufanda gəmi gərək, qayıq olmaq çətindir,
Mürgülü başlar üçün ayıq olmaq çətindir,
Layiqli bir millətə layiq olmaq çətindir,
Tərk edin bu meydanı!

Dar gündə qılıncınız, sipəriniz yoxdusa,
Dağı, daşı tərpədən təpəriniz yoxdusa,
Şadlığımdan, yasımdan xəbəriniz yoxdusa,
Tərk edin bu meydanı!

Bir həqiqət çıxmasın fərsizlərin yadından,
Cəsarət tələb edir Vətən hər övladından.
Utanın Koroğlunun, Xətainin adından
Tərk edin bu meydanı!

Öz işini görməmiş boşuna axmaz zaman,
Heç bir kəsin başında nahaqdan çaxmaz zaman,
Cəlladın qəbrini də rahat buraxmaz zaman,
Tərk edin bu meydanı!

Bilirəm, sızdən ötrü
Bu şöhrəti, bu adı,
Bu ləzzəti, bu dadı,
Maşınları, bağları,
Rəngarəng otaqları,
Göyçək katibələri,
Saymaq ilə tükənməz
Nələri və nələri...
Tərk eyləmək çətindir.
Tərk edin bu meydanı, meydan həqiqətindir!

## ƏN BÖYÜK QƏHRƏMANLIQ

Qanqalların içində çiçək ömrü yaşamaq,
İblislərin içində mələk ömrü yaşamaq,
Ən böyük qəhrəmanlıq!

Hiylədən uzaq olmaq məkrin odu içində,
Dili təmiz saxlamaq dedi-qodu içində,
Ən böyük qəhrəmanlıq!

Qarasında batmamaq qəlbi, ruhu hislərin,
Toruna ilişməmək tamahdan hərislərin
Ən böyük qəhrəmanlıq!

Başsızların içində salamat baş saxlamaq,
Huşsuzların içində iti yaddaş saxlamaq,
Çiyində dağ gəzdirib, ürəkdə daş saxlamaq
Ən böyük qəhrəmanlıq!

Qarnına nökərlərin, mədəsinə qulların,
Var-dövlətin içində mənəvi yoxsulların,
Qara qəpiyə dönmüş, dəbdən düşən pulların,
Zamanında yaşamaq,
Göz tökən xəbislərin dumanında yaşamaq
Ən böyük qəhrəmanlıq!

Nə qədər əlləşirsən, çəkilmir bu dumanlıq,
Eh, birdimi, beşdimi insan tutan yamanlıq?
Yamanlığın içində yaxşılığı bacarmaq
Ən böyük qəhrəmanlıq!

## HƏR ŞEY GÖZƏL OLACAQ

Sıxılma, ey ürəyim,
Təngimə, ey nəfəsim.
Solma, ömür çiçəyim,
Enmə, ucalan səsim.
Heç nəyi istəmirəm,
Həyata, insanlığa
İnam bəsimdir, bəsim.
Nur verirsə gözümə
Vətən adlı gur ocaq
Hər şey gözəl olacaq.



Bilmirəm səndə yenə
Yersiz darılmaq nədir?
Düşüb dumana, çənə,
Yolda yorulmaq nədir?
Sevincdən üz döndərib
Qəmə vurulmaq nədir?
Kökdən düşüb susmağın
Vallah nahaqdır, nahaq
Hər şey gözəl olacaq.

Güvən yaratdığına,
Gücü ver ilhamına.
O çatdırır insanı
Arzusuna, kamına.
Səsini qoş ellərin
Toyuna, bayramına.
Yaz bu günün şerini,
Al, bu qələm, bu varaq
Hər şey gözəl olacaq.

Sinənə çək ətrini,
Çiçəyə dön tağında
Bil torpağın qədrini,
Nemət ol qucağında.
Havalan qartal kimi
Aranında, dağında.
Oğlusansa bu yurdun,
Sənindirsə bu torpaq,
Hər şey gözəl olacaq.

Nəğmə deyən dilin var,
Daha nə istəyirsən?
Arxa duran elin var,
Daha nə istəyirsən?
Dildən, eldən, Vətəndən,
Qiymətli nə gəzirsən,
Baha nə istəyirsən?

Bu el sənin elindir,
Ellərin yaratdığı
Bu dil sənin dilindir.
Hər sinənin altında
Çatılırsa gur ocaq,
Hər qayanın döşündə
Çağlayırsa gur bulaq,
Sayma özünü qonaq,
Düşmə həyatdan uzaq,
Hər şey gözəl olacaq,
Hər şey gözəl olacaq.

## BARIŞMARAM

"Barış" – deyib gülümsəmə mənə sarı,
Mən başımı yaran daşla barışmaram!
Tanımışam mənə dağlar çəkənləri,
Him-cim ilə, gözlə-qaşla barışmaram!

Düşmən mənə zor göstərdi, zor elədi,
Ocağımı kül elədi, qor elədi.
Ağlamaqdan gözlərimi kor elədi
Yanağımdan axan yaşla barışmaram!

Dağım vardı, izim orda itər daha,
Cığırlarda boz qanqallar bitər daha,
Aldanmışam, aldandığım yetər daha,
Qəlbi şikəst, ağlı çaşla barışmaram!

Zaman mənlə bir amansız şərt bağladı,
Cəllad oldu, bağlaşmanı sərt bağladı,
Qollarımı qəm sarıdı, dərd bağladı,
Sinəm üstdən keçən xışla barışmaram!

Zülmətləri işıq boğsa, sevinərdim,
Taleyimə Günəş doğsa, sevinərdim,



Yerə yağsa, yurda yağsa, sevinərdim,
Ruhumdakı qar-yağışla barışmaram!

İki yol var, bir zülmətdi, bir işıqdı,
Yollar, izlər, əqidələr qarışıqdı,
Hər savaşın sonu bır gün barışıqdı,
Tarix boyu bu savaşla barışmaram!

## SƏBR ELƏMƏ

Düşün, qardaş, öyüd səni aldatmasın,
Düzün tərsə yozulanda səbr eləmə!
Xəyanətə qurban gedən oğullar var,
Səflərimiz pozulanda səbr eləmə!

Bu taledir... – kim piyada, kimlər atlı,
Qana batdıq, gör bu daşı kimlər atdı.
Düşmən vurdu, yoxsa ağlı kəmlər atdı
Barmağın da cızılanda səbr eləmə!

Çəkməliyik, bizə dərdi zaman verib,
Alan deyil, verdiyini yaman verib.
Sənə güllə atanlara aman verib,
Qan yaradan sızılanda səbr eləmə!

Qara yellər üstümüzdən əsə bilər,
Əyri əllər yolumuzu kəsə bilər,
Babaların ruhu bizdən küsə bilər
Tarix saxta yazılanda səbr eləmə!

Bir doğrunun ürəyindən gələn haqq səs
Min yalanın hökmü ilə bata bilməz!
Alçaqların qəbrini qaz, kökünü kəs
Sənə qəbir qazılanda səbr eləmə!

# ŞƏHİD QANI

*Məyus olma, amandır,*
*Məyus olmaq yamandır.*
*Qorxaq diləksiz yaşar,*
*Millətim qəhrəmandır!*

***Məhəmməd Hadi***

Həyatımda ilk dəfə bu qədər qan görürdüm,
Qızıl qana bələnmiş sökülən dan görürdüm,
Qan içində çalxanan Azərbaycan görürdüm
Yerdən, göydən, dənizdən axırdı şəhid qanı!

Əzizinəm qan ağlar,
Könül ağlar, can ağlar.
Bu gün yaman günümdür,
Mərd yanar, meydan ağlar.

Həyatımda ilk dəfə bu qədər gül görürdüm,
Hər gulün arxasında sınan könül görürdüm,
Bütün Azərbaycanı məlul-müşkül görürdüm,
Dünyanı yandırırdı, yaxırdı şəhid qanı!

Əzizim nələr gördüm,
Dərd dağı dələr gördüm.
Min şəhidin yasında
Bir xalqı mələr gördüm.

Həyatımda heç zaman belə dərd görməmişdim,
Dərdi belə amansız, belə sərt görməmişdim,
Mənim düşmənim qədər mən namərd görməmişdım,
Namərdlərin başında çaxırdı şəhid qanı!

Əzizinəm yas günü,
Yas – qara libas günü.
Qoymaram qiyamətə
Qala bu qisas günü.



Bu yükü götürməyə hər çiyində tab olmaz,
Hər sözü, cümləsi qan, heç belə kitab olmaz,
Bir xalqın ürəyində bu qədər əzab olmaz,
Bir milləti yay kimi sıxırdı şəhid qanı!

Əzizim sıxar məni,
Bir yana çıxar məni.
Bu qədər göz yaşları
Dağ olsam, yıxar məni.

Yağış olub yağırdı, qar olub əriyirdi,
Dağ olub tərpənirdi, daş olub yeriyirdi,
Bizimlə ağlayırdı, bizimlə kiriyirdi,
Hamının gözlərindən baxırdı şəhid qanı!

Əzizim qara qanlı,
Çək zülfün dara qanlı.
Cəllad, əlin qurusun
Güllə sərt, yara qanlı.

Dost-düşməni seçirdi ayran ilə yağ kimi,
Tanıdırdı dünyaya şəhidləri sağ kimi.
Bir ınamı yerindən qaldırırdı dağ kimi,
Bir inamı kökündən yıxırdı şəhid qanı!

Əzizim başa çıxdı,
Yol gəldi daşa çıxdı,
Bir inama güvəndim
Əllərim boşa çıxdı.

Xalqıma yamaq olan maymaqların, kütlərin,
Yalan üstə əyləşən allahların, bütlərin,
Peysəri yoğunların, qəlbi, beyni lütlərin,
Axır ki, axırına çıxırdı şəhid qanı!

Əzizim yalan olmaz,
Yad dərdə qalan olmaz.

Kişi satqın çıxmasa,
Torpağı talan olmaz.

Heç vaxt şərin atını uzağa sürmək olmaz,
Belə ağır günahın altına girmək olmaz.
Onu torpaqdan silib, yerdən götürmək olmaz
Düşmən qoy yaxşı bilsin, ağırdı şəhid qanı!

Əzizim keçər gedər,
Gələnlər köçər gedər,
Hər kəs öz əkdiyini
Axırda biçər gedər.

Alçaqların başında qiyamətlər qoparan,
Vətənin dar günündə dəniz kimi qabaran,
Zaman-zaman bu xalqı haqqa doğru aparan
Yoldu, izdi, naxışdı, cığırdı şəhid qanı!

Əzizim ordu məni,
Qan tökdü yordu məni.
Qoy bu dünya tanısın
Şəhidlər yurdu məni!!!

## AND YERİMİZ

Vətən bizim qibləmiz,
Vətən eşqi şahımız.
Unutsaq bu hikməti,
Yuyulmaz günahımız.

Qar oldu, ayaz oldu,
Gah qış, gah da yaz oldu.
Qılınc oldu, saz oldu
Ən kəskin silahımız.



Getsin duman-çənimiz,
Sünbüllənsin dənimiz.
İtməsin dünənimiz,
Batmasın sabahımız.

Göydədi sönməz işıq,
Göydədi yar-yaraşıq.
Göylərə bağlanmışıq,
Yerdə qalmaz ahımız.

Bir arzunun şamıyıq,
Bir sevginin camıyıq,
Biz Allah adamıyıq,
Eşidər Allahımız.

Gəz-dolan, baxdıqca bax,
Nə çox dünyada torpaq.
Azərbaycandır ancaq
Andımız, "vallah"ımız!

## QALMAZ

Bu gün qara geymişəm, qara günümdür mənim,
Dünyanı silkələyən ahım, ünümdür mənim.
Şəhidlər xiyabanı qibləm, yönümdür mənim,
Öz dərdimi çəkməsəm, özgələr dərdə qalmaz!

Tale məni köklədi bir qəmli zaman üstə,
Yatan yatır məzarda, qalan qalıb can üstə.
Ağladaram dünyanı saz üstə, kaman üstə,
Bu gün əlim dəyməmiş sim qalmaz, pərdə qalmaz!

Çox uzaq gedə bilməz bu qurğular, hoqqalar,
Dönər Misri qılınca, düz yalanı şaqqalar.
Lap dünya dağılsa da öz yerini haqq alar,
Heç vaxt xeyrin qisası böhtanda, şərdə qalmaz!

Xəyanət küləkləri harın-harın əssə də,
Ölüm, həsrət, ayrılıq qapıları kəssə də,
Dərdli könül inciyib ruzigardan küssə də,
Mərdlər arxayın olsun, dünya namərdə qalmaz!

Vicdanın işığında həyat duru görünər,
Hər addımda dünyanın bir uğuru görünər.
Şəhidin torpağında haqqın nuru görünər,
Cəlladın sifətində ismətdən pərdə qalmaz!

Sınar dağların beli, bu qədər ah götürməz,
Adı insan olan kəs belə günah götürməz.
Yerdə bəndə götürsə, göydə Allah götürməz,
Qəm yemə, dəli könlüm, nahaq qan yerdə qalmaz!

## NİFRƏTİM

Nə zaman ki haqq döyülür, nahaq döyür,
Nə zaman ki şər qapına ayaq döyür,
Nə zaman ki evdə səni "qonaq" döyür
Tufan elə, külək kimi əs, nifrətim!

Günümüzü göy əsgiyə düyən olsa,
Haqqımızı zor gücünə yeyən olsa,
Ana yurdun sərhədinə dəyən olsa,
Şimşəyə dön, sal göylərə səs, nifrətim!

Bir daşına qıyan olsa, min zilə çək,
Köhlənini yola çıxart, mənzilə çək.
Sınaq günü bəmdə durma, sən zilə çək,
Belə yerdə gərək deyil pəs, nifrətim!

Öz yerimə yağış olub yağmalıyam,
Öz yurduma Günəş olub doğmalıyam.
Xəyanəti beşiyində boğmalıyam,
Silah götür, daha bəsdir, bəs, nifrətim!



Bu torpağın taleyini qorumasa,
Kimə gərək quru torpaq, quru masa
Azərbaycan arzulardan yarımasa
Qılınca dön, küt başları kəs, nifrətim!

## SƏN QALİB GƏLƏCƏKSƏN

Addımbaşı ölümlə çarpışan şirim mənim,
Ölümsüzüm, ölməzim, əbədi dirim mənim
Gur ocaqlar yandıran ocağım, pirim mənim,
Yüz minlərin içində minim yox, birim mənim
Allah özü də təkdir, baxma meydanda təksən,
Sən qalib gələcəksən!

Haqsızlığın içində boğulan haqlar da var,
Səddi keçilməz olan ağır sınaqlar da var,
Kürəyinə sancılan qanlı bıçaqlar da var,
Əlindən, ayağından çəkən alçaqlar da var.
Ağrıların, dərdlərin olsa da dağlarla tən,
Sən qalib gələcəksən!

Qoşqar, Kəpəz ağrıdan qamətini əysə də,
Halal bərəkətinə haram əllər dəysə də,
Qapını axşam-səhər qara yellər döysə də,
Bu torpaq başdan-başa qara libas geysə də,
İşıqlı yollarını tutsa da dumanla çən,
Sən qalib gələcəksən!

Yerlə göy sənə qarşı silaha sarılsa da,
Müqəddəs sərhədlərin min yerdən yarılsa da,
Yeddi milyon əsgərin yarısı qırılsa da,
Qəhrəman oğulların alnından vurulsa da,
Gülüb nahaq qanlara, olsa da düşmənin şən,
Sən qalib gələcəksən!

Bır gecənin içində ağaran saçın da var,
Suları qan axıdan Qarqar da, Xaçın da var,
Sızlayan Qarabağ da, inləyən Laçın da var,
Min dəfə ağır olan çəkilməz dərdlər də var,
İçimizi qurd kimi yeyən namərdlər də var.
İstiqlalın yolunda zülüm, zillət də çəksən,
İstiqlala çatmağa xeyli həsrət də çəksən,
Sən qalib gələcəksən!
Sən qalib gələcəksən!

## ÇIXIŞ EDİR XƏLİL RZA

*Şəhid oğulun yasında şair atanın çıxışı Xəlil Rzanı sağlığında ölməz elədi, qanla yazılan Azərbaycan tarixinin bir parçasına çevirdi*

Əyilməzlik Ulutürkün əslındədi, soyundadı,
Palıd kimi qamətində, çinar kimi boyundadı.
Elə bil ki, öz oğlunun yasında yox, toyundadı,
Azadlığın, istiqlalın tarixini yaza-yaza,
çıxış edir Xəlil Rza!

Oğlun ölə, sən kədərin ayağına enməyəsən,
Çırağını söndürələr, sən yenə də sönməyəsən,
İlqarından, imanından, məsləkindən dönməyəsən,
Bu qüdrətə qıyanlara Allah özü versın cəza,
çıxış edir Xəlil Rza!

O ağlamır, əvəzində yer ağlayır, göy ağlayır,
Saz dil deyır, tar oxuyur, kaman yanır, ney ağlayır.
Bu gün ona qulaq asan nə varsa, hər şey ağlayır.
Ürəyindən, baxışından qızıl qanlar sıza-sıza,
çıxış edir Xəlil Rza!

Təbrız təkcə onun deyil, bu millətin balasıdır,
O, tarıxin yaddaşında şəhid kımi qalasıdır.



Dünya boyda ata qəlbi dözüm, səbir qalasıdır,
Dinlədikcə düşünürəm, gərək deyil cəza-fəza,
çıxış edir Xəlil Rza!

Dedim bu gün səsi çıxmaz, gördüm daha gurdu Xəlil,
Şəhidlərin başı üstə şöləlenən nurdu Xəlil.
Bəlkə elə İsrafilin özü çalan surdu Xəlil,
Silkələyir yer üzünü qopan tufan, gələn qəza,
çıxış edır Xəlil Rza!

Bir şairın əqidəsi bir millətə çələng olur,
Böyüdükcə gözümüzdə nəhənglərdən nəhəng olur
Nifrət ilə, qəzəb ilə doldurulmuş tüfəng olur,
Gözü kora, qəlbi daşa, beyni kütə, ağlı aza,
çıxış edir Xəlil Rza!

Qollarında el gücü var xəyanəti boğmaq üçün,
Himə bənddi, düşmən üstə atəş olub yağmaq üçün
Günəş kimi baş-başadır dan yerindən doğmaq üçün
Ocaq kimı yana-yana, dəmir kımi qıza-qıza,
çıxış edir Xəlil Rza!

Təpəsindən çıxan tüstü burum-burum qalxır göyə,
Həmi yanır, həm yandırır "Azərbaycan" deyə-deyə,
Qara dağlar yıxılsa da, çətin, şair boyun əyə
Köləliyin, xəyanətin məzarını qaza-qaza,
çıxış edir Xəlil Rza!

Əyri düzü, pis yaxşını, nahaq haqqı yıxa bilməz,
Şər xeyiri sona kimi sıxışdırıb, sıxa bilməz.
Əqidəsi olan kəsin axırına çıxa bilməz
Heç bir zindan, heç bır məhbəs, heç bir ölüm, heç bir qəza,
çıxış edir Xəlil Rza!

Şəhid oğul, şair ata – hər ıkisi zərif, həssas,
Toyu dünən eləmişdık, nə tez düşdü, tez gəldi yas?

Ana torpaq, şəhidini sevgilərlə bağrına bas,
Yenə üzü baharadı, yenə yolu qışdan yaza,
çıxış edir Xəlil Rza!
Qoy dinləsin qoca dünya,
Çıxış edir Xəlil Rza!
Qoy inləsin qoca dünya,
Çıxış edir Xəlil Rza!

## SUAL-CAVAB

Bu çay niyə nərə çəkir?
Arxasında qarlı dağ var!

Bülbül niyə cəh-cəh vurur?
Xidmətində güllü bağ var!

Çəmən niyə naz eləyir?
Sinəsində gur bulaq var!

Arı niyə bal gətirir?
Öpüşdüyü gül dodaq var!

Könül niyə kökdən düşmür?
Tapındığı bir ocaq var!

Şair niyə havalanır?
Güvəndiyi bu torpaq var!

*14 sentyabr 2002*

## MƏN ÖLƏNDƏ ÜZÜMÜ BORÇALIYA ÇEVİRİN

Orda duydum el ruhunun sazını,
Orda sevdim bir kişinin qızını,
Orda çəkdim gözəllərin nazını,
Mən öləndə üzümü
Borçalıya çevirin.



İçərimdə həsrət adlı yükü var,
Ürəyimdə yaraların kökü var,
Ləlvəri var, Ağlağanı, Lökü var,
Mən öləndə üzümü
Borçalıya çevirin.

Mənim könlüm bu torpağı sevirdi,
Qürbət ellər ömrü yelə sovurdu.
Bəlkə, elə Allah özü çevirdi
Mən öləndə üzümü
Borçalıya çevirin.

Öpsün əsən yellər, yağan yağışlar,
Oxşasın sevdiyim şirin baxışlar.
Məkkə də, qiblə də məni bağışlar
Mən öləndə üzümü
Borçalıya çevirin.

Su vətəndi, balıq torda qəribdi,
Eldən ayrı qəbir, gor da qəribdi,
Mən qürbətdə, Vətən orda qəribdi,
Mən öləndə üzümü
Borçalıya çevirin.

Qoyun məni torpağının altına,
Torpağının, yorğanının altına,
Üzüm olsun ayağının altına,
Mən öləndə üzümü
Borçalıya çevirin.

*6 iyul 2002*

## BORÇALIYLA AZƏRBAYCAN ARASINDA

O elimdi, o kəndimdi, bu şəhərim,
O həsrətim, bu sevincim, bu qəhərim,
Bəlli deyil nə axşamım, nə səhərim
Mən qalmışam axşamla dan arasında.

Üfüqlərdə o bir qartal, mən bir lələk,
Zirvələrdə o bir qaya, mən bir çiçək.
Yaralıyıq, o bir candı, mən bir ürək,
Yaşayırıq ürəklə can arasında.

Bədən birdi, ət dırnaqdan ayrı deyil,
Torpaq birdi, kök budaqdan ayrı deyil.
O məmləkət bu torpaqdan ayrı deyil,
Ayrı nə var ürəklə can arasında?

Biz bilirik təklənməyin əzabı nə,
Biz dözürük ayrılığın əzabına.
Biz gəlmişik şahın, xanın qəzəbinə,
Dava düşüb xalq ilə xan arasında.

Qürbət ellər gözümüzün qıpıq yeri,
Kimsəsizlər bağrımızın yanıq yeri.
Sınıq körpü könlümüzün sınıq yeri,
Hökm oxunub saatla an arasında.

Duyğularım enər bəmə, qalxar zilə,
Bu yollarda dərdim düşüb dildən-dilə.
Bir ömürdü, ərıdirəm gilə-gilə,
Borçalıyla Azərbaycan arasında!

*6 mart 2001*

## ƏSGƏR QARDAŞIMA MƏKTUB

Arxaya çəkilsən, arxa – uçurum,
Kənara dayansan, kənar – ölümdü.
Kişinin qeyrəti coşar – qələbə,
Kişinin vüqarı sınar – ölümdü!

Yurdun iti hürməz, atı kişnəməz,
Keşikdə igidi, əri yoxdusa.



Torpağın altında rahat yatammaz,
Torpağın üstündə yeri yoxdusa!

Yadların yeminə, suyuna döndük,
İçilə-içilə gedirik elə.
Böyüyə-böyüyə tarixə gəldik,
Kiçilə-kiçilə gedirik elə!

Tüstü burum-burum yüksəlir göyə,
Duman içindədir Azərbaycanım.
Şübhələr, gümanlar yedi, doğradı,
Güman içindədir Azərbaycanım!

Özün qaz səngəri, özün aç yolu,
Dumandan, gümandan çıxart milləti!
Ən güclü ordunun zərbəsinə dön,
Ən ağır zamandan çıxart milləti!

Qələbə pay deyil, hədiyyə kimi
Gətirib hardansa verələr sənə.
Özün qazanmasan lənət oxuyar
Bu dağlar, bu düzlər, dərələr sənə!

Güvənə bilməsən öz qüdrətinə,
Oyuncaq əllərdə oyun olarsan.
Ordunun içində məğrur bir kişi,
Sürünün içində qoyun olarsan!

Gördük qazancını qoyun olmağın,
Mən bu gün möhtacam şir oğlu şirə.
Torpağı silkələ, göyü parçala
Döndər məmləkəti ocağa, pirə!

Zaman göstərəcək öz aynasında
Neylədi, kim hansı tərəfə döndü.
Kim xalqı tapşırdı şərəfsizlərə,
Kim xalqın yolunda şərəfə döndü!

Mənim şah damarım, mənim sağ gözüm,
Mənim dağ tərəfim sən olmalısan.
Millət taleyini tapşırıb sənə,
Ən böyük şərəfim sən olmalısan!

Satqına, alçağa, xainə dönsən,
Düşmənin oxuna, yayına dönsən,
İblisin, şeytanın tayına dönsən,
Sən də qurtarmasan Vətəni dardan,
"Yoxdur umacağım pərvərdigardan!!!"

## ŞERİM

Haqqın var baş olub, başda durmağa,
Qaldır məmləkəti ayağa, şerim!
Misralar meydanda mərmiyə dönsün,
Kəlmələr gülləyə, darağa, şerim!

Neçə ki, oğlunu itirir ana,
Neçə ki, körpələr bələnir qana,
Hay vurub, qıy vurub Azərbaycana
Sarıl təpə-dırnaq yarağa, şerim!

Dərk etməz budağı, anlamaz kökü,
Biganə kəslərin tərpənməz tükü.
Sən götür çiyninə ən ağır yükü,
Gəl, çəkmə yaxanı qırağa, şerim!

Ən güclü silahım yar olsun sənə,
Açılan sabahım yar olsun sənə.
Üstümdə Allahım yar olsun sənə,
Dön millət yolunda çırağa, şerim!

Kim necə aparır özünü, sən de,
Doğrunu sən danış, düzünü sən de.
Yaralı günümdə sözünü sən de
Sümüyə dirənən bıçağa, şerim!



Axmasın gözlərdən yaş, necə dözsün,
Yanıb qaralmasın, daş necə dözsün,
Can necə tablasın, baş necə dözsün,
Bu qədər qaçqına, qaçağa, şerim?!

İndidən yaxşıca hesabını çək,
Yerimiz, yurdumuz bilinməyəcək.
Ləkəmiz tarixdən silinməyəcək,
Biz layiq olmasaq bu çağa, şerim!

İşimiz ağırdı, yolumuz çətin,
Güclüdən güclü ol, mətindən mətin.
Sən ki sahibisən bu məmləkətin,
Dönmə öz evində qonağa, şerim!

Durma ortalıqda, ya ucal, ya en?
Boş-boş tüstülənmə, ya alış, ya sön.
Döyüşçü qəlbində əqidəyə dön,
Sınmasın düşəndə sınağa şerim!

Qızıldan bahadır hər gün, hər saat,
Gözləmir, heç kəsi gözləmir həyat.
Torpağı silkələ, göyləri oyat,
Sığışma dəftərə, varağa, şerim!

Aranın gülü ol, dağın çiçəyi,
Yerin tufanı ol, göyün şimşəyi
Od tutub yananda əsgər ürəyi,
Bənzə durna gözlü bulağa, şerim!

Çiynində dərd yükü daşıyan olsa,
Qəmli bir ev olsa, aşiyan olsa,
Harda bir ağrıyan, üşüyən olsa,
Dön orda alışan ocağa, şerim!

Nə qədər od yağır, nə qədər dolu,
Yenə də eşq ilə dolusan, dolu.
Özün sal cığırı, özün aç yolu,
Baxma bu şaxtaya, sazağa, şerim!

Yerində danışdır, yerində dindir,
Düşmənin suçunu boynuna mindir.
Haqq da, ədalət də, yer də sənindir,
Haray sal yaxına, uzağa, şerim!

Sev güllü yazını, qarlı qışını,
Səslə kotanını, hayla xışını.
Qoru bu torpağın hər qarışını,
Baş əy bu müqəddəs torpağa, şerim!

Daşan dənizə bax, coşan selə bax,
Kükrəyən tufana, əsən yelə bax.
Allah necə baxır, sən də elə bax,
Çiçəyə, ağaca, yarpağa, şerim!

Parla Günəş kimi, gəl səhər kimi,
Qarşıla zəfəri sən zəfər kimi,
Yazıl misra-misra şah əsər kimi,
Qələbə günündə bayrağa, şerim!!!

## DUR AYAĞA, MƏMLƏKƏTİM

Düşmən bilir bu torpağın altı nədir, üstü nə,
Onunçün də od yağdırır gecə-gündüz üstünə.
Qurban olum dumanına, qurban olum tüstünə,
Qılınca dön, həqiqətim, qalxana dön, qeyrətim!
Dur ayağa, məmləkətim, qalx ayağa, millətim!

Şuşa, Laçın, Xocalı qovrulur öz yağında,
Yetmiş yeddi yara var sinələrin dağında.
Vaqif, Şəmşir, Ələsgər düşmənin tapdağında,
Dağ yandırar intizarım, daş yandırar həsrətim,
Dur ayağa, məmləkətim, qalx ayağa, millətim!

Məzarsızdı meşələrdə qaçqın olub ölənlər,
Kəfənsizdi son tikəni körpəsiylə bölənlər.



Qismətimiz uçurumlar, aşırımlar, bələnlər,
İçərimi yedi-tökdü hirsim, kinim, nifrətim,
Dur ayağa, məmləkətim, qalx ayağa, millətim!

İtkinlərim tapılsa da, ölənlərim dirilməz,
Baltalanıb budanmışam, budaqlarım gərilməz.
Ağac əkdim, meyvələri öz əlimlə dərilməz,
Yağıların pəncəsində cəhənnəmdi cənnətim,
Dur ayağa, məmləkətim, qalx ayağa, millətim!

Haqsız meydan suladıqca əlimizdən haqq gedir,
Gözümüzdən arx açılır, çay gedir, bulaq gedir
Qarış-qarış, parça-parça yurd gedir, torpaq gedir,
Mən ki əsir olmamışdım, nədir bu əsarətim?
Dur ayağa, məmləkətim, qalx ayağa, millətim!

Nifrətini silah elə, gəl, silahı gözləmə,
Sarıl bu gün inamına, gəl, sabahı gözləmə.
Haqqa güvən, nə gədanı, nə də şahı gözləmə,
Ona-buna göz dikənə yoxdu mənim rəğbətim,
Dur ayağa, məmləkətim, qalx ayağa, millətim!

Torpağımız neçə dəfə tapdalanmış, talanmış,
Duru gözlü çeşmələrə qızıl qanlar calanmış.
Babəkim də, Koroğlum da, Xətaim də yalanmış,
Haqqımızı qaytarmasaq, sən arxasız, mən yetim,
Dur ayağa, məmləkətim, qalx ayağa, millətim!

Mənim qızıl üzüyümdə yaqut qaşdı Kəlbəcər,
Mənim ağlar gözlərimdə qanlı yaşdı Kəlbəcər.
Öz əlimlə öz başıma dəyən daşdı Kəlbəcər,
Daha bəsdi yad ellərdə talan oldu sərvətim,
Dur ayağa, məmləkətim, qalx ayağa, millətim!

Nə Tərtərdə ləzzət qaldı, nə Qarqarda, Xaçında,
Oğul qanı xanılandı anaların saçında.
Şəhid oldum Xocalıda, şəhid oldum Laçında,
Bu yolların son ucunda şəhidlikdi qismətim,
Dur ayağa, məmləkətim, qalx ayağa, millətim!

## AZƏRBAYCAN TORPAĞIYAM

Bu dağ mənim öz dağımdı,
Mən bu dağın bulağıyam.
Çəmənində közə dönmüş,
Şöləlenmiş çırağıyam.

Bu daş mənim öz daşımdı,
Öz tarıxim, öz yaşımdı,
Qaya məğrur qardaşımdı,
Onun səsi-sorağıyam.

Bu yol mənim öz yolumdu,
O tay, bu tay sağ-solumdu.
Xəzər sinəm, Kür qolumdu,
Xan Arazın fərağıyam.

Seçməliyəm tükdən tükü,
Ağırdı çiynimin yükü.
Köküm Dədə Qorqud kökü
Qaracaoğlan bulağıyam.

Deməsinlər gəldi-gedər,
Keçirmərəm ömrü hədər.
Öləndə də qəbrim qədər
Azərbaycan torpağıyam!

## TORPAQ MƏNİ YAMAN ÇƏKİR ÖZÜNƏ

Son payızın çiçəyinə dönmüşəm,
Torpaq məni yaman çəkir özünə.
Kövrəklərin kövrəyinə dönmüşəm
Torpaq məni yaman çəkır özünə.

Boran görmüş Lələ mənəm dünyada,
Kərəm çəkən nalə mənəm dünyada.



Yazıq Qərib elə mənəm dünyada
Torpaq məni yaman çəkir özünə.

Qartal çəkir, qaya çəkir, daş çəkir,
Gül anamın gözündəki yaş çəkir,
Fikrim hər gün doğma yurda baş çəkir,
Torpaq məni yaman çəkir özünə.

Qalmır canda nə dözümüm, nə tabım,
Boş hay-küydən nə tapmışam, nə tapım?
Gündən-günə çoxaldıqca əzabım
Torpaq məni yaman çəkir özünə.

Görüşəndə ləzzətini çəkirəm,
Ayrılanda həsrətini çəkirəm,
Vuruşanda qeyrətini çəkirəm,
Torpaq məni yaman çəkir özünə.

Çaylağı da, çəməni də mənimdi,
Qürbəti də, Vətəni də mənimdi,
Bələyi də, kəfəni də mənimdi,
Torpaq məni yaman çəkir özünə.

Gözdə çiskin, dağda duman çoxalır,
Məndən küsən, məndən uman çoxalır,
Qəriblərin sayı yaman çoxalır,
Torpaq məni yaman çəkir özünə.

## HEÇ NƏDİR

Xoş arzular bəzəyidir dünyanın,
İnsan ömrü saf diləksiz heç nədir.
Od Günəşin, su torpağın şöhrəti,
Bağça gülsüz, bağ bəzəksiz heç nədir.

Könül doymaz gözəllikdən, gözəldən,
Qara saça yaraşıqdı gözəl dən.

Çılpaq dağa yazıq dedik əzəldən,
Zirvə qarsız, döş çiçəksiz heç nədir.

Ağıl gərək ürəkləri eşidə,
Ömür verə hər naxışa, çeşidə.
Qızıl olsa beş barmağın beşi də,
Ürək əlsiz, əl ürəksiz heç nədir.

İnsan üçün az yanmadı canım, az,
İstəmərəm el yolunda yanım az.
Bağlı qapı bin-bərəkət tanımaz,
Yurd qonaqsız, ev çörəksiz heç nədir.

Ha alışa, ha sızlaya, ha yana,
Çox çətin ki, yatan bəxtlər oyana.
İgid gərək arxasında dayana,
Ağır gündə el köməksiz heç nədir.

Sev, əzizlə budağını, kökünü,
Daşı ömrün qayğısını, yükünü.
Ay Zəlimxan, dərk eləsən bu günü
O, sabahsız, gələcəksiz heç nədir.

## ARXALANMIŞAM

Ana qucağına bala sığınar,
Dağların döşünə qala sığınar,
Arılar pətəyə, hala sığınar,
Torpağım, mən sənə arxalanmışam!

Ümiddən, qayğıdan çəkım var mənim,
Çiynimdə dağ boyda yüküm var mənim,
Gövdəyəm, dərində köküm var mənim,
Budağım, mən sənə arxalanmışam!

Gözünə işıq ver doğulan kəsin,
Nurun azalmasın, odun sönməsin,



Boranlı günlərdə üzün dönməsin,
Çırağım, mən sənə arxalanmışam!

Şerim gözün kimi duru görünsün,
Sözümdə dünyanın nuru görünsün,
Qoyma kəlmələrim quru görünsün,
Bulağım, mən sənə arxalanmışam!

Arzu yollarında qalmayım geri,
İlhamla yaradım nəğməni, şeri.
Nəslimin ən qədim ziyarət yeri,
Ocağım, mən sənə arxalanmışam!

## ƏYİLMƏZ

Öz eşqi var hər ucalan zirvənin,
Dağa təpə deyilməz ki, deyilməz.
Şimşəklərin pəncəsində didilməz,
Sel ağzında yeyilməz ki, yeyilməz.

Diri var ki, tez bükəsən ağlara,
Ölü var kı, dayaq olub sağlara.
Qarğaları qaldırarsan dağlara,
Qartal kimi öyülməz ki, öyülməz.

Hər ucalıq bır alçağa dərd olar,
Üzdə gülər, ürəyində pərt olar.
Ömrü boyu mətin olar, mərd olar,
Sərt qayalar əyilməz ki, əyilməz!

## OLAR

Ürəyin sazdırsa, sazı gözləmə,
Telsiz, təzənəsiz dil açmaq olar.
Qəlbində yaz varsa, yazı gözləmə,
Qışın ortasında gül açmaq olar.

Anlasan dilini odun, ocağın,
Duysan nəfəsini doğma torpağın,
Elə genişlənər qoynun, qucağın,
Gəl, deyib dağlara qol açmaq olar.

Ona arxalandın, ər oğlu ərsən,
Əllərin sevınər barını dərsən.
Nə qədər torpağı yaxşı becərsən,
O qədər süfrəni bol açmaq olar.

Dağılmaz, pozulmaz nizamın olsa,
Özüllü, mayalı ilhamın olsa,
Daşı mum eləyən inamın olsa,
Daşın da qəlbinə yol açmaq olar.

## GÖZƏLLƏŞDİRƏR

Baxarsan, bağ olar quru səhralar,
Eşqimiz bu bağı gözəlləşdirər.
Qəlbımiz qələmə təpər gətirər,
Sözümüz varağı gözəlləşdirər.

Dünya dilimizə danışıq verər,
Axşam od paylayar, dan işıq verər,
Şəvə saçımıza dən işıq verər,
Yüz qara bir ağı gözəlləşdirər.

Durular, saflaşar qəlbin aləmi,
Heç olar kədəri, puç olar qəmi.
Yerdə şehə dönər buludun nəmi,
Damlası yarpağı gözəlləşdirər.

Duyğular köklənər inamın üstə,
Gecə də gün doğar ilhamın üstə,
Ürək yandıraraq hər şamın üstə,
Nurumuz çırağı gözəlləşdirər.



Yer bizim, göy bizim, neçə kı, varıq,
Ətəkdə çiçəyik, zirvədə qarıq.
Dünyadan köçəndə yaddan çıxmarıq,
Ruhumuz torpağı gözəlləşdirər!

## YAXŞIDI

Səsin, ünün eşidilməz olanda
Ünsüz ömrü yaşamasan yaxşıdı.
Qiblə seçib namazına durmasan,
Yönsüz ömrü yaşamasan yaxşıdı.

Qəlbin, ruhun hər gün ağlar, kirımez,
Arzuların ayaq açıb yeriməz.
Yüz il qalsa buzun, qarın əriməz,
Günsüz ömrü yaşamasan yaxşıdı.

Yağış yağsa, barlı bağa xeyrı var,
Tər çiçəyə, yaşıl tağa xeyri var,
Nə zəmiyə, nə torpağa xeyri var,
Dənsiz ömrü yaşamasan yaxşıdı!

Həyat şirin, ömür gödək, gün baha,
Bağışlanmaz, kim batarsa günaha.
Tapınmasan sevgi adlı Allaha
Dinsiz ömrü yaşamasan yaxşıdı.

## BU XALQIN

Oymaq-oymaq eli gəzdim, dolandım,
Fikir verdim hikmətinə bu xalqın.
Yatardımı əl qələmə, dil sözə,
Vurulmasam söhbətinə bu xalqın.

Oylağımdı qarlı dağlar, binələr,
Sərvətimdi söhbət dolu sinələr.

Eşqi dastan, özü nağıl nənələr
Nur yağdırıb ismətinə bu xalqın.

Gərək hər gün əzizlənə, qoruna,
Baş əyəsən ocağına, qoruna.
Qurban olum babaların goruna,
Naxış vurub şöhrətinə bu xalqın.

Dədələşib Salur Qazan oğullar,
Tüp dağıdan, Halay pozan oğullar,
Al qanıyla tarix yazan oğullar,
Heykəl qoyub qeyrətinə bu xalqın.

Sevdiyinə əyri baxmaz dünyada,
Verdiyini başa qaxmaz dünyada.
Otum bitib, suyum axmaz dünyada,
Düçar olsam nifrətinə bu xalqın.

Qanad açıb səmalara uçan da,
Şöhrət tapıb zirvələri qucan da,
Günəş olub yerə işıq saçan da,
Arxalanıb zəhmətinə bu xalqın.

Zirvə qardı, yüksəklərdə qara bax,
Göl güzgüdü, saçlarını dara, bax,
Nərmənazik bayatılı Qarabağ
Bir misaldı cənnətinə bu xalqın.

Min nemətlə dolar qoynu, qucağı,
Qonaqlı ev heç söndürməz ocağı.
Hər kim olsa bu yerlərin qonağı,
Səcdə qılar adətinə bu xalqın.

İlhamıdı coşqun çaylar, dənizlər,
Saflığıdı müqəddəslər, təmizlər.
El sevəni aləm sevər, əzizlər,
Zaval yoxdu qiymətinə bu xalqın.



Yaxşını da, yamanı da tez görür,
Gördüyünü düz tanıyır, düz görür,
Ağıl kəsir, könül duyur, göz görür,
Sözmü çatar hikmətinə bu xalqın.

Ağrımayan ürək ola, baş ola,
Can sirdaşım torpaq ola, daş ola.
Arzuların sayı qədər yaş ola,
Ömür verəm xidmətinə bu xalqın.

## İKİ DÖVLƏT, İKİ TALE

Məğlub olmuş dövlətə bax, Almaniya!
Qalib gəlmiş dövlətə bax, SSRİ!
Birincinin adı bu gün ön cərgədə,
İkincinin qarışıqdı göyü, yeri.
Birincinin addımları məğrur, mətin,
İkincisi caynağında səfalətin.
Birincisi bölünmüşdü iki yerə,
Bütövləşdi – bir can oldu.
İkincisi "sarsılmayan" bir qalaydı,
Uçdu – yerlə yeksan oldu!
Vaxtın hökmü dediyini yaman dedi.
Qalib kimdi, məğlub kimdi,
Son sözünü zaman dedi!

## ƏLİNİ ÜZMƏ MİLLƏTDƏN

Düşəcək düşmən başına
Bu daş iridi, qardaşım.
Səsimiz gur çıxan kimi
Çoxu kiridi, qardaşım.

İstisi var nəfəslərin,
Qanadı var həvəslərin.
Mənim səsim bu səslərin
Mində biridi, qardaşım.

Yoxdu içində hikkəsi,
Sevgidi pulu, sikkəsi.
Hər kənd bu xalqın Məkkəsi,
Hər ev piridi, qardaşım.

Bəd söz çıxar bədniyyətdən,
Uzaq qaçar qətiyyətdən.
Əlini üzmə millətdən
Bu xalq diridi, qardaşım!

## DÖYÜŞƏN TÜRK, OYANAN TÜRK, QALXAN TÜRK

Ayaz nədir, şaxta nədir, bürkü nə,
Nə qorxudar haqq yolunda türkü, nə?
Birə düşsün düşmənlərin kürkünə,
Dəniz kimi dalğalan, türk, çalxan, türk!
Döyüşən türk, oyanan türk, qalxan türk!

Silkələdin göyün yeddi qatını,
Qucaqladın doğu ilə batını.
Dur, yəhərlə ərənlərin atını,
Dəniz kimi dalğalan, türk, çalxan, türk!
Döyüşən türk, oyanan türk, qalxan türk!

Sabaha bax, əsr səni gözləyir,
Qala səni, qəsr səni gözləyir.
Məhkum səni, əsir səni gözləyir,
Dəniz kimi dalğalan, türk, çalxan, türk!
Döyüşən türk, oyanan türk, qalxan türk!



Qılınmasa başımızın çarası,
Silinərmi üzümüzün qarası.
Altay ilə Anadolu arası
Dəniz kimi dalğalan, türk, çalxan, türk!
Döyüşən türk, oyanan türk, qalxan türk!

Döyüşdədir ağlın, huşun yolları,
Döyüşdədir uçan quşun yolları,
Döyüşdədir qurtuluşun yolları,
Dəniz kimi dalğalan, türk, çalxan, türk!
Döyüşən türk, oyanan türk, qalxan türk!

Əritmisən əriyəntək qar suda
Romanı da, Bizansı da, Farsı da
Qala kimi təzədən qur Qarsı da,
Dəniz kimi dalğalan, türk, çalxan, türk!
Döyüşən türk, oyanan türk, qalxan türk!

"Gilqamış"dan, "Alpamış"dan, "Manas"dan
Geri qalmaz dastan olsun bu dastan.
Qurtar bizi bu həsrətdən, bu yasdan
Dəniz kimi dalğalan, türk, çalxan, türk!
Döyüşən türk, oyanan türk, qalxan türk!

Hardan hara getdiyini bilən yol,
Üfüqlərə qovuşanda gulən yol,
Atilladan Atatürkə gələn yol,
Qalxan olsun başın üstdə, qalxan, türk!
Çanaqqala, Malazgirdin davamı
Türk deyil kı, öz qanından qorxan türk!
Təmız süddən mayalansın, doğulsun,
Mete kimi, Oğuz kimi bır xan, türk!
Yaddaşında sıralansın, anılsın,
Ərtoğrul bəy, Osman qazi, Orxan, türk!
Yenə Tanrı dağlarını qucaqla,
Dağlar olsun səngərın, türk, arxan, türk!
Döyüşən türk, oyanan türk, qalxan türk!!!

## TANRIM, MƏNİ ŞƏHİD ELƏ

Yazma mənim qismətimə nəs taleyi,
puç günü,
Güllələrdən qaçan günü – günah günüm,
suç günüm.
Ölüm nədir – yer üstündən yer altına
köç günüm
Tanrım, məni şəhid elə bu torpağın
yolunda!
Ürəyimdə şimşək çaxsın, gözlərimdə
ildırım,
Nəfəsimlə toza dönsün uçrum, yarğan,
sıldırım.
Qayaları bayraq kimi başım üstə
qaldırım
Tanrım, məni şəhid elə bu torpağın
yolunda.

Ac qurd kimi daraşdılar, o soxuldu,
bu cumdu,
Bılmədilər insan mənım Allahımdı,
gücümdü.
Son saatım, son xilasım, son əlacım
hücumdu
Tanrım, məni şəhid elə bu torpağın
yolunda.
Üç yüz ildə aralanmır məni tapan
bir bəla,
Yezid, Şümür hökmündədir göydən yağan
hər bəla.
Kərbəlanın adı çıxıb, mənəm əsil
Kərbəla
Tanrım, məni şəhid elə bu torpağın
yolunda.
Özümə bir dən olmuşam, özgəsınə
bir zəmi,
Qorxum yenə əsarətdır, yerim yenə
zırzəmi.



Çaşdırıblar tarixîmi, tarixçimi,
mırzəmi
Tanrım, məni şəhid elə bu torpağın
yolunda.

Qəzəbimı şəhid elə, qeyrət kimi
cücərsin,
Gəncliyimi şəhid elə, şəhidliyi
becərsin.
Oğul gərək varlıq üçün yox olmağı
bacarsın,
Tanrım, məni şəhid elə bu torpağın
yolunda,
Bu məsləkin, bu millətin, bu bayrağın
yolunda.

## ÖLÜMƏ SƏFƏRBƏR OLMAYAN KİŞİ

Ölümə səfərbər olmayan kışi,
Ölüm öz işini görəndə necə?
Özü istədiyi gündə, saatda,
Gəlib öz barını dərəndə necə?

Qaça bilərsənmi bircə günündən?
Qaça bilərsənmi bircə anından?
Qaça bilərsənmi vaxtın, zamanın
Ən ağır, ən çətin imtahanından?

Sorğuya-suala hazır olmasan,
Vaxt sənin üstündən qara xətt çəkər.
Ölümə səfərbər olmayan kişi
Ölüm qarşısında xəcalət çəkər.

Tale bu milləti çəkir sınağa,
Sözünü kim ötkəm, kim yavaş deyir.
Hərə bir arzunun sevdasındadı,
Kim barış istəyir, kim savaş deyir.

Savaş istəyənin içində hünər,
Barış istəyənin içində qorxu.
Qələbə hansının payına düşər?
Görək, kim birinci hoppanır arxı.

Ölümə hazır ol, çəkilsin geri,
Əzrayıl yaxına gələ bilməsin.
Ölümə hazır ol, yağı tamahı
Gəlib torpağını bölə bilməsin.

Ölümə hazır ol, çax şimşək kimi,
İçində qəzəbin selləri daşsın.
Göylər elə yansın, elə parlasın,
İşıqdan düşmənin gözü qamaşsın.

Vicdanın əzabı şırımlar açar,
Ürəkdə, beyində, üzdə, sifətdə.
Ölümə səfərbər olmayan kişi
Gərək yaşamasın bu məmləkətdə.



# *Mənim ömrüm – Adəm ömrü*

## GƏLMİŞƏM

Alıb çiyinlərimə ömür adlı bir yükü
Qışdan yaza çıxmışam, yazdan yaya gəlmişəm.
Yağış kimi hopmuşam torpağın ciyərinə
Süzülüb çeşmələrə, axıb çaya gəlmişəm.

Şimşəklə, ildırımla döyüşüm, davam olub,
Könlümdə tufanlarım, başımda havam olub.
Qarlı zirvə, dağ döşü mənim ilk yuvam olub,
Gülləri, çiçəkləri saya-saya gəlmişəm.

Dən-dən olub ələnib, ələyindən keçmişəm,
Çərxində fırlanmışam, fələyindən keçmişəm,
Beşiyindən çıxmışam, bələyindən keçmişəm,
Haqqın mənə verdiyi haqqı-saya gəlmişəm.

Ağladım, gözlərimin yaşını sildi dünya,
Qədir ağacı əkdim, qədrimi bildi dünya,
Mən ki doğulmamışdım, mənim deyildi dünya,
Dünya mənim olanda mən dünyaya gəlmişəm.

## MƏNİM ÖMRÜM – ADƏM ÖMRÜ

Mənim ömrüm torpaq ömrü,
Kotandan, xışdan gəlirəm.
Bir zərrə qum dənəsiyəm,
Ayrılıb daşdan gəlirəm.

Mənim ömrüm gözəl ömrü,
Xoş bir baxışdan gəlirəm.
Tanrının əlləri çəkən,
Sirli naxışdan gəlirəm.

Mənim ömrüm aşiq ömrü,
Kirpikdən, qaşdan gəlirəm.
Ürəklərdən yanaqlara
Süzülən yaşdan gəlirəm.

Mənim ömrüm ayaz ömrü,
Qarlı bir qışdan gəlirəm.
Dolub boşalan buluddan,
Yağan yağışdan gəlirəm.

Mənim ömrüm – Adəm ömrü,
İştahdan, aşdan gəlirəm.
Qovulmuşam cənnətimdən
Qalxıb o başdan gəlirəm.

*28 İyul 2002*

## XATİRƏ

Bir körpə varıydı Kəpənəkçidə,
Sevgisi dumduru bir bulağıydı.
Hələ qayğılarla yüklənməmişdi,
Hələ qayğılardan çox uzağıydı.

Məhəbbət ürəkdə, istək dərində,
Hərə öz işində, dərdi-sərində.
Nənələr, babalar həndəvərində
Bir evin gözündə şam-çırağıydı.

Hələ içəridən yeyilməmişdi,
Köntöy baxışlarla döyülməmişdi.
Hələ yetimliyə əyilməmişdi,
Ata gümrahıydı, ana sağıydı.



Gözə görünmədi vaxtın ötdüyü,
Elə bil dünəndi çəndə itdiyi.
Görüb-götürdüyü, gəlib-getdiyi
Qışda aranıydı, yayda dağıydı.

Yamyaşıl çəmənlər nəşəsi idi,
Bulaqlar aynası, şüşəsi idi.
Hər səhər gül dərmək peşəsi idi,
Güllər qucağında bir qucağıydı.

Çox zaman gecələr çöldə yatardı,
Şehə bələnərdi, suya batardı.
Tonqal qalayardı, ocaq çatardı,
Özü də bir parça od-ocağıydı.

Çiçəyə baxardı, çiçəklənərdi,
Göyçəyə baxardı, göyçəklənərdi.
Mamırlı daşlara dirsəklənərdi,
Üst-başı həmişə toz-torpağıydı

O günlər əlindən tutası deyil,
Əli o günlərə çatası deyil,
Onda dörd övladın atası deyil,
Zəlimxan utancaq bir uşağıydı.

## YOLÇUSUYAM YOLLARIN

Yolçusuyam yolların, yormaz yoxuşlar məni,
Ruhumda yaz fəslidir, qar deyil, sazaq deyil.
Niyyətin haradırsa, mənzilin də oradır
Bu sınanmış həqiqət boş deyil, nahaq deyil.

Yolu uzaq olanlar gecələr yata bilməz,
Yata-yata gəzənlər mənzilə çata bilməz.
Haqqa qovuşmaq üçün bir addım ata bilməz,
Hər kimin başı üstə məsləki bayraq deyil!

Vətənin göylərindən bulud keçir, çən keçir,
Axşamlarım kədərli, sabahlarım şən keçir.
Yurdumun hər cığırı mənim qəlbimdən keçir
Nursuz qalsın o göz ki, yurd ona çıraq deyil!

Yolçusuyam yolların, hava yolu, su yolu,
Başlamışam, sonacan getməliyəm bu yolu.
Mənimçün şerin yolu – müqəddəs arzu yolu
Qırılsın o qələm ki, sirdaşı varaq deyil!

Şirin-şirin ötən saz, dinən taram dünyada,
Nəğməmlə, nəfəsimlə hələ varam dünyada.
Baş qaldırıb bircə gün yaşamaram dünyada,
Desələr mayası xalq, dayağı torpaq deyil!

Könül, yaxına qoyma nə yamanı, nə bədi,
Olsun sevən ürəklər sevənlərin məbədi.
Torpağa sevgisiylə əbədidir, əbədi,
Zəlimxan bu dünyada beş günlük qonaq deyil!

## MƏNİ

Ana torpaq, dağa döndər eşqimi,
Yaylaq elə, yamac elə sən məni.
Qanadından yaralanmış quşların
Ağrısına əlac elə sən məni.

Ürək olub, bu sevdaya düşənim,
İstəmişəm dağa qalxım, döş enim.
Çiçək olum, çəmənine döşənim
Ərişinə arğac elə sən məni.

Gec yetirib, tez-tələsik itirmə,
Yaz keçməmiş ömrə xəzan gətirmə.
Bitirəndə tikan kimi bitirmə,
Palıd kimi ağac elə sən məni.



Ucalmağım – daş üstə daş qoymağım,
Yaşamağım – anlamağım, duymağım.
Ölməyimdir gözəllikdən doymağım,
Gözəlliyə möhtac elə sən məni.

## ARXAYIN OLMA

Baxtım gətirər deyib
Çox da arxayın olma!
Tale sənin özünsən
Baxta arxayın olma!

Könül bağlasan elə
Dönərsən coşqun selə.
Qızıldan olsa belə
Taxta arxayın olma!

Ömrü keçirmə hədər
Ucal zirvələr qədər.
Yorulanda nəfəs dər
Toxta, arxayın olma!

Yağdırar saçına qar,
Gələr qış, gedər bahar.
Quş olub uçmağı var
Vaxta arxayın olma!

## AYRIDI

Vaxtın ancaq bir adı var, zamandı,
Keçmişləri, indiləri ayrıdı.
Beşik birdi, tabut birdi, taxta bir
Baltaları, rəndələri ayrıdı.

Öz kökündən birdəfəlik qopan var,
Öz kökünü həmişəlik tapan var,
Tanrı adlı yoğuran var, yapan var,
Xəmir birdi, kündələri ayrıdı.

Aldanırıq bu rütbəyə, o çinə,
Yem olmuşuq tamahların köçünə.
Şeytan girib adamların içinə
Allah birdi, bəndələri ayrıdı.

## HƏSRƏT

Köhnələr yaddan çıxıb,
Təzə qəbirlər üstə
Təzə güllər əkillər.
Hansı qəbrə baxırsan
Sinə üstə yazılar,
Baş daşında şəkillər.
Baxıram şəkillərə
Qəmli sükutdan bezib,
Boylanmağın, baxmağın,
Həsrətini çəkillər!

## ÖLÜMDƏN SONRA HƏYAT VAR

Dilim sözümdən başlanıb,
Sözüm dilimin davamı.
Qələm əldən sonra gəlir
Barmaq əlimin davamı.

Çeşməyə nur, arxa suyam,
Səsəm, sözün arxasıyam,
Bəmdən zilə qalxasıyam,
Bəmdi zilimin davamı.



Ölənləri kim yaşadıb,
Pərdə dinib, sım yaşadıb.
Çölümü içim yaşadıb
İçim çölümün davamı.

Kimi cılız, kimi şişman,
Gedən peşman, qalan peşman.
Qara gün ağ günə düşmən,
Ağ gün zülümün davamı.

Qat içində neçə qat var,
Yer var, göy var, Kainat var.
Ölümdən sonra həyat var
Həyat ölümün davamı!

## YATIR

Gecə yarıdan keçmiş, büsbütün şəhər yatır,
Şəhərin qucağında xeyir yatır, şər yatır.
Yatmasa dincələrmi insan oğlu həyatda?
Sığınıb qaranlığa bu boyda şəhər yatır.
Xoşbəxtin gözlərində xoş duyğular uyuyur,
Bədbəxtin gözlərində qəm yatır, kədər yatır.
Dünya hazırlıq görür sabaha qovuşmağa
Səsi səhər çıxacaq nə qədər xəbər yatır.

## DÜNYA MƏNİ BULANDIRA BİLMƏDİ

Ömrüm boyu baxdım duru sulara,
Dünya məni bulandıra bilmədi.
Qan yerinə saflıq axdı damardan
Dünya məni bulandıra bilmədi.

Fil yıxsa da palçıqları, lilləri,
Ev yıxsa da böhtançının dilləri,
Dağlar söküb, daş oysa da selləri,
Dünya məni bulandıra bilmədi.

Telli sazam, saz üstündə sədəfəm,
Şərəfimlə çoxlarına şərəfəm.
Sən baxma ki, böhtanlara hədəfəm
Dünya məni bulandıra bilmədi.

Şimşəkləri döydü, çaxdı, gurladı,
Fırtınası fırım-fırım fırladı.
İçərimdə haqq işığı parladı
Dünya məni bulandıra bilmədi.

Göy çəmənlər paltar biçdi əynimə,
Ulduz axdı ürəyimə, beynimə.
Səhər-səhər mələk qondu çiynimə
Dünya məni bulandıra bilmədi.

Çirkab atdı, palçıq atdı, lil atdı,
Toz doldurdu, gözlərimə kül atdı,
Çox işlərə, oyunlara əl atdı,
Dünya məni bulandıra bilmədi.

Dənsizlərin dənciyinə dən atdım,
Nə qan saldım, nə bir könül qanatdım,
Mən dünyanı durultmağa can atdım,
Dünya məni bulandıra bilmədi.

*23 may 2002*

## ZƏLİMXAN

Rahatlıq verməyib şairə Allah,
Hər gün öz ömrünü çapar Zəlimxan.
Buluddan sıyrılar ildırım kimi,
Dağdan qaya kimi qopar Zəlimxan.



Qalxar dan yerindən güneştək doğar,
İşığı, zülməti parçalar, boğar.
Nur kimi süzülər, yağıştək yağar
Torpağın bağrına hopar Zəlimxan.

Bir əli yazdadı, biri qışdadı,
Gündə bir mənzildə, bir yarışdadı.
Bütün ömrü boyu axtarışdadı
Çətin itənləri tapar Zəlimxan.

*22 mart 2000*

## ZAMAN ADLI YUMRUĞU VAR DÜNYANIN

Qış vaxtına budaqlarda bar qalmaz,
Əncir nədi, alma nədi, tut nədi?
Hünəri var saralmasın payızda,
Çiçək nədi, sünbül nədi, ot nədi?

Qoyma ömrü çürütməyə nəm olsun,
Nə gözdə yaş, nə könüldə qəm olsun,
Torpaq üçün təki yaxşı yem olsun
Sümük nədi, dəri nədi, ət nədi?

Qazi, şəhid, alim, şair, əfəndi,
Tuta bilməz nə bərəni, nə bəndi.
Hər birinin son qisməti kəfəndi
Varlı nədi, yoxsul nədi, lüt nədi?

Uzun olan quyruğu var dünyanın,
Quyruqlara buyruğu var dünyanın.
Zaman adlı yumruğu var dünyanın
Qaya nədi, heykəl nədi, büt nədi?

## HAYIF, VAXTIMIZ AZDI

Həvəsi alov saçıb,
Nəfəsi gül qoxuyan,
Bülbülmü, yoxsa insan,
Belə qaynar oxuyan?
Bu nə gözəl nəğmədi,
Bu nə şirin avazdı!
Oxumaq istəyirik,
Hayıf, vaxtımız azdı!

Bu incə döndərmələr,
Zərif xallar kimindir?
Bu müqəddəs arzular,
Xoş xəyallar kimindir?
Könüllərə od vuran
Kimin çaldığı sazdı?
Dinləmək istəyirik,
Hayıf, vaxtımız azdı!

Güllərin insafı yox,
Çiçəklərin Allahı.
Ayrılıq vaxtı gəlsə,
Bizə çəkdirər ahı.
Bu nə sehirli bahar,
Bu nə ətirli yazdı,
Qoxlamaq istəyirik,
Hayıf, vaxtımız azdı!

Gözəlliyi, gözəli
Gözümüzdən qoymuruq.
Yüz il yaşasaq belə,
Yorulmuruq, doymuruq.
Həyat da heç soruşmur
Kimin işi tarazdı
Yaşamaq istəyirik,
Hayıf, vaxtımız azdı!



## ZAMAN

Zamana nə var ki, vaxta nə var ki,
İstəsə, tökəcək gözlərimizi.
İstəsə, göz üstə qaş düzəldəcək,
Bu daşı bir zaman quma döndərib,
Bu qumdan bir zaman daş düzəldəcək.

Bir də görəcəksən dönüb geriyə,
Kotan düzəldəcək, xış düzəldəcək.
Bir də görəcəksən çıxıb qabağa
Dəmirdən düşünən baş düzəldəcək.

Huşu yeridəndi, huşsuz qalmaz o,
Yeyər nəsilləri, dişsiz qalmaz o,
İşini biləndi, işsiz qalmaz o
Yox yerdən özünə iş düzəldəcək.

## NAĞIL KİMİ GƏLİR MƏNƏ BU DÜNYA

Nağıl danışardı nənəm gecələr,
Nağılla dolardı sinəm gecələr.
Uzun illər keçib aradan indi
Bütün olmuşları, olacaqları
Nağıla döndərib Yaradan indi,
Nağıl kimi gəlir mənə bu dünya.

Ağ qoç aydınlığa atardı məni,
Qara qoç atardı zil qaranlığa.
Nağıllı günlərim qayıdan deyil,
Qayıdıb yanğımı soyudan deyil.
Nağıl kimi gəlir mənə bu dünya.

Tanrım, bu mənəmmi, mən deyiləmmi,
Bu "mən" burdadırsa, o "mən" hardadır?

Qoynunda üzdüyüm dəli dağ çayı,
Qoynunda gəzdiyim çəmən hardadı?
Nağıl kimi gəlir mənə bu dünya.

Bu dünya nə qədər böyükmüş, Allah,
Bir dərəm, bir dağım var indi mənim.
Bir dəli köhlənim, bir düzəngahım
Bir yaşıl yaylağım var indi mənim.
Yaşılım sarıya çevrilir indi,
Gözəlim qarıya çevrilir indi
Nağıl kımi gəlir mənə bu dünya.

Qayğılar içində batdıq, talandıq,
Fikrimiz dağıla-dağıla qaldı.
Ay nənəm, hardasan, yetir özünü,
Yenə ümidimiz nağıla qaldı
Nağıl kimi gəlir mənə bu dünya.

Böyüklər ürəkdən sevinə bilmir,
Uşaq sevincimi qaytaran ola.
Dəniz istəmirəm, dalğa gəzmirəm,
Bulaq sevincimi qaytaran ola.
Ömür vaxt əlində talanmış demək,
Gördüyüm nə varsa, yalanmış demək
Nağıl kimi gəlir mənə bu dünya.

Ay geri boylana, il geri dönə,
Diz nənəmdən ola, baş məndən ola.
Söz-söhbət uzana xoruz banına,
Dinləmək həvəsi, kaş, məndən ola.
Heyif, "ol" dediyim olası deyil,
Kövrək uşaqlığım, dəli gəncliyim
Mənimlə bir yerdə qalası deyil.
Ürək hər nisgili çəkir özünə,
Hər şeyi düşünən ağıl oluruq.
Şirin nağıllara çox qulaq asdıq,
Dönüb özümüz də nağıl oluruq
Nağıl kimi gəlir mənə bu dünya.



## ÇOX ŞÜKÜR

Yerdən göyə ilahidən razıyam,
Özüm üçün yaşamadım, çox şükür.
Kimə bəxtəm, kimə qismət, yazıyam
Özüm üçün yaşamadım, çox şükür.

Qaş-qabağım qara bulud görmədi,
Qəlbim zülmət, könlüm sükut görmədi,
Evim qıfıl, qapım kilid görmədi,
Özüm üçün yaşamadım, çox şükür.

Elim-günüm elli-günlü, nəsilli,
Səs arxalı, səs obalı, səs elli.
Bir ömürdən bircə budur təsəlli
Özüm üçün yaşamadım, çox şükür.

Ömrü boyu şər uduzan, haqq udan,
Çox dedilər haqqı unut, haqqı dan.
Bəndəlikdən yol yeridim haqqatan,
Özüm üçün yaşamadım, çox şükür.

Ömür yolu öz məsləkim, öz andım,
El dərdini sözə tutan ozandım.
Rahat ölmək xoşbəxtliyi qazandım,
Özüm üçün yaşamadım, çox şükür.

## ANA LAYLASI

Hardan aldın bu sehri,
Bilim, ana laylası!
Sənsiz açılardımı
Dilim, ana laylası!

Bax könlümün halına,
Düşüb xəyal dalına.
Bu yaşımda çalına
Həlim ana laylası!

Baxmır amana, aha,
Zaman baş əymir şaha.
Yox, sənə çatmaz daha
Əlim, ana laylası!

Gül çəmənsiz olmasın,
Sünbül dənsiz olmasın,
Bır gün sənsiz olmasın
Elim, ana laylası!

## BƏNDƏNİN ALLAHA DUASI ANAM

Yaman darıxırsan kənddən ötəri,
Səni yaman çəkir bu kənd yolları.
Üzür ürəyini illərdən bəri
Ömrün bir-birinə peyvənd yolları.

Dua, gözmuncuğu, üzərlik, nəzir,
Məni hər xətərdən qoruyan anam.
Bütün ömrü boyu mənə müntəzir,
Yolumda ağactək quruyan anam.
Könlümü qüssədən, gözümü yaşdan,
Ruhumu əzabdan, başımı daşdan,
Qəlbimi kədərdən qoruyan anam.

İxtiyar çağında, kövrək günündə,
Mən necə qoruyum səni, bilmirəm.
Acizəm zamanın, vaxtın önündə
Bir əsim küləyə çevrilə bilsəm,
Qalxarmı gözlərin çəni, bilmirəm.

Bu, dərman deyil ki, alam, gətirəm
Bu, həkim deyil ki, çağıram, gələ.
Vaxtı dayandıran, anı saxlayan
Bir oğul anadan olmayıb hələ.



Səni qocalığa çəkir ömür-gün,
Gözümün işığı, şüası anam.
Oğlunu nəzərdən qorumaq üçün
Bəndənin Allaha duası anam.

Sevgiylə yaşadıq vaxtı, vədəni
Mən əlli, sən yetmiş yaş arasında.
Gözümdən uzağa qoymaram səni
Ölüm var göz ilə qaş arasında.

## BU SEVİNCİ ALMA MƏNİM ƏLİMDƏN

Düz addımla doğru yolu, gəncliyim,
Geri durma, yağsa dolu, gəncliyim,
Uzun yaşa, dəli-dolu gəncliyim,
Dil nəğməli, dodaq sözlü, ürək şən,
Bu sevinci alma mənim əlimdən!

Qarlı zirvə şöhrətimdi, tacımdı,
Dağ qardaşım, yaşıl yaylaq bacımdı,
Könlüm yenə yüksəklərdən bac umdu,
Çökən duman, enən bulud, gələn çən,
Bu sevinci alma mənim əlimdən!

Qoy bəzənsin Bakım, Gəncəm, Borçalım,
Eşqi ilə saz götürüm, tar çalım,
Yazmaq üçün bir ömrü də borc alım,
Yavaş-yavaş saçlarıma düşən dən,
Bu sevinci alma mənim əlimdən!

Bu dünyada söhbətim var, dəmim var,
Bu dəryada ömür adlı gəmim var,
Bu torpaqda biçilməmiş zəmim var,
Vaxtsız əcəl, yetişməmiş hələ dən,
Bu sevinci alma mənim əlimdən!

Nəğmə qoşum tarixinə, yaşına,
Həmdəm olum baharına, qışına.
Qoy dolanım ana yurdun başına,
Son ayrılıq, nə sən tələs, nə də mən,
Bu sevinci alma mənim əlimdən!

## ÖMRƏ YAZILAN DƏQİQƏLƏR

Çiçəyi sayrışan, gülü ballanan,
Vədəsi yaz olan dəqiqələrdi.
Nəğməylə dodağın, qızla bulağın
Arası saz olan dəqiqələrdi.

Bu dəmlə hər saat görüşmək çətin,
Ola, ya olmaya bir də qismətin.
Amanı qırılıb qəmin, həsrətin,
Pərəni pozulan dəqiqələrdi.

Kaman xoş dillənib, ney xoş olubdu,
Yerin söhbətindən göy xoş olubdu,
Şair eşqə düşüb, meyxoş olubdu,
Heyif ki, az olan dəqiqələrdi.

Qapımı kəsməyə qış tələsməsin,
Baş daşım olmağa daş tələsməsin,
Zəlimxan, ötməyə yaş tələsməsin,
Ömrümə yazılan dəqiqələrdi.

## DEMƏMİŞƏM

Gözüm görə-görə kor olammaram,
Baxıb görməyənə göz deməmişəm.
Dilin ağasıyam, ürəyin qulu,
Qəlbim hökm edəndə döz, deməmişəm.



Düz sözə çoxları incidi, küsdü,
Yayıldı, açıldı sirrinin üstü.
Oda od demişəm, tüstüyə tüstü,
Yandırıb yaxmasa, köz deməmişəm.

Çiçəkli baharam, şaxtalı qışam,
Soyuq bir nəzərəm, odlu baxışam.
Tikanı olanı tikanlamışam,
Gülə, güldən ağır söz deməmişəm.

## ÖMRÜN YOLLARI

Allah! Ömrün yolları nə daşlı-kəsəklidi,
Addımbaşı yolumda qar gördüm, şaxta gördüm
Sinələrin altına diqqət ilə baxanda
Çoxlarının qəlbini daş gördüm, taxta gördüm.

İnsan sınır, alçalır sərt ehtiyac olanda,
Şah olur, fərman verir başında tac olanda.
Dünyanın zillətini lüt, yoxsul, ac olanda,
Dünyanın ləzzətini mədəsi toxda gördüm.

Od özümün olsa da, özgələr isindilər,
Həyalılar susdular, həyasızlar dindilər.
Yalançılar doğrunu heyvan kimi mindilər,
Haqqın belində palan, başında noxta gördüm.

Yasım yas üstə gəldi, toyumu çaldıranda,
Düşmən gəlib başımı ayağa saldıranda,
"Haqqımı verin" deyib səsimi qaldıranda,
Yolların sinəsində qanımı laxta gördüm

Hər adamın ürəyi el yolunda şam deyil,
Bütöv gördüklərim də bütöv deyil, tam deyil,
Dünyaya gələnlərin hamısı adam deyil,
İnsanın azını saf, çoxunu saxta gördüm!

## ATAMA, MÜƏLLİMİMƏ

Həyatın yolları yayla qış kimi
İstidi, bürküdü, borandı, qardı.
Mənim taleyimi, gələcəyimi
Düşünə-düşünə saçın ağardı.

Gözümdə eynək yox, əlimdə əsa,
İstədiyin qədər sağlamam, sağam.
Necə saçlarını ağartmışamsa,
Elə də üzünü ağardacağam!

## XEYİR-DUA VER, ANA

Uzun yola çıxmışam
yol uzaqdan uzaqdı,
Yer var bürkü, istilik,
yer var şaxta, sazaqdı
Xeyir-dua ver, ana!

Ağı qatan olmasın
iştahama, aşıma,
Yandır üzərliyini,
duzu çevir başıma.
Bir xətər toxunmasın
zehnimə, yaddaşıma
Xeyir-dua ver, ana!

Başın çəkib, bilirsən
karvan nədi, köç nədi,
Bu karvanda, bu köçdə
savab nədi, suç nədi,
Xeyir-duası yoxsa,
keçən ömür heç nədi.



Başı bəlalar çəkən
bütün oğüllar üçün
Qəriblərə yar üçün
xeyir-dua ver, ana!

Dünyanın göz yaşıdı
dizəcən batdığın su,
Məni kövrək böyüdüb
göz yaşı qatdığın su.
Ruhumuzu qorusun
arxamca atdığın su
Dünyanın bu başından
özün yola sal məni.
Dünyanın o başıdı
mən getdiyim yer, ana,
Xeyir-dua ver, ana!
Xeyir-dua ver, ana!

*12 dekabr 2000*

## ANAMIN GİLEYİ

*Ay oğul, evə gələndə bir imkan tap, biznən də söhbət elə. İçəri girən kimi çəkilirsən otağına Bu qədər yazmaqdan, oxumaqdan, telefonla danışmaqdan nə tapmısan?*

Səninlə az danışıb, az dinirəm, ay ana,
Sən bunu məndən ötrü günah sayma, savab say.
Öz-özümlə o qədər dərdləşib danışmışam
Ömrümü əyləncə yox, başdan-başa əzab say.

Sinəm güllə hədəfi, könlüm dərdlər önündə,
Ömrüm çətin sınaqlar, ağır şərtlər önündə,
Hələ ki, dayanmışam bu namərdlər önündə,
Odda yanan bağrımı köz üstündə kabab say.

Ağrılar əşir məni kətan kimi, xış kimi,
Dərd dondurur buz kimi, qəm üşüdür qış kimi,
Suallar başım üstdən hey yağır yağış kimi,
Hər an keçən vaxtımı bir suala cavab say.

Məni qəmli görəndə gözü dolanlar da var,
Məndən ötrü gül kimi açıb solanlar da var,
Qanımı içmək üçün hazır olanlar da var,
Göz yaşımı mürəkkəb, al qanımı şərab say.

Şeri mən yazmıram ki, eşqin şahı yazdırır,
Sözün öz Tanrısı var, öz Allahı yazdırır,
Yazılan hər kitabı eşqin ahı yazdırır,
Hər günümü bir varaq, hər ilimi kitab say.

Gecə-gündüz qovrulur ürək yağın içində,
Can möhnətin, göz yaşın, sinə dağın içində,
Elə bilmə gəzirəm kef-damağın içində,
Mənə verilən ömrü ən böyük iztirab say.

Əyləşib dincəlməyə taxtımmı var, ay ana?
Əylənməyə, söhbətə vaxtımmı var, ay ana?
Vaxt sarıdan qismətim, baxtımmı var, ay ana?
Vaxtı gəzib tapmağı ən müşkül bir hesab say.
Səninlə qoy sözlərim, şeirlərim danışsın
Qəlbinin hər telini bir könüllü rübab say!

## YOLA ÇIXMAQ NƏ GÖZƏLDİ

Yola çıxmaq nə gözəldi,
Yollara yoldaş olasan.
Səndən ötrü gen açılan
Qollara yoldaş olasan.

Ağlayasan, kiriyəsən,
Dincələsən, yeriyəsən,



Yazda qarnan əriyəsən,
Sellərə yoldaş olasan.

Fikir düzlərdən atlana,
Dağların dili qatlana,
Dəli könül qanadlana,
Ellərə yoldaş olasan.

Yana-yana, duya-duya,
Qarışasan oda, suya,
Gedəndə şirin yuxuya,
Güllərə yoldaş olasan.

Atasan nəfsin çulunu,
Həm varını, həm pulunu,
Tapasan haqqın qulunu,
Qullara yoldaş olasan.

*11 fevral 2001*

## XOŞBƏXT ELƏ

Bir səfərdi çıxmışam,
Yol, məni xoşbəxt elə!
Uğur söylə ürəkdən,
El, məni xoşbəxt elə!

Azdı hələ barım, az,
Zirvəm təzə, qarım az.
Yaratmayan yarımaz,
Əl, məni xoşbəxt elə!

Nə göyərər, nə bitər,
Susmaq ölümdən betər,
Bəmdə çaldığın yetər,
Zil, məni xoşbəxt elə!

Sən çiçək, mən ac arı,
Sənsiz kim nə bacarı?!
Xəzinələr açarı
Dil, məni xoşbəxt elə!

Çeşmə – ilham, çay – ilham,
Ən müqəddəs pay – ilham.
De, hardasan, al ilham,
Gəl, məni xoşbəxt elə!

## QALACAQ

Yox, mənimlə getməyəcək bu dünya,
Mən getsəm də nələr, nələr qalacaq.
Ağlayan da tapılacaq, gülən də
Yenə sevinc, yenə kədər qalacaq.

Bəzəyəcək xonçasını-xonunu,
Dünya hər il dəyişəcək donunu.
Görməsəm də mən zamanın sonunu,
Öz yerində axşam-səhər qalacaq.

Kim yedisə çörəyi tək, duzu tək,
Əriyəcək o, dağların buzutək.
Çox adamlar mələyəcək quzutək,
Çox adamın yurdu mələr qalacaq.

Ulu Günəş işıq çilər dünyaya,
Öz nurunu hər gün ələr dünyaya.
Biri gedər, mini gələr dünyaya
Yerdə həyat, göydə ləngər qalacaq.

Dərd daşıdım, qəm yüklədim şələmə
Şerə döndü, səsim düşdü aləmə.
Ay Zəlimxan, yaxşı sarıl qələmə,
Qalsa, yenə bu nəğmələr qalacaq!



## QOŞALAŞDIRIB

Yaradan heç nəyi tək yaratmayıb,
Çəməni bulaqla qoşalaşdırıb.
İlhamı şeirlə, ürəyi sözlə,
Nəğməni dodaqla qoşalaşdırıb.

Yerləşmir otağa, sığışmır evə,
Baxırsan, saçları qapqara şəvə.
Babanın yanında darıxmır nəvə,
Qocanı uşaqla qoşalaşdırıb.

Dünyanın hesabı yazılmalıymış,
Sevinci, əzabı yazılmalıymış,
Tarixin kitabı yazılmalıymış,
Qələmi varaqla qoşalaşdırıb.

Həyata can verib qəlbin səsləri,
Dünya unutmayıb duyan kəsləri.
Ürəkdə yaşayan müqəddəsləri,
Alışan ocaqla qoşalaşdırıb.

Zəlimxan, yurdundu bu doğma diyar,
Burda beşiyin də, məzarın da var.
Təbiət özüdür böyük sənətkar,
İnsanı torpaqla qoşalaşdırıb.

## DÜNYADA

Həyatda hər kəsin öz qiyməti var,
Hər baş zinət olmaz taca dünyada.
Alçaqlıq insana bir sənət deyil,
Ucalıq yaxşıdı uca dünyada.

Düşsə yüz əmələ, girsə min dona,
Olarmı qarğadan yaşılbaş sona?
Koroğlu deyilməz korun oğluna,
Olmaz hər Əzizdən Xoca dünyada.

Ocağı alovu, közü yaşadar.
Bulağı suyunun gözü yaşadar.
Yaşatsa, söhbəti, sözü yaşadar,
Cavan Zəlimxanı qoca dünyada.

## GEDƏSƏN

Yatma bu yollarda, yolçu qardaşım,
Gərək bu yerləri görüb gedəsən.
Söz alıb güllərin gül dodağından
Nəğmələr çələngi hörüb gedəsən.

Bağla öz meylini bəndə, bərəyə,
Göz yummaq olarmı, bu mənzərəyə?
Bir dəfə verilır ömür hərəyə
Gərək meyvəsini dərib gedəsən.

Yatmağa gəlmədin sən bu həyata
İnanma sozalan mənzilə çata.
İnsafmı, yuxular başını qata
Ömrünü yellərə verib gedəsən?

Alışıb yanmasan gur ocaq kimi,
Eşqin gül açmasa bu torpaq kimi,
Qorxuram dünyaya bir qonaq kimi
Elə qərib gəlib, qərib gedəsən!

## BELƏ QOCALASAN

Ya Qoşqar olasan, ya da Şah dağı,
Belə ucalasan, ucalanda da!
Borandan, tufandan, qardan, yağışdan,
Belə bac alasan, bac alanda da!

Hər əsən küləklə yarışmayasan,
Toz olub yellərə qarışmayasan,



Alçaq əməllərə barışmayasan,
Belə öc olasan, öc olanda da!

Səni deyib gələ quşlar yuvadan,
Adın misal qala dədə-babadan.
Vətəndən, torpaqdan, eldən, obadan,
Belə güc alasan, güc alanda da!

Olsa da canında qüvvətdən maya,
Döşünə döyməmiş bir daş, bir qaya.
Şöhrət gözlərini qamaşdırmaya,
Başında Günəşdən tac olanda da!

Eşqinlə hər gecə bir gündüz ola,
Sevincin birdisə arta yüz ola.
Özün haqq olasan, sözün düz ola,
Yollar əl-ətəkdə kec olanda da!

Şimşək nərəsini məzə biləsən,
Bu köhnə dünyanı təzə biləsən.
Öz qaya səbrinlə dözə biləsən,
İstəyin ləngiyib gec olanda da!

Zəlimxan, dağlara təpə gülməyə,
Qaya parçalanıb, daş tökülməyə,
Başa qar yağsa da bel bükülməyə,
Belə qocalasan, qocalanda da!

## ÖVLADLARIMA

Əlli illik ömrümün dörd çiçəyi, dörd barı,
Deyəcəklər sizlərə "şairin övladları".
Bəhlulum, Şəhriyarım, Aygünümlə, Günayım,
Yaradanın qisməti, Tanrıdan gələn payım.
Təbiət dörd fəsildi, mənim dörd fəslimsiniz,
Dan yerim, səhər çağım, gələcək nəslimsiniz.

Mən sizi böyütmüşəm layla üstə, saz üstə,
Mən sizin eşqinizlə
Ömrüm boyu ötmüşəm şirin bir avaz üstə.
Hərəniz bir sətirdə dörd mısralıq bayatım,
Bayatı qədər şirin ömrüm, günüm, həyatım.
İki oğul – qoşa dağ, iki qız – qoşa çiçək,
Dağ söykənmək üçündür, çiçək qoxlamaq üçün.
Bilirəm, hər biriniz imtahan verirsiniz
Atanın vüqarını məğrur saxlamaq üçün.
Ruhumuz hardan uçub, kökümüz hardan gəlib,
Eşqimiz mayalanıb, hansı diyardan gəlib?
Duyğuları, hissləri,
Hər gün başınız üstdən yağıştək ələmişəm,
"Dədə Qorqud", "Koroğlu", "Əsli-Kərəm", "Alpamış"
Sizi nağıla bükübü, dastana bələmişəm.
Qorquddan danışmışam, nədir ağsaqqal olmaq?
Nədir sözü-söhbəti şəkər olmaq, bal olmaq?
Koroğludan demişəm, nədir bu qəhrəmanlıq?
Qəhrəmanlar yurduna heç vaxt gəlməz qaranlıq.
Əsli kimi alışıb, Kərəmtək yanmaq nədir?
Sevgiyə bir qul olub, eşqə inanmaq nədir?
Nədir Aşıq Qəribi qürbətə salan istək?
Niyə Tahir deyirdi: "Zöhrə kimi bir çiçək?"
Bir belə qətiyyəti Fərhad hardan tapırdı?
Hansı gülün eşqinə qayaları çapırdı?
Boşuna söz deyilməz, hər söhbətin canı var,
Xalqımın yaratdığı
Nağıllar, əfsanələr, laylalar dünyasında
Bir ucalıq timsalı, böyüklük nişanı var.
Zaman nəyə bənzəyir?
Şütuyüb əldən çıxan qızılı bir balığa.
Mən sizi çağırmışam
Həmişə böyüklüyə, hər zaman ucalığa!
Daşı-dağı görməyən nə bilsin bulaq nədir?
Əlini-ayağını daş, çınqıllar əzməyən,
Zirvələri dolaşıb, ətəkləri gəzməyən,
Nədən bilsin, nə bilsin, aran nə, yaylaq nədir?



Mir bir naxış güllərin arasında gizlənən,
Gül görüb ətirlənən, qar görüb təmizlənən,
Qaynar bulaqlar görüb, göz yaşıtək durulan,
Yerdəki çiçəklərə, göydəki ulduzlara,
Düzdə qaralan şuma,
Səhrada yanan quma Məcnun kimi vurulan,
Bilir, çox gözəl bilir,
Allah nə, Yaradan nə, Tanrı nədir, Haqq nədir!
Bələd olur həyatın dəymişinə, kalına,
Allahını sevən kəs uymur dünya malına
Qara daşı ləl bilir,
Nəyi, necə sevməyi bilir, çox gözəl bilir!
Mən sizə danışmışam
Savalanın başında əriməyən qar nədir!
Mən sizə tanıtmışam
Kimlər əyib Vətənin əyilməyən qəddini!
Dərbənd niyə aralı?
Təbriz niyə yaralı?
Niyə Borçalının da
Rəngi-ruhu bozarıb, yarpaq kimi saralı?
Mən sizə danışmışam
Kim vurdu birdən-birə Göyçə kimi maralı!
Mən sizə danışmışam
İki yüz ildən artıq
Bir millətin çəkdiyi bu qədər ah-vay nədir!
Niyə ulu Şəhriyar şeir oxuyan zaman
Sızıldayır damarda yetmiş iki damarı.
Özü demiş: "Görəsən,
Biz niyə uduzmuşuq oyunda bu qumarı?"
Ay mənim balalarım,
Eşqim, sərvətim, varım!
Kövrələn qəlbinizə, körpə ürəyinizə
Sevincdən daha artıq, daha çox dərd vermişəm.
Dərsimi ata kimi bir az da sərt vermişəm.
Sehrləmişəm sizi saz gələndə sinəmə,
Mən sizi çağırmışam oylağıma, binəmə.
Demişəm, fikir verin "Misri" nədir, "Cəngi" nə?
Gümüşü tellər üstə tellərin ahəngi nə?

Hansı hava hayqırıb ürəkdən Vətən deyir,
"Sarıtel" nə danışır, "Sultanı" nədən deyir?
İgidlərmi qocalır, gözəllərmi zarıyır,
"Zarıncı" zar-zar olub, niyə belə zarıyır?
Kərəm niyə əritmir Ərzurumun qarını,
"Ruhani" hara çəkir ruhun qanadlarını?
"Qaraçı"nı çalanda
Fikir vermisinizmi, niyə belə gərginəm?
Mən bu məqamlarımda
Vurulub döyülmüşəm, qaçqınam, didərginəm.
Açın qulağınızı, mənim gül balalarım,
Eşidin min illərin fəryadını, səsini!
Açın bu vaxta qədər hələ də açılmamış
Sazın fəlsəfəsini, sözün fəlsəfəsini!
Yarım əsri yaşadım, artıq yaşım əllidir.
Ölüm nə vaxt gələcək?
Onu Yaradan bilir,
Son günüm, son saatım yalnız ona bəllidir.
Dediklərim gün kimi sizlərə bəlli olsun,
Uca tutun sözümü,
Bu ucalıq sizlərə ən xoş təsəlli olsun!
Mən köçəndə dünyadan,
Daşıyın mənim kimi
Xalqın, elin, obanın nisgilini, qəmini.
Bir az asta tərpənin,
Şair atanız küsər,
Sındırmayın sazını, qırmayın qələmini,
Sığal çəkin sazıma, tel dilində danışın.
Çevrilin hər biriniz Süleyman peyğəmbərə,
Təbiət ləhcəsində, quş dilində danışın.
Yer üstündə gəzənlər
Qoy, heç vaxt unutmasın
yer altında yatanı.
Oğlu əsil bir oğul,
qızı əsil qız olsa,
O, qəbir evində də sevindirər atanı.

*20 may 2001*





## DƏRDİMİZİN BAYATI DÜZÜMÜ

Nədir bu deyimlər?

Yetimliyin sərt üzünü görən Güllü anamın göynəyən ürəyinin sızıltılarımı, məni sazla yatırdıb, sözlə oyadan Fatma nənəmin zümzümələridimi? Ən böyük sevincimi ən ağır kədərə çevirən körpəlik çağlarımın itirilən dünyasıdımı? Əlimizdən çıxan yaylaq yerləridimi? Yaralanmış və paralanmış Azərbaycan dərdimi? Əsirə və girova çevrilən Zəngəzurdumu, Dərələyəzdimi, Təbriz yarasıdımı, Borçalı nisgilidimi?

Köhnə dərdlərimizdən daha betər olan Qarabağ harayı, Laçın fəryadı, Şuşa naləsidimi? Ələsgərin kafər tapdağında inləyən məzarıdımı? Sarı Aşığın Güləbirddə, Dədə Şəmşirin Ağdabanda, Vaqifin Cıdır düzündə, Natəvanın Ağdamda bizi çağıran, bizsiz qalan ruhudumu? Nədirsə, bilmirəm! Bildiyim odur ki, özüm öz ömrümü-günümü laylaya tutmuşam. Aylarla, illərlə içimdə nehrə kimi çalxanıb bu qəmli duyğular, həsrətli düşüncələr. "Yağı yağ üstə çıxıb, ayranı ayranlıq olan" fikirlərim bayatı dilində, layla dilində, oxşama dilində, ağı dilində ürəkdən qələmə, qələmdən varağa süzülüb. Bu yaralı duyğular qoy torpaq, yurd-yuva həsrəti ilə alışıb yanan insanların hər birinin ürəyinə toxum kimi səpilsin, etiraz kimi baş qaldırsın, qisasa və intiqama çağırsın Bu deyimlərdə gözümüzə sataşan hər bir tarixi ad qəlbimizdəki qəzəb qılıncını itiləsin, damarımızdakı qanı qeyrətə və hərəkətə gətirsin.

Dərd bizi dara bağlar,
Yol kəsər, ara bağlar.
QARABAĞI gedənlər
Meylini hara bağlar?

Şər bizi şərə bağlar,
Cam ağlar, şərab ağlar.
Bülbül susub, gül solub,
Yem olub xara bağlar.

QARABAĞ qara bağlar,
Qismətmiş sara ağlar.
TƏBRİZ göz yaşı tökər,
Dərdimdən SƏRAB ağlar.

ŞUŞADAN LAÇINA bax,
QARABAĞDAN XAÇINA bax.
Yazıq anam saç yolur,
Əlində saçına bax.

AĞDAMIN keşik dağı,
Görünmür BEŞİKDAĞI.
Yüz il getməz ürəkdən,
Ev dağı, eşik dağı.

Yaman gözə ağ dama,
Gül yanaqdan yağ dama.
Açıla bağlı yollar,
El qovuşa AĞDAMA.

Mey içən cama gəlsin,
Pərvanə şama gəlsin.
Qarabağı sevənlər
Dönsün, AĞDAMA gəlsin.

Çiçəyi bal GÜLABLI,
Qayası sal GÜLABLI.
Yarası ürəyimdə
Bir qara xal GÜLABLI.

Durultmur şeh bulağı,
Küsdürdüm ŞAHBULAĞI.
Dərdi dünyanı tutub
Götürüb ah bulağı.

QARABAĞ tülü neylər,
Tarla sünbülü neylər?



Mən ki dərə bilmirəm,
GÜLLÜCƏ gülü neylər?

İLXIÇIDA ilxı yox,
Dəyirmanın çarxı yox.
Dağılıb ağ otaqlar
Sahibi yox, xalxı yox.

Bu oba KƏNGƏRLİDİ,
Sipərli, səngərlidi.
Dərdi də özü kimi
Ağırdı, ləngərlidi.

XOCALIDA xoca yox,
Cavan ölüb, qoca yox.
Od içində yandırır,
Tüstüsü var, baca yox.

Düz qandı, doğru qandı,
Dərd qandı, ağrı qandı.
Burda nəslim qırılıb,
Ada bax, BAĞRIQANDI.

Zəhəri aş altıdı,
İnləyən DAŞALTIDI.
Xalqın dərdi bir olar
Mənimki beş-altıdı.

Bu dərə nağıl dərə,
Barını ağıl dərə.
Bakıda mən ağlaram,
LAÇINDA OĞULDƏRƏ.

Nuru dağda yayır dan,
Şad xəbər yox bayırdan.
Qalxaram məzarımdan,
Səs gəlsə ÇALBAYIRDAN.

Dağ başı QUBADLIDI,
Şimşəkdən qanadlıdı.
Hər gün qisas almağa
Oğulları atlıdı.

Əyinli əyin dilər,
Bəysizlər bəyin dilər.
BƏRGÜŞADA boylanan
Görəsən, nəyin dilər?

Mən qəmin təkəriyəm,
Tək dərdin tək əliyəm.
Çırpınan QUBADLIYAM,
Hönkürən HƏKƏRİYƏM.

Haqqa səcdə qılandı,
Bu torpaq ZƏNGİLANDI.
Boynumuza dolanan
Gör, neçə rəng ilandı.

Zəngilanda qar sızlar,
Qara düşər, yar sızlar.
BAHARLI əldən gedib,
Neyləsin BAHARSIZLAR?

El köçdü, binə qaldı,
Çən sinə-sinə qaldı.
Sarı Aşıqla görüş
İnsafa, dinə qaldı.

Qiblə döş, qiblə sinə,
Qibləyə qiblə sinə.
Kafər ayağı dəydi
YAXŞININ qibləsinə.

Ünüm ərşə yayıla,
Qan coşa, səbr ayıla.



DİRİDAĞA səs düşə,
Qovuşam CƏBRAYILA.

Cəbrayılım CANLIDI,
HACILI, MƏRCANLIDI.
Kəhrizlər qana batıb,
Düşmən əli qanlıdı.

Vətəndə ömür varlı,
Daş varlı, dəmir varlı.
Varı əlindən gedib,
Varsızdı ƏMİRVARLI.

Sev dağı, bəyən düzü,
Al yaşıl geyən düzü.
Qurbani bir saz çala,
Gül aça GƏYƏN düzü.

Bu qaya QARAQAYA,
Baş əydi sara qaya.
XOCALI kül olandan
Bağrımda yara qaya.

İş gəlib işdən keçib,
ŞİŞQAYA şişdən keçib.
Mənə dəyən yaranın,
Fəndi keşişdən keçib.

Sünbüləm dəndən uzaq,
Yaylağam səndən uzaq.
Tanrım, necə dözürəm,
QIRXPİLLƏKƏNDƏN uzaq?

Kəndimiz MEŞƏLİDİ,
Qoynu bənövşəlidi.
Həsrətdən sərxoş olub,
Kədərdən nəşəlidi.

Yas yası baxta düzdü,
Zamana, vaxta düzdü.
Göz yaşlarım KƏLBƏCƏR,
Nisgilim TAXTA DÜZÜ.

Yaman qonşu himlədi,
Yaralarım simlədi.
Qəlbi qəm qıfılladı,
Canı dərd tilsimlədi.

Hamının anası dərd,
Dünyanın mənası dərd,
Heç vaxt tək buraxmadı,
Toyu sevinc, yası dərd.

Bəxt yönü bərdən düşə,
İşıq səhərdən düşə.
Sevinc hər axşam gələ,
Dərd bizə hərdən düşə.

Saçda dən doğulmuşam,
Dərdə tən doğulmuşam.
Ana bətnindən əvvəl
Mən dərddən doğulmuşam.

Çöldə yanan zəmidi,
Suda batan gəmidi.
Bu çalxanan dəryalar
Ürəklərin qəmidi.

SOFULU ah-zardadı,
Canım BARXUDARDADI.
BAĞANİS – AYRIM yanıb,
ƏSKİPARA dardadı.

İşlərin tərsinə bax,
Tarixin dərsinə bax.



Düşmənin hikkəsinə,
Tanrının hirsinə bax.

Gözümdən iraq yerlər,
Gözümə çıraq yerlər.
BORÇALITƏK yetimdi
Vətəndən qıraq yerlər.

Hardasan, KƏRKÜKÜM, gəl,
Çəkilməzdi yüküm, gəl.
MOSUL dedim, ağladım
Biz-biz oldu tüküm, gəl.

Hər oymaq, hər kənd ağlar,
Dərdimdən DƏRBƏND ağlar.
Dərdə şeir yazaram
Hər misra, hər bənd ağlar.

Əyilən qəddim, haray,
Çağırram, cəddim, haray.
RƏVAN, səsimə səs ver,
Gəl, ÇUXURSƏDDİM, haray.

Evi olmaz abadan,
Gələn yox AĞBABADAN.
Babam dağdan ayrılıb,
İnciyib dağ babadan.

BAŞKEÇİD başdan ağlar,
Kirpikdən, qaşdan ağlar.
Gecələr yuxu yatmaz
Durar obaşdan, ağlar.

XƏTAYİ atamızdı,
Sevgisi butamızdı.
Sevinci sevincimiz,
Xatası xatamızdı.

Yol gedəm ƏRDƏBİLƏ,
Dağ çəkəm dərdə bilə.
Mən çalam, yar oxuya,
Sim bilə, pərdə bilə.

Ərkimdi ƏRK QALASI,
Dünəni dərk qalası.
Tufanlı tarixlərin
Dizləri bərk qalası.

Gözdə bəbək qalası,
Odu BABƏK QALASI.
Səsinə səs verməsək,
Meydanda tək qalası.

Kamanım, neyim ağlar,
Dizimdə heyim ağlar.
Quzeyə qovuşmasa,
Ağlar güneyim ağlar.

Könlü imanlı gəzir,
Başı tufanlı gəzir.
ÇÖHRƏQANLI dünyanı
Çöhrəsi qanlı gəzir.

Göy ağlar, tavan ağlar,
Gənc ağlar, cavan ağlar.
XANQIZI gözü yolda,
Sızlar, NATƏVAN ağlar.

Gədələrdə hədə var,
Hədələrdə zədə var.
ƏLƏSGƏRSİZ, GÖYÇƏSİZ
Necə deyim dədə var?

Kəklik fərəsiz qalıb,
Ovu bərəsiz qalıb.



Küskündü VURĞUN ruhu,
DİLCAN dərəsiz qalıb.

Qurd yedi kəli dağda,
İtirdi əli dağda.
VURĞUN-ŞƏMŞİR dastanı
Dustaqdı DƏLİ DAĞDA.

Bu millət şərə düşdü,
Dağ uçdu, dərə düşdü.
ŞƏMŞİRİM AĞDABANA,
GÜLÜM TƏRTƏRƏ düşdü.

Yaş gözü yudu getdi,
Qəlbimin odu getdi.
Şəhidlər sıralandı,
Birinci XUDU getdi.

Oğul bizim canımız,
Ata dın-imanımız.
XƏLİL-TƏBRİZ dastanı
Şəhidlik dastanımız.

Qeyrət göynər, ar sızlar,
Yarsız qalsa, yar sızlar.
Burda BƏXTİYAR yanar,
Orda ŞƏHRİYAR sızlar.

Sevinci az elədi,
Dərdi taraz elədi.
Həsrətimiz Məmmədi
MƏMMƏD ARAZ elədi.

Göy köhləni, Ay nalı,
Gözü səngər, Aynalı.
Necə yaddan çıxardım
HÜSEYN OĞLU ZEYNALI?

Gözü yolda qız qalar,
Qılıncım qınsız qalar.
MƏMMƏD ASLANSIZ ölər,
AĞA LAÇINSIZ qalar.

Yarsızam, yarım layla,
Layla, ŞAHMARIM layla.
Elə keşik çəkənim,
Yurda qahmarım, layla.

Dilimiz qısa qaldı,
Yasımız yasa qaldı.
Çadırlara dil demək
AQİL ABBASA qaldı.

Arx dərdim, dəhnə dərdim,
Tamaşa, səhnə dərdim,
Ağlar təzə dərdimə,
Dil deyər köhnə dərdim.

ZƏNGƏZUR zəngim, haray,
Döyüşüm, cəngim, haray.
Yurd həsrəti çəkəndən
Açılmır rəngim, haray.

Başım üstən sar keçər,
Sar məni basar keçər.
Müxənnətə yurd olub,
Yasdadı BASARKEÇƏR.

Gül çəmənin mehrimi,
Qaya dağın möhrümü?
MEHRİM uzaqda qalıb
Kımə salım mehrimi?

ÜZ kəndi, ÜZ elləri,
Yanşaq, qopuz elləri.



Hanı bəy babalarım,
Hanı OĞUZ elləri?

Baxdım bağa-bostana,
Həsrət döndü dastana.
Görünmür PALANTÖKƏN,
GÜLLÜ YURD, AĞYASTANA.

Yandıran sənəm ola,
Od tutan sinəm ola.
SARIYAL göy yaylağım,
ÇADIRDAŞ binəm ola.

YAYÇI DÜZÜ yaylamaz,
Könlümə nur paylamaz.
Mən onu çağırmasam,
O məni haraylamaz.

KİRS dağa gəl-gəl deyəm,
Boz başına ləl deyəm.
Şerimi şirin yazam,
Sözümü gözəl deyəm.

SALVARTI mənim idi,
Sünbülüm, dənim idi.
BƏRK DƏRƏNİN bərkliyi,
Düşmənə qənim idi.

Gur çaylarım gur idi,
Həsrət gördü qurudu.
Göz görmür, əl yetişmir,
Necə gəzim URUDU?

Sellərin səsindəyəm,
Zilində, pəsindəyəm.
Hərdən elə bilirəm
OXÇU dərəsindəyəm.

Canımda bir sazaq var,
Yaxın yoxdu, uzaq var.
Nə NÜVƏDİ, QAÇARAN,
Nə də ki, AĞBULAQ var.

Elim-günüm QƏMƏRLİ
Gözəlləri nəmərli.
Əli daşdan xınalı,
Beli güldən kəmərli.

Bu bölgə AXTARDIMI,
Gözdən uzaqdadımı?
Ondan ayrı düşənlər,
Daşdırmı, taxtadımı?

Gözümüzə çən gəlib,
Dərd dağlara tən gəlib.
AŞIQ SADIQ yanğısı
DƏRƏÇİÇƏKDƏN gəlib.

Dərd bizi yedi getdi,
Sözünü dedi getdi.
Göz yumdum ZƏNGİBASAR,
Göz açdım VEDİ getdi.

Ruh uçar, can tapılmaz,
Dərdə dərman tapılmaz.
VEDİDƏ tufan qopub,
Bir də FƏRMAN tapılmaz.

İçən su içməz oldu,
Göz gözü seçməz oldu.
DƏDƏLİ körpüsündən
Dədələr keçməz oldu.

DİKPİLLƏKƏN, MIXTÖKƏN
Oldu yada diz çökən.



SARIYERİN dərdidi
Bağrımı didib sökən.

Tapıb bir bəla göllər,
Qəmginmi ALAGÖLLƏR?
Üstə çən-duman çöküb
Bürünüb şala göllər.

Xeyrimizə şər dəydi,
Qəddimizi dərd əydi.
Əyilməzdi ƏYRİCƏ,
ƏYRİCƏNİ dərd əydi.

QAZAN gölün qazanı,
Qaytara yol azanı.
Yurdu məndən ayıran,
Allah versin cəzanı.

Dağ üstündə dağ idi,
SOĞANLI yaylaq idi.
Gülləri balla, qaymaq,
Çiçəkləri yağ idi.

Dağ kimi duran ola,
Toy-büsat quran ola.
Yayda arxam, həmdəmim
TƏKƏDONDURAN ola.

ARPAÇAY aşıb-daşar,
Bulaqlar sızıldaşar.
DƏRƏLƏYƏZ deyəndə
Huş gedər, ağlım çaşar.

Hanı BAŞGÖZƏLDƏRƏ,
Gözə qaş GÖZƏLDƏRƏ.
VERS dağı kirpikdə nəm,
Gözdə yaş GÖZƏLDƏRƏ.

Dəyişən adlar, haray,
Sınan qanadlar, haray,
Doğmalar yas içində,
Kefdədi yadlar, haray.

Kimdi yağım, kim, Allah?
Hardadı səhvim, Allah?
Torpağın itkisidi
Ölümüm, məhvim, Allah.

Nəsil qoru, ad daşı,
Damağında dad daşı.
Torpaq itirən kəsin
İtər ruhu, yaddaşı.

İnsanam, elim hanı?
Dənizəm, lelim hanı?
Axrım bu imiş demək,
Mənim əvvəlim hanı?

Ahımdan duman sızlar,
Din yanar, iman sızlar.
Torpaq imanım idi
Aldılar imansızlar.

Qovrulan içim, layla,
Günahım, suçum, layla,
Mən nə qədər yol gedim?
Dayanmır köçüm, layla.

Burulğan burdu bizi,
Düşmən uçurdu bizi.
Tapdı zəif damarı,
Arxadan vurdu bizi.

Qovuşmadım haqlara,
Yem oldum balıqlara.



Nə var görüşlərdə var
Lənət ayrılıqlara.

Dad aldılar dadımdan,
Üzdülər əcdadımdan.
Mənə bir toy tutdular
Adım çıxdı yadımdan.

İtənlər elə gəlməz,
İstərəm gələ, gəlməz.
KƏRƏM yüz yol çağırsa,
Köməyə lələ gəlməz.

Sordular qanım getdi,
Aldılar canım getdi.
Torpağım gedən günü
Dinim-imanım getdi.

Can bağçalar, can bağlar,
Yaralarım şan bağlar.
Bayatı bir zəmidi
Dərzi ZƏLİMXAN bağlar.

## ƏMRAH DAYI

Qışın oğlan vaxtı bir hava çaldın,
Açıldı könlümdə yaz, Əmrah dayı.
Bulaqlar qaynadı, gözlər süzüldü,
Gözəllər elədi naz, Əmrah dayı.

Min ömür uzadıb, ömür üzməyib,
Yersiz oynamayıb, yersiz süzməyib,
Usta bağlamayıb, zərgər düzməyib,
Sənə haqdan gəlib saz, Əmrah dayı.

Adın bir şöhrətdir obaya, elə,
Zəlimxan adına nə yazıb hələ?
Yüz il yaşasan da sən indən belə,
Az olar yenə də, az, Əmrah dayı.

## AŞIQ KAMANDARA MƏKTUB

Ağrını, azarı qoyma yaxına,
Durma, usta tərpən, usta Kamandar.
Tutular gözlərim, yanar ciyərim
Görsəm o telləri pasda, Kamandar.

Bəzəsin məclisi söhbətin xası,
Qoyma göz açmağa nisgili, yası.
Amandı, quyudan qurtar Abbası,
Saxlama Gülgəzi yasda, Kamandar.



Sazdı, havacatdı könlümün yarı,
Odur Zəlimxanın dövləti, varı
Beş gün ömrüm olsa, böləram yarı,
Verrəm sənin kimi dosta, Kamandar.

## ƏDALƏTİ DİNLƏDİM

Kim keçərdi o keçdiyi yolları?
Kim aşardı o aşdığı yolları?
Kim vurardı o vurduğu xalları?
Əfsanəni, həqiqəti dinlədim,
Bir məclisdə Ədaləti dinlədim!

Barmağında köz olmuşdu təzənə,
Biz yanırdıq, ocağa nə, közə nə?
Daş deyərdim alışmayıb dözənə,
"Yandım" deyən təbiəti dinlədim,
Bır məclisdə Ədaləti dinlədim!

Tellərə bax, nə hikmətdi, nə sirdi?
Yenə qəlbim güllərinə əsirdi.
Qılınc kimi doğrayırdı, kəsirdi,
Pərdələrdə cəsarəti dınlədim,
Bir məclisdə Ədaləti dınlədim!

Heç bilmədi soyuq nədi, isti nə,
Baş endirdi telli sazın üstünə.
Talan etdi, durdu canın qəsdinə,
Neçə-neçə hekayəti dinlədım,
Bir məclisdə Ədaləti dinlədim!

Kərəm dağda Lələsini itirdi,
Abbas köçü yurddan-yurda ötürdü.
Qərib özün Şahsənəmə yetirdi,
Ayrılıqdan şikayəti dinlədim,
Bir məclisdə Ədaləti dinlədim!

Söhbətini baxış dedi, göz dedi,
Tahir yenə Zöhrəsinə döz dedi,
Vaqif coşdu, gözəllərə söz dedi.
Dönə-dönə məhəbbəti dinlədim,
Bir məclisdə Ədaləti dinlədim!

Zili, bəmi bir-birindən təzə-tər,
Səs-sorağa gəldi Vurğun, Ələsgər!
Mın nəfərə layla çaldı bir nəfər,
Ölməz olan bir sənəti dinlədim,
Bir məclisdə Ədaləti dinlədim!

## AŞIQ XANLARA

Deməsin dəlidi huşsuz görəndə,
Yersiz qınamasın baxanlar məni.
Qalarmı başımda ağlım, kamalım,
Azdımı yandırıb yaxanlar məni?

Aşiqin istəyi, gözəlin nazı,
Gətirər hər ömrə baharı, yazı.
Bilər nə deməkdi aşığın sazı,
Duyar selə dönüb axanlar məni.

Ruhlar cərgəsində çəkər sanımı,
El deyər itirdim Zəlimxanımı.
Xalları, gülləri alıb canımı,
Ya saz öldürəcək, ya Xanlar məni.

## BU, SAZDIMI

Bu, sazdımı, ovsundumu,
Telə bax, Allah, telə bax!
Pərdə üstə dalğalanan
Tülə bax, Allah, tülə bax!



Bir dəlisov atdı yenə,
Haqqa çataçatdı yenə,
Yeri göyə qatdı yenə,
Zilə bax, Allah, zilə bax!

Uçan dağım, dərəm oldu,
Yanan bəndim, bərəm oldu,
Mahmud döndü Kərəm oldu,
Külə bax, Allah, külə bax!

Nəfsi təzə, nəğməsi tər,
Xan Əslinin düyməsi zər.
Açılıbdı gümüş kəmər,
Belə bax, Allah, belə bax!

Ürəyimi qan eləyən,
Bağrımı şan-şan eləyən,
Məni Zəlimxan eləyən
Elə bax, Allah, elə bax!

## TELLƏR

Yenə nə nalədi, yenə nə səsdi,
Nədir o çəkdiyin haray, a tellər?
Yenəmi ayrıldı Gəncədən Kərəm,
Yenəmi dağıldı saray, a tellər?

Əslinin həsrəti, Qəribin qəmi,
Yükünü kədərdən götürmüş gəmi.
Məcnun intizarı, Leyli sitəmi
Haraya, sığışar, haraya, tellər?

Şair Zəlimxana doğmadır adın,
Qəddar düşmənisən sənətə yadın.
Sən bizi Allahdan az yandırmadın,
İnsafı gətirsək araya, tellər.

## BƏLKƏ

Aşıq, ağrın alım, bir "Qaytarma" çal,
İnciyən gözəlim qayıda, bəlkə.
Sazda "Müxəmməs"im, tarda "Segah"ım,
Bayatım, qəzəlim qayıda, bəlkə.

Boranı əylənə, qışı dayana,
Tökə ətəyindən daşı, dayana.
Ağlayan gözünün yaşı dayana,
Axırım, əzəlim qayıda, bəlkə.

Gəlişi qaytara ötən çağları,
Sağala aşiqin sinə dağları.
Gəzə Zəlimxanla yaşıl bağları,
Söhbəti məzəlim qayıda, bəlkə.

## DİNDİRƏ

Mənim bu yerimdə bir Günəş doğa,
Əridə atəşi qarı, dindirə.
Güllərin gözündən bir öpüş ala,
İncə çiçəkləri arı dindirə.

Eşqimin başında duman olmaya,
Bir də ayrılığa güman olmaya.
Arada-bərədə yaman olmaya,
Nola, Yaxşısını Sarı dindirə.

Çəkilə qapımdan qışın ayazı,
Dərinlər batıra eşqidayazı.
Habil kamançanı, Kamandar sazı,
Əhsən asta-asta tarı dindirə.

Qəlbə sevinc adlı bircə qol gələ,
Dolana boynuma qoşa qol, gələ.
Budaqlar sallana, payız bol gələ,
Bağbanı bağların barı dindirə.



Zəlimxan, həsrətin ömrü az ola,
Saz şahlıq eyləyə, aşıq saz ola.
Yerlə göy birləşə, bir avaz ola,
Bəlkə, küsdürdüyün yarı dindirə.

## AŞIQ ƏMRAH

Çox ustadlar gördü gözüm,
Əmrah bir gəldi, bır getdi.
Telli sazın meydanında
Əmrah şir gəldi, şir getdi.

Gah qış oldu, gah yaz oldu,
Həm ney oldu, həm saz oldu,
Təbi daşqın Araz oldu,
Əmrah Kür gəldi, Kür getdi.

Pərdə-pərdə, xana-xana
Hopdu ruha, keçdi qana.
Ocaq oldu yana-yana,
Əmrah pir gəldi, pir getdi.

Başımıza gəldi nələr,
Ay Zəlimxan, qaldıq mələr.
Açıldı çox möcüzələr,
Əmrah sir gəldi, sir getdi!

## ÜÇ MÜQƏDDƏS DUYĞU

Ürəyimdə üç müqəddəs duyğu var:
Bir övladım, bir qələmim, bir sazım.
Çırağıdı taleyimin, baxtımın
Bir övladım, bir qələmim, bir sazım.

El mənimdi, özülüm var, himim var,
Bir kök üstə min nəğməli simim var
Qoy danışsın kim olmuşam, kimim var,
Bir övladım, bir qələmim, bir sazım.

Övlad ruhum, qələm dilim, saz köküm,
Hər üçünə secdə qılım, diz çöküm.
Dərdim olsa, həm dərmandı, həm həkim
Bır övladım, bir qələmim, bir sazım.

Əzizləyər torpağımı, havamı,
Döyüş olsa, özü çəkər davamı.
Məndən sonra dövranımın davamı
Bir övladım, bir qələmim, bir sazım.

Bir çiçəyəm, torpağım var, göyüm var,
Bir ürəyım, kamanım var, neyim var.
Bu Vətənin keşiyində nəyim var:
Bir övladım, bir qələmim, bir sazım.

## GİLEYLİ DOSTUMA

Küsmə təbiətin şıltaqlığından,
Duman bu dağlardan getmir, getməsin.
Torpaq yanımızda, su yanımızda,
Əlimiz bir yana yetmir, yetməsin.

Cana dərd eləmə çəni, dumanı,
Nə ahı yaxın qoy, nə də amanı.
Mən sazı götürüm, sən də kamanı,
Bülbül özü bilər, ötmür, ötməsin.

Əgər ağıl varsa başın içində,
Diləklər gül açar daşın içində.
Zəlimxan yaz tapar qışın içində,
Tək arzu tükənib, ömür bitməsin!

## ÇƏKƏR

Aşıq el oğludu, el anasıdı,
Qəlbindən fərəhlə qəm şirə çəkər.
Bağban da özüdür, bağ da özüdür,
Həm çiçək yetirər, həm şirə çəkər.



"Yanıq Kərəmi"ni gətirsən dilə,
Əriyər odunda dağ gilə-gilə.
İncə barmaqların dad verər zilə,
Usta əllərindən bəm şirə çəkər.

Zəlimxan yollarda min köhlən yora,
Qəlbi düşən deyil heç zaman tora.
Çəkməz nanəcibə, çəkməz nankora,
Çəksə, Ələsgərə, Şəmşirə çəkər!

## SARILDIĞIM SAZDI MƏNİM

Əzizlərəm ana kimi,
Sarıldığım sazdı mənim.
Sığallaram sona kimı,
Sarıldığım sazdı mənim.

O, çiçəkdi, arı mənəm,
O, zirvədi, qarı mənəm,
O, bağbandı, barı mənəm,
Sarıldığım sazdı mənim.

Dillənmişəm dili kimı,
Danışmışam teli kimi,
Yüksəlmişəm zili kimi,
Sarıldığım sazdı mənım.

Həqiqətim, doğrum odur,
Məşəqqətim, ağrım odur,
Göz-göz olan bağrım odur,
Sarıldığım sazdı mənim.

Bir Qəribəm, qürbətimdi,
Bir Məcnunam, həsrətimdi,
Bir Kərəməm, hicrətimdi,
Sarıldığım sazdı mənim.

Ağrıdı, ah vergisidi,
Tanrının şah vergisidi,
Ruhu Allah vergisidi,
Sarıldığım sazdı mənim.

Odum orda, qorum orda,
Gücüm orda, zorum orda,
Qəbrim orda, gorum orda,
Sarıldığım sazdı mənim.

Qorqud quran bir yuvadı,
Yunusdan qalan havadı,
Dərk etməyən binəvadı,
Sarıldığım sazdı mənim.

Çiçəklər yazdan doğulub,
Gözəllər nazdan doğulub,
Zəlimxan sazdan doğulub,
Sarıldığım sazdı mənim.

## BU SAZ KİMİ

Təpə-dırnaq dərd oluram, vərəm oluram,
"Dilqəmi"yə qanad verən bir qəm oluram.
Qərib olur, Məcnun olur, Kərəm oluram,
Heç nə məni bu saz kimi oxuda bilmir.

Mən bu sazın dili kimi, əli kimiyəm,
Hər xalında məcnunlaşan dəli kimiyəm.
Mən bu sazdan yapışanda zəli kimiyəm,
Heç nə məni bu saz kimi oxuda bilmir.

Ciyərimiz dərd adlanan bir şişdən keçib,
Tilsimdəyik, tilsimimiz keşişdən keçib.
Saz neyləsin, baxıram ki, iş işdən keçib,
Heç nə məni bu saz kimi oxuda bilmir.



Çeşmə coşur, çay hönkürür, bulaq oxuyur,
Könül dinir, dil tərpənir, dodaq oxuyur.
Kökün şirin nəğməsini budaq oxuyur,
Heç nə məni bu saz kimi oxuda bilmir.

Dumana bax, qəlbim onu qalxan ah bilər,
Şah Xətai nələr çəkib, onu şah bilər.
Bu saz nədi, bəndə bilməz, bir Allah bilər,
Heç nə məni bu saz kimi oxuda bilmir.

Tanrı bizə bu dünyanı tamaşa verib,
Eşq odunu gah ürəyə, gah başa verib.
Heç kəs mənim dərdim ilə baş-başa verib
Bu saz kimi göz yaşları axıda bilmir,
Heç nə məni bu saz kimi oxuda bilmir.

## NƏ DEMİŞƏM Kİ...

*Nə gözəl demisən, şair Zəlimxan*
***Oxucu məktubundan***

Qardaş, bal olsa da dostun tərifi,
Hələ bu torpağa nə demişəm ki...
İlahi baxışı sevən ürəyə,
Nəğməli dodağa nə demişəm ki...

Fikrin sərhədi yox, eşqin sahili,
Dərələr bəmidir, zirvələr zili.
Qələmdi Allahın danışan dili,
Qələmə, varağa nə demişəm ki...

Yersizdir təkəbbür, yersizdir qürur,
Mövzu var, yetimtək boynunu burur.
Hələ yazılmamış kitablar durur,
Bu şama, çırağa nə demişəm ki...

Əslindən uzaqdır əslini danan,
Kökünə tapınar düşünən, qanan.
Ulu Borçalıda od tutub yanan
Mübarək ocağa nə demişəm ki...

Arzular muncuq tək düzülər səfə,
Çatdırar ömrümü şana, şərəfə.
Sanki söz deyirəm birinci dəfə,
Yaxına, uzağa nə demişəm ki...

Salsın sinəm üstdən yolu çeşmələr,
Eşq ilə doludur, dolu çeşmələr.
Saflığa çağırır ulu çeşmələr,
Çeşməyə, bulağa nə demişəm ki...

Ömür pay olmasın qara yellərə,
Təzə vurulmuşam qızılgüllərə,
Gərdənə tökülmüş qara tellərə,
Yar gəzən oylağa nə demişəm ki...

Yetirdi özünü min ilin başı,
Ömrüm bir əsrlə durdu yanaşı.
Hələ çatılmasın şairin qaşı,
Bu vaxta, bu çağa nə demişəm ki...

Fıkrin qanadları gərilməlidir,
Eşqin meyvələri dərilməlidir.
Şair nəfəsiylə, şair sözüylə
Ölmüş duyğular da dirilməlidir.

Tanrıdan pay olan, Allahdan gələn
O səsə-sorağa nə demişəm ki...
Uzaq ulduzlara, ulu göylərə,
Çiçəyə, yarpağa nə demişəm ki...
Müqəddəs torpağa nə demişəm ki...

*20 fevral 2000*



# DEYİŞMƏLƏR

## OSMAN SARIVƏLLİYLƏ

### Zəlimxan Yaqub

Gəl çıxaq gəzməyə, ay Osman qağa,
Gözləyir yaylaqda gözəllər səni.
Şair hanı deyib yollara baxır,
O yerlər çox görüb əzəllər səni.

### Osman Sarıvəlli

Quzeydə ağaran qayamı, qarmı,
Yaşıl yaylaqların heç tayı varmı?
Üç günlə, beş günlə doymaq olarmı?
Dağlardan doymağa yüz illər gərək.

### Zəlimxan Yaqub

Min dəfə görsə də, doymamış baxan,
Şərindi dağlardan süzülən, axan.
Kimdi qocalığı başına qaxan,
De, niyə kövrəldir xəzəllər səni?!

### Osman Sarıvəlli

Qonardı xəyalım Qoşqar dağına,
Quş kimi qalxardım yar oylağına.
Ömür bağçasına, könül bağına
Vaxtsız düşməyəydi xəzəllər gərək.

### Zəlimxan Yaqub

Çiçəklər döşənib sən gələn yola,
Qışda da inanma saralıb-sola.
Təbiət zamanla verib qol-qola,
Yaşadar qəlbində yüz illər səni.

Osman Sarıvelli

Daha səməndimin ağarıb yalı,
Sökülüb dırnağı, tökülüb nalı.
Dağlara çıxmağa qalmayıb halı,
Gedəydim o yerə əzəllər gərək.

TƏBRİZLİ QARDAŞIM SÖNMƏZLƏ

Zəlimxan Yaqub

Qardaş, sənin əllərini sıxanda
Döndü qəlbim yenilməzə, dönməzə.
Belə yerdə qoy anamız təbiət
Ən deməsin zirvələrdən enməzə.

Sönməz

Qardaş, məni sən bağrına basarkən
Danış! – dedin danışmaza, dinməzə.
Mən danışdım, sən də qulaq asarkən
Cana sindi dedin canasinməzə.

Zəlimxan Yaqub

Duyan könül heç olmasın viranlıq,
Qoy dağılsın başındakı qaranlıq.
Gəl unudaq dərdimizi bir anlıq,
Bu xoş gündə mən mey olum, sən məzə.

Sönməz

Sazlı, sözlü şairimsən, al məni,
Bir saz kimi al döşünə, çal məni.
Qoy yetişim, dərməsinlər kal məni,
Bəlkə, dönüm sənin kimi dönməzə.



Zəlimxan Yaqub

Aya deyək, bulud altda yatmasın,
Günə deyək, dağ dalında batmasın.
Vaxta deyək, hələ gəlib çatmasın
Son danışıq, son zarafat, son məzə.

Sönməz

Gəlib gəzdim dağda, daşda, düzdə mən,
İçim coşdu, kövrəlmədim üzdə mən.
Əgər dünən sönməz idim sözdə mən,
Mənada da döndüm bu gün Sönməzə.

Zəlimxan Yaqub

Həsrətə bax! O bir daşdı, o divar,
Vüsala bax! Odu dövlət, odu var.
Ürəyimin nə ki sönməz odu var,
Sovqat olsun Zəlimxandan Sönməzə!

Sönməz

Mərd oğullar doğru yolu seçsələr,
Haqq yolunda şirin candan keçsələr,
Azadlığın şərbətini içsələr,
Süfrəmizdə Ay mey olar, Gün məzə!

AŞIQ KAMANDARLA

Zəlimxan Yaqub

Dünya bülbüllü bir bağdır,
Sən ötməsən, mən ötmərəm.
Bu sehrdən, bu sevdadan
Sən getməsən, mən getmərəm.

Aşıq Kamandar

Bu dünya bir güllü bağdır,
Sən açmasan, mən açmaram.
Öz ətrini bənövşə tək
Sən saçmasan, mən saçmaram.

Zəlimxan Yaqub

Biz bir eşqin butasıyıq,
Gülü gülə tutasıyıq,
Bir çəməndə bitəsiyik,
Sən bitməsən, mən bitmərəm.

Aşıq Kamandar

Hikmət var, hikmət doludur,
Ulusdan, eldən uludur.
Mənim yolum haqq yoludur,
Sən çaşmasan, mən çaşmaram.

Zəlimxan Yaqub

Qalalar var, yapan mənəm,
Qayalar var, çapan mənəm,
Səni məndə tapan mənəm,
Sən itməsən, mən itmərəm.

Aşıq Kamandar

Halallıq axsa qanından,
Od törəyər od canından.
Həqiqətin meydanından
Sən qaçmasan, mən qaçmaram.



Zəlimxan Yaqub

Tər çiçək ollam yazına,
Gümüş tel ollam sazına,
Zəlimxanam, murazına
Sən yetməsən, mən yetmərəm.

Aşıq Kamandar

Kamandaram həvəsində,
Yurd-yuvam var nəfəsində.
Ariflərin məclisində
Sən coşmasan, mən coşmaram!

AZAFLI MİKAYILLA

Zəlimxan Yaqub

Ay bulaq başına tələsən gözəl,
Könlümü əlimdən al, yavaş yeri.
Tərpənər yerindən dağların mehi,
Sürüşər başından şal, yavaş yeri.

Mikayıl Azaflı

Gözəllər eşqiylə çağlayan şair,
Qocanı da yada sal, yavaş yeri.
Qəlbini qəlbimə bağlayan şair,
Ay qarasaç, qaldı, çal, yavaş yeri.

Zəlimxan Yaqub

Ötməsin, aylara, illərə yalvar,
Gəzməyə nə qədər çiçəkli yal var.
Laləyə bənzəmə, bağrında xal var,
Düşməsin qəlbimə xal, yavaş yeri.

Mikayıl Azaflı

Hər uca dağlardan səfa gözləmə,
Hər həkim əlindən şəfa gözləmə.
Hər keçən gözəldən vəfa gözləmə,
Sayma hər şirini bal, yavaş yeri.

Zəlimxan Yaqub

Üstümə od tökər, yel əsdirərsən,
Bağrımın başında tel əsdirərsən.
Dəyməmiş meyvəni tələsdirərsən,
Düşər budağından kal, yavaş yeri.

Mikayıl Azaflı

Aşiq var ki, bülbül, gül aşiqidir,
Aşiq var ki, sərvət, pul aşiqidir.
Azaflı Mikayıl el aşiqidir,
Gəl onun həmdəmi ol, yavaş yeri.

Zəlimxan Yaqub

Sənin şöhrətini aləmə yayır,
Zəlimxan özünü bəxtəvər sayır.
Qara saçlarından üçcə tel ayır,
Sevdiyim havanı çal, yavaş yeri!

## AŞIQ ŞƏMŞİRLƏ

Zəlimxan Yaqub

Sənsiz Kəlbəcərdə darıxmazmı saz?
Yatma, bu yastıqdan dur, Dədə Şəmşir.
Ellər məclisinə bərəkət kimi
Yağsın sifətindən nur, Dədə Şəmşir.



Aşıq Şəmşir

Dürlü sözün nələr saldı yadıma,
Düşdü xəyalıma hara, Zəlimxan?
Ata övladına həsrət qaldımı,
Sənətkarı axtar, ara, Zəlimxan.

Zəlimxan Yaqub

Gümüşü tellərə çəkilsin sığal,
Ruhuma naxışdı hər vurulan xal.
Ömrün doxsanında "Qəhrəmanı" çal,
Desinlər eşqinə kür, Dədə Şəmşir.

Aşıq Şəmşir

Sığallı tellərə nə lazım sığal,
Fəhmimdə fərasət, başımda kamal.
Bir "Cəngi" oxuyum, eşit, ləzzət al,
Səs yayılsın o dağlara, Zəlimxan.

Zəlimxan Yaqub

Gör nələr yetirib bu ana torpaq,
Atalar kök olub, oğullar budaq.
Qurbanın əliylə çatılan ocaq
Gur olsun, daha da gur, Dədə Şəmşir.

Aşıq Şəmşir

Buraq təzənəni, tel budu, dostum,
Duraq xidmətində, el budu, dostum.
Qurbanın qoyduğu yol budu, dostum,
Rəhmət böyük sənətkara, Zəlimxan.

Gəl qoyma cavabsız sual-sorğunu,
Etmə Zəlimxanı illər yorğunu.
Ceyran bulağından soruş Vurğunu,
Məclisi təzədən qur, Dədə Şəmşir.

Aşıq Şəmşir

Fikir ver Şəmşirin çəkdiyi aha,
Söz ağır getməsin qadir Allaha.
Vurğunu çağırmaq çətindir daha,
Qövr edir sinəmdə yara, Zəlimxan.



# Poemalar

## SAZ

Sənsiz mənim bir məclisim,
Bir şənliyim olarmı heç?
Adın ilə öyünməsə,
Ahənginlə döyünməsə,
Sinəm sözlə dolarmı heç?
Qorqud dədəm, ozan babam!

Qılınc belə kəsəmməzdi
Sənin ağlın, huşun kimi
El-obanın üstə sarı
Dərd gələndə qoşun kimi,
Bir qopuzun sehri ilə
Qəm səfini pozan babam!

Hər gün sənə oğlun kimi
Dürlü-dürlü salam dedim.
Yaratdığın hikmətlərə
Öz səngərim, qalam dedim
Arzuladım, bahar sevgim,
Heç görməsin xəzan, dedim!

Körpələrin bəbəyinə
Gözlərindən od verənim!
Torpağımın nemətinə
Qopuzuyla dad verənim!
Hünərinə əhsən deyib,
İgidlərə ad verənim!
Hər bir sözün mənasını
Yüz mətləbə yozan babam!

Qoy mən sənə ellər üçün
Qəlbin susmaz simi deyim.
Keçmişimin özül daşı,
Bünövrəsi, himi deyim.

Sənə bənzər bir ağsaqqal
Səndən özgə kimi deyim?
Tariximi tarixlərə
Naxışlarla yazan babam!
Qorqud atam, ozan babam!

Sinələrdə dinən sazı
Daşdan-daşa çalan oldu,
Saz yaşadı!
Yeriş etdi qəm ləşkəri,
Könül şəhri talan oldu,
Saz yaşadı!
Şəriətə ziddir deyib,
Ocaqlara qaladılar.
Havacatı haram bilib,
Yası yasa caladılar,
Saz yaşadı!
Ellər özü heç elədi
El bağına daş atanı!
Məclislərdə başa çəkdi
Telli sazı yaşadanı!
Qarşı yatan qarlı dağlar
Elimizə yaylaq oldu.
Qurumadı "axar sular"
Könlümüzdə bulaq oldu.

Ad qoydular bayramında
Boy boyladın, soy soyladın.
Hünərsizə ad vermədin,
Nə söylədin, yey söylədin.
Burla xatın, Banuçiçək
Bizə doğma ana, bacı,
Ayağını öpən yerlər
Başımızın qızıl tacı!
Yüz illəri saldı yola,
Azalmadı xalqın yenə
Ağsaqqala ehtiyacı!



Ay dədə Qorqudum mənim!
Arxalandım adındakı
Söz kökünə, qor kökünə,
Heç sönmədi odum mənim!
Həsrətləri qovuşduran,
Xataları sovuşduran,
Bir başbilən, bir ər kimi,
Söz yurduna sərkər kimi,
Hər istəyin, hər diləyin
Atasısan, anasısan.
Ömrüm boyu ürəyimdə
Məşəl olub yanasısan.
Sənin səsin haqq səsidir,
Ulularin nəfəsidir!
Alqışlasan, sevincimdən
Göylər qədər ucalaram!
Qarğışlasan, kədərimdən
Bircə gündə qocalaram!
Nə yaxşı ki, baba olan
Qarğamaz öz nəvəsinə.
Nəsil-nəsil qanad verər
İnsanların həvəsinə.
Yüksəklərə uçmaq üçün,
Mən də qanad istəyirəm.
Zirvələri qucmaq üçün,
Səndən inad istəyirəm.
Gözlərimi açan gündən
Saza, sözə meylim olub.
Mən hacavat Məcnunuyam,
Saz əbədi Leylim olub!
Telli sazın dastanını
Özün başla, ustad Dədə!
Söz sehrinə varmaq üçün,
Ver ruhuma qanad, Dədə!

Mənən ötrü ürəkləri
Ocaq kimi dilim-dilim
Yananlar da az olmadı!
Varlığımı görə-görə
Qorxub, məni nahaq yerə
Dananlar da az olmadı!
Ancaq yenə mən mən oldum,
Ötdüm ellər bağçasında,
Min nəğməli Vətən oldum.
Pərdələrə yatdı əlim,
Barmaqlarım dəydi simə.
Havaların gücü ilə
Min yol açdım hər tilsimə!
Sərt yoxuşlar bükəmmədi dizlərimi,
Doğru sözdən, haqq deməkdən çəkinmədim,
Həqiqəti şax deməkdən çəkinmədim.
Eldən dedim,
Elə dedim,
El dinlədi sözlərimi.
Yağan yağış, qopan tufan,
Siləmmədi bu ocaqdan,
Bu torpaqdan izlərimi!
Bu dünyaya gəlməyim var,
Getməyim yox!
Bu dünyada ölməyim var,
İtməyim yox!
Arzum budur, nəsil-nəsil
Xoşbəxt görüm insanları,
Duru görüm,
Təmiz görüm vicdanları.
Bundan özgə
Bir məqsədi güdməyim yox!





Zirvələri qucmaq üçün
Məndən inad dilər oldun,
Bağışlaram, oğul, oğul!
Yüksəklərə uçmaq üçün
Məndən qanad dilər oldun,
Bağışlaram, oğul, oğul!
Təki məndən
İnsanları ucaltmağa,
Yaxşı adla qocaltmağa
Cürət istə – bağışlaram!
Ürəkləri oxumağa,
Fikirlərdən dəstə tutub,
Söz çələngi toxumağa
Qüdrət istə – bağışlaram!
Giriş yükün ağırına,
Xeyir çıxsın uğuruna!
Sədaqətlə könül bağla
Öz yoluna, cığırına.
Ünümünlə sözüm dinlə,
Sənə sazla öyüd verim.
Açılmayan qapılara
Açar verim, kilid verim.
Səfərə çıx, yollar açım,
Sularımdan keçid verim.
Bu yollarda şahbaz atlı
Ərənlərim arxan olsun.
Elə danış, – söz dilində
Qılınc olsun, qalxan olsun.
Qoy ilhamın coşsun, daşsın,
Qucaqlasın göyü, yeri.
Söhbətində, əməlində
Dədələrdən qalma geri.
Yaddaşında ulularin
Xatirəsin ulu saxla!

Sabahlara çatmaq üçün
Ürəyində zaman-zaman
Bir həqiqət yolu saxla!
Düzdür, bu yol ağır yoldur,
Ancaq heç vaxt bezikdirməz.
Doğru yolla addımlasan,
Varlığında iman yaşar,
Ürəyinə şübhə girməz!
El sənəti bir çeşmədır,
Bulandırma bu çeşməni,
Ömrün boyu duru saxla!
Bu sənətdən sənə çatan
Ruhu qoru, nuru saxla!
Ana yurdun, ana dilin
Olsun gücün, qibləgahın.
Poz zamanın sədlərini,
Həm dünənin övladı ol,
Həm bu günün, həm sabahın!
Nəfəsinlə, ürəyinlə
Çək ellərin nazını sən.
İnam üstə köklə, oğul,
Sevirsənsə, yolda qoymaz
Saz adlanan bu yar səni!
Sazla hamı əzizləyər,
Sazla hamı duyar səni!

## DANIŞ, TELLİ SAZIM

Əl açıb göylərə çox yalvarmışam,
Qoy bu gün saz olsun Allahım mənim.
İstəyim Tanrının xətrinə dəysə,
Gərək bağışlana günahım mənim.

Təklənib, qəmlənib yalqız olanda,
Çiçəyim saralıb, gülüm solanda,



Qəlbim kövrələndə, gözüm dolanda
Sazdı ümid yerim, pənahım mənim.

Doğrudan danışan, düzdən oxuyan,
Ən nurlu kəlmədən, sözdən oxuyan,
Odur ürəyimi gözdən oxuyan,
Gizli nöqtələrdən agahım mənim.

Xalları könlümə nur kimi yağar,
Günəşi gümüşü tellərdən doğar.
Təbrizi, Hələbi bir yerə yığar
Ölkələr dolaşan səyyahım mənim.

Dərd, ələm yerisə üstümə bir gün,
Dönsə dumanıma, tüstümə bir gün,
Əzrayıl dayansa qəsdimə bir gün,
"Cəngi"di, "Misri"di silahım mənim.

Təzədən oyanar dünya səsimdə,
Alışar zilimdə, yanar pəsimdə,
Bir hava dinləsəm son nəfəsimdə,
Qalmaz nə amanım, nə ahım mənim.

İsinər ürəyim, qaynayar qanım,
Ən ağır yaranı unudar canım.
Güldürər ömrümü axşamım, danım,
Sazla açılanda sabahım mənim.

Xallar, güllər bir-birindən öyməli,
Telli sazı çalana bax, çalana!
Hayandayam, heç özüm də bilmirəm,
Məni məndən alana bax, alana!

Söz yaşayır zillər, bəmlər içində,
Ötən çağlar, gələn dəmlər içində.
Bir aləmdi bu aləmlər içində,
Bizdən sonra qalana bax, qalana.

Dağ yeriyir, qaya uçur, daş düşür,
Əsli yanır, gözdən qəlbə yaş düşür,
Ərzurumun gədiyinə qış düşür,
Lələ köçür, talana bax, talana!

Görən fikri harda, nədə qalıbdı,
Hansı xaldan canda zədə qalıbdı?
Dirsək dizdə, əl çənədə qalıbdı,
Xəyallara dalana bax, dalana!

Nəsillərin yanğısı var adında,
Hamıdan çox Kərəm qalıb yadında.
Mən desəm ki, külə döndüm odunda,
Deməsinlər, yalana bax, yalana!

Danış, telli sazım! Avazın, səsin
Ucalsın bəmlərdən zillərə doğru!
Dədə Qurbani tək coşsun həvəsin,
Axanda tökülsün sellərə doğru.

Susma, söhbətinə ehtıyacım var,
Ucal dalğa-dalğa, en pərdə-pərdə.
Xatırlat nə qədər ağrım, acım var,
Danış kəlmə-kəlmə, din pərdə-pərdə.

İncə mətləblərdən de sərin-sərin,
Çıx yenə köynəkdən, boyunu görüm.
Öpüm gül üzünü ağ sədəflərin,
Elin bayramını, toyunu görüm.

Əslimdən, soyumdan başla söhbəti,
Xalqın özülündən, kökündən danış.
Qəlbində el gücü, el məhəbbəti,
Dünəni varaqla, bu gündən danış!

Xallar xırdalanır hey narın-narın,
Tellərin üzdədir, sirrin dərində.



Qaynar bulaqların, axar çayların
Şirin ahəngi var kəlmələrində.

Baş pərdə Qorqudun yadigarıdı,
Çəkilib hörmətlə başa bağlanıb.
Ustad ürəyinin bəhrə-barıdı,
Varlığı torpağa, daşa bağlanıb.

Səsin könüllərdə aləm yaratdı,
Söylə, kim istəməz, sevməz kim səni?
Xalqımın şöhrəti göylərə çatdı
Bağrına basanda Xətaim səni.

"Bir gün elə almaz oldum mən sazım,
Ərşə dirək-dirək çıxar avazım.
Dörd şey vardır bir qarındaşa lazım:
Bir elm, bir kəlam, bir nəfəs, bir saz!"

Səni belə duydu şeyx oğlu şahım,
Şah pərdə eşqindən bir nişan oldu.
O dedi: – Sazdadır gücüm, pənahım,
Sözü dodaqlarda zərnişan oldu.

Koroğlu nərəsi tellərə düşdü,
"Cəngi" havalandı, "Misri" yarandı!
Bir igid sorağı dillərə düşdü,
Qalası, sarayı, qəsri yarandı!

Dəli Koroğluya çətində, darda,
Qoşa qanad oldu qılınc ilə saz.
Sınaq meydanında, vuruşmalarda
Qoluna güc gəldi, dilinə avaz!

Sən Xəstə Qasımın qaynar ilhamı,
Dədə Qurbanimin can sirdaşısan.
Abbasın tükənməz eşqi, ilhamı,
Gülgəzin gözündə kədər yaşısan.

Rəsul qərib oldu, qürbətə düşdü,
Sazda "Qürbəti"yə döndü naləsi.
Yeddi il hicrana dözdü, döyüşdü,
Axdı ürəyindən qəm şəlaləsi.

Gah zəhər quyusu, gah zəhərli cam,
Hərdən zülm içində inlədi aşıq.
İtəndə insana hörmət, ehtiram,
Yenə də tək səni dinlədi aşıq.

Sən yetmiş havanın, üç kökün üstə
Axar çaylar kimi çağlayan oldun.
Yaşadıb varlığı nəğmədə, səsdə,
İnsanı həyata bağlayan oldun.

Şirin nənələrin nağıl dünyası,
Ulu babaların dastan ömrüsən.
Hikmət xəzinəsi, ağıl dünyası,
İnsan kamalısan, insan ömrüsən.

Hansı havalarda açır çiçəklər,
Sevməyən nə bilsin, sevən kəs bilər.
Laylanın sehrini duyan ürəklər
Səni ana qədər müqəddəs bilər.

Beşikdən, layladan başlanır həyat,
Ürək quzu kimi mələr laylasız.
Mənzilə çatmamış qırılar qanad,
Zərif düşüncələr ölər laylasız.

Anaların dilində
Sığallandı, darandı.
Ən müqəddəs, ən təmiz
Diləklərdən yarandı.
Səhər mehinə döndü,
Çəmən şehinə döndü,
Keçdi südə, sümüyə,
Axdı qana laylalar!



Oldu halal mayası
İlhamın da, təbin də,
Dəyişmədi heç zaman,
Qaldı köhnə dəbində.
Ellərin avazında,
Dillərin avazında
Süzüldü könüllərə,
Yatdı cana laylalar!

Laylasız bu dünyada
Nə ölkə var, nə diyar.
Biz ondan öyrənmişik
Nədi torpaq, nədi yar.
Eşqimiz, adımızdır,
Qoşa qanadımızdır.
Bizə ata laylalar!
Bizə ana laylalar!

Sən bu gün laylasan mənim sinəmdə,
Sabah övladımı dilləndirərsən.
Gün keçər, sevgidə, söhbətdə, dəmdə
Nəvəmin ömrünü güllələndirərsən.

Danış, telli sazım, sənindi meydan,
Olannan, keçənnən bir söhbət eylə!
Lələ, gədiklərdə yalqız qalmısan,
Kərəmi xatırla, kəramət eylə!

Aşıqlar ürəklə çalsın "Cəngi"ni,
Seçim döyüşlərdə söz pələngini.
Görsün Şah İsmayıl Ərəbzəngini,
Yenə qiyam qaldır, qiyamət eylə!

Tez yetir özünü ustad elinə,
Şirin bir salam ver qıza, gəlinə,
Hər zaman baş endir Göyçə gölünə,
Ələsgər yurdunu ziyarət eylə!

Ürəkdən ürəyə nur tək axmısan,
Sinələr coşdurub, əllər sıxmısan,
Köhnə sınaqlardan qalib çıxmısan,
Təzə sınaqlara cəsarət eylə!

Nəğmən naxış olsun dodağa, dilə,
Çəkinmə, səsini sən qaldır zilə.
Bütün arzuları yetir mənzilə,
Bütün xəyalları həqiqət eylə!

## BAŞ "DİVANİ"

Aşığın ilk sözü, ilk söhbətidir,
Qıfıllı qapıya açar "Divani".
Deyirlər, məclisdə el hikmətidir,
Bağlayar "Müxəmməs", açar "Divani".

Tanıdar, sevdirər mənə ilkimi,
İtirməz dadını yetirdiyi bar.
Dəyişməz bəşəri qanunlar kimi,
Sazın da müqəddəs qanunları var.

Duyanı qaldırar uca göylərə,
Duyğusuz kəslərə divan eyləyər.
Şerin çəmənindən gül dərə-dərə
Qocanı döndərib cavan eyləyər.

Yumşaldar boğazın səs tellərini,
Bəmdən zilə doğru oxunar gedər.
Danışar dünyanın dərdi-sərini,
İncə mətləblərə toxunar gedər.

"Divani" havası dənizə bənzər,
Onda qabarmalar, çəkilmələr var.
Könül, axtarmasan tapılarmı zər?
Baş vur bu dəryaya, gör bir nələr var!



Söz ki, gəlib düşdü baş "Divani"dən,
Qoy dönsün qəlbimiz közə bu yerdə.
Ustadı köməyə çağıraq hərdən,
Qurbani başlasın sözə bu yerdə.

"Fələk, sənnən əyləşməyə bir belə meydan ola,
Açıla haqqın qapısı, ədalət, divan ola.
Mən gəlmişdim mürşidimin dərdinə dəva qılam,
Nə bilim ki, mən gəlincə xak ilə yeksan ola!

Bir gülü ki, dərəmmirsən, dərib xəndan eyləmə,
Bir könlü ki tikəmmirsən, yıxıb viran eyləmə.
Haqq-taladan səda gəldi: – Qurbani, qəm eyləmə,
Yazı yazan belə yazıb, çoxlara nişan ola!"

Belə şeirlərin hər kəlməsində
Xalqın gözlərinin nuru yaşayır.
İstər zilində gəz, istər pəsində,
Bulanmır, çeşmə tək duru yaşayır.

Düşündüm, daşındım, düşdüm axara,
Dedim öz-özümə, görən, nədir bu?
Kim isə çəkilir divana, dara,
Bəlkə, dar ayaqdan nişanədir bu.

"Əzizim nərdivanda,
Ayaq at nərdivanda.
Tülkü şahlıq eyləyir,
Can verir nər divanda".

Bəlkə, bir üsyandı bu, haqsızlığa,
Divani – məhkəmə, divan deməkdi.
Nahaqdan gedəndə güdaza insan,
Ürəkdə başlanan tufan deməkdi.

Cavablar dolaşıq, suallar dərin,
Ömrün baharımı, yoxsa qışımı?
Divana, çarmıxa çəkilənlərin
Aman istəməsi yalvarışımı?!

Həqiqət, köməyə çatdır özünü,
Qurtarım yaxamı bu "bəlkə"lərdən.
Ürəyim ürəklə desin sözünü,
Dalım bu havanın mənasına mən.

"Divani"nin dalğasında
Mənaya bax, hikmətə bax.
Söhbət edır tarixləri
Yola salmış ana torpaq.

Xəyalıma neçə-neçə
Nağıl gəlir, dastan gəlir.
Elə bil ki, keçmişlərdən
Yükü ağır karvan gəlir.
Bu karvanın daşıdığı
Nə qızıldır, nə var-dövlət,
Mayasıdır ağıl, ürək,
Qazancıdır şeir, sənət.
İlahi bir səs yayılır
Telli sazdan bu cahana.
Nəğmələrin sehri ilə
Cansızlar da gəlir cana
Hava deyir: – Telli sazın
İlk övladı, oğlu mənəm.
Öz andına sadiq qalan,
Öz kökünə bağlı mənəm.
Çox oğullar eşqim ilə
Şeir dedi, söz yaratdı.
Verdi mənə ürəyini,
Nəfəsimə nəfəs qatdı.
Çox sinələr isindirdi
Babalardan qalan sazı!
Dünən Qorqud dilləndirib,
Xəstə Qasım güllədirib
Bu gün ellər çalan sazı!
Qoy yaşasın zaman-zaman
Göz işıqda, könül nurda,
Söz üstündə yanan dilim
Bir "Divani" desin burda.



## DESİN

Ey qələmim, elə yaz ki, söhbətinə, sözünə
Sənətkarın sazındakı tel bərəkallah desin!
Xalq ucaldar sənətkarı, xalq üçün yanmaq gərək,
Elə yan ki, atəşinə kül bərəkallah desın!

"Mən şairəm" deyən kəsin ürəyi közdən gərək,
Ağır olsun, inciməsin hər quru sözdən gərək,
Qiymətini el içində salmasın gözdən gərək,
Yeriyəndə arxasınca el bərəkallah desin!

Ay Zəlimxan, dərya olsan, de, damladan azam mən,
Gəl özündən dəm vurma ki, yayam, qışam, yazam mən.
Tel olmamış söyləmə ki, bir sədəfli sazam mən,
Bu gedişə dodaq gülsün, dil bərəkallah desin!

## TƏCNİS

Sazımın havası, şerimin adı,
Çəmənli, çiçəkli, güllü təcnisim.
Dilimin şirəsi, ağzımın dadı,
Darçınlı, mixəkli, hilli təcnisim.

Mehli, qasırğalı, qarlı, yağışlı,
Sığallı, tumarlı, xallı, naxışlı,
Cığırlı, çəhlimli, yollu, yoxuşlu,
Dənizli, bulaqlı, göllü təcnisim.

Təzə-tər nəfəsli, isti yuvalı,
Xəstəyə şəfalı, dərdə davalı,
Nazlı gəlin kimi hallı, havalı,
Dəlisov qız kimi dilli təcnisim.

Səni ləçək-ləçək qoxuyanam mən,
Səni şirin-şirin oxuyanam mən,
Səni ilmə-ilmə toxuyanam mən,
Cığalı, cığasız telli təcnisim.

Dillən, təcnisim, dillən,
Pərdə, danış, sim, dillən.
Görən, birinci dəfə
Səni kim dilləndirib?
Kim olsa da, nə fərqi,
Öz babam nəfəs verib,
Öz elim dilləndirib!
Nə müqəddəs iş görüb,
Nə ölməz əsər yazıb,
Eşqinlə ilk nəğməni
Hansı bəxtəvər yazıb?
İlk cinasın toxumu
Hansı eldə cücərib?
İlk təcnisin bağını
Hansı bağban becərib?
Bır dünyalıq mənadır
Hər sualın cavabı.
Yüz varaqla tükənməz
Xalqın ömür kitabı.
Təcnis nədir, görəsən?
Sual verdim özümə.
Cavabını tapanda, işıq gəldi gözümə!
Təcnis – söz meydanında
Ən sınaqlı imtahan.
Kamil ustad önündə
Varsa hünərın, dayan!
Atmaca yerı deyil,
Keçirəsən işini.
Tapmaca yeri deyil,
Qıcayasan dişini.
Yumruq davası deyil,
Oynadasan şilləni.
Silah davası deyil,
Boşaldasan gülləni.
Bu, cinas yarışıdır,
Bu, söz imtahanıdır!
Hər bir kəsi öz sözü
Öz ilhamı tanıdır!



Gəlirsənsə meydana,
Söz içində sözləri
Kəlmə-kəlmə oxu, gəl!
İlmələri yaxşı vur,
Naxışları toxu, gəl!
Unutma ki, qabaqda
Ələsgər var, Alı var!
Ustadlar dodağında
Hər sözün, hər kəlmənin
Min sehri, möcüzəsi,
Min dürlü əhvalı var!
"Təcnis Alı" deyiblər
Babamızın adına.
Təcnisdən söz düşəndə
Onu gətir yadına.
Təcnis – bircə kəlmənin
Yüz çaları, rəngidir.
Hərfin də, hecanın da
Axarı, ahəngidir!
"Məskən saldım astananda, dərində,
Söz bağını becərin də, dərin də
Gövhər olar dəryalarda, dərındə,
Onu qəvvas çəkər Ay üzə tək-tək".

Fikir verin cınasa,
Az qalır qalxa insan,
İstəkli bala kimi
Sözü bağrına basa!
Ələsgərin ürəyindən
Axıb gələn sözə bax!
Qəvvasın gövhərındə
Atəşə bax, közə bax!
Bərəkətin min olsun,
Belə yurd, belə torpaq,
Özülündə daş olum, sarayında çılçıraq[1]
Əlvan bir çiçəyinə sahilsiz çəmən deyim
Bayatı tək axarlı,
Qoy fürsət belə yerdə
"Dodaqdəyməz"in olsun!

Yay gələndə yaylaqlarda yaylayar,
El yeriş eyləyər dağlara sarı.
Açılar qanadı tərlan xəyalın,
Qartal həsrət eylər dağlara sarı.

Kəklik qaya tacı, yar, yar aşığı,
Can alan çiçəklər yar yaraşığı,
Yaşıldı əzəldən yar-yaraşığı,
Yaraşan deyil kı, dağlara sarı!

Ən ağır həsrətə dağlar dayanar,
Ay aşıq, eşq əhli dağlarda yanar.
Əsli yarasından dağlar da yanar,
Çəni yaylıq elə dağlara sarı!

## "QARAÇI"

Dillən, ay "Qaraçı", aman günüdür,
Qoyma, yaxaladı duman dağları.
Səsinlə silkələ, qaldır yerindən
Fikir dəryasına cuman dağları.

Hanı Aşıq Cünun, gəlmir avazı,
Səslənmir havası, dillənmir sazı.
Köçüb Koroğlusu, gedib Eyvazı,
Salıb bu həsrətə zaman dağları.

Sevinci dünyadan qəmlər silməsin,
Ürəklər bir daha ağrı bilməsin,
İnsanın qəlbinə dağ çəkilməsin,
Yaxşılar görməsin yaman dağları.

Aşıq qardaş, burda zili bəm elə,
Endir sazı, asta-asta dəm elə,
Fikrimizi bır kök üstə cəm elə,
"Qaraçı" çal, "Qaraçı" çal, "Qaraçı"!



Kim çəkəndi o dincəlməz, o yatmaz,
Ağlı olan yatan dərdi oyatmaz,
Dərman olsa, dərd bu qədər boy atmaz,
"Qaraçı" çal, "Qaraçı" çal, "Qaraçı"!

Mən səni dinlədim, nə hikmətdi bu,
Dumanım çoxaldı bu dağlar kimi.
Damdı gözlərimdən damla-damla su
Kəsmədi, süzüldü bulaqlar kimi.

Əllərin çatmadı çörəyə, suya,
Bağbandan uzaqda bir acı oldun.
Yoxsulluq güc gəldi hissə, duyğuya,
Bəlkə, ona görə "Qaraçı" oldun?!

Tellərin qəminə mən verəndə can,
Kül olan ocaqlar yadıma düşür.
Qəm başımdan tutur, dərd ayağımdan,
Qaralan çıraqlar yadıma düşür.

Bır namərd əlində mərd ölümünü,
Qırılan qolları xatırlayıram.
Bir yana çatmayıb harayı, ünü,
Bağlanan yolları xatırlayıram.

Görəsən, bu dərdın varmı əlacı,
Tez düşən vayları xatırlayıram.
Ağlayıb içımdə mən acı-acı,
Körpüsüz çayları xatırlayıram.

"Qaraçı" dillənir yaralı, yaslı,
Dərdi dilə sığmır, dodağa sığmır.
Dinir qara günlü, qara libaslı,
Qəm daşqın çay olur, yatağa sığmır!

Nə qədər böyükmüş xalqın həsrəti,
Torpağın nisgili torpağa sığmır.

Hər xal yada salır bir hekayəti,
Dastana cəm olub, varağa sığmır!

"Qaraçı", mən sənə çox qulaq asdım,
Bürüşdüm, açıldım nəğmələrinlə.
Səni saz qarışıq bağrıma basdım,
İndi də qulaq ver, bir məni dinlə!

Sənin bir adın da "El havası"dır,
Elə də qurbanam, havasına da!
Dilim yer üzündə dillər xasıdır,
Heyranam hər sözün yuvasına da!

Hardasa bir xalqı ağlatmırsa qəm,
Sevincin qədrini bilməz dünyada.
Sənintək havalar bəstələmişəm,
Mənim duyğularım ölməz dünyada.

Kövrəldim, çoxaldı saçlarımda dən,
Düzün çiçəyisən, dağın qarısan.
Yaxşı günlərimdə dil açsan da sən,
Yaman günlərimin yadigarısan!

Olarmı mən səni yada salmasam?
Hələ çox sirrinə varammamışam.
Səni axşam-axşam özüm çalmasam,
Elə bilirəm ki, yaranmamışam.

Zilin də, bəmin də doğmadır mənə,
Ruhumu tellərə verməsəm, ölləm.
O zərif xalları çiçəklər kimi
Hər gün öz əlimlə dərməsəm, ölləm.

Düzlərin çiçəyi, dağların qarı,
Təravət – ellərin havasındadı!
Ömrümün şöhrəti, könlümün varı
Şeriyyət – ellərin havasındadı!



Sevərsən, arxanda dağ kimi durar,
Eşqinlə ən uca saraylar qurar.
Gözündən düşərsən, dağdan uçurar,
Fəlakət – ellərin havasındadı!

Tərəzi sayıblar elin gözünü,
Mərd insan o gözdə çəkib özünü
Boğazdan yuxarı deməz sözünü,
Həqiqət – ellərin havasındadı!

Bir-bir yola salar gəlib-gedəni,
Düz görər, tez görər vaxtı, vədəni.
Ağsaqqal yerinə qoymaz gədəni,
Ləyaqət – ellərin havasındadı!

Şərbəti azalıb, balı tükənməz,
Yaşılı qurtarmaz, alı tükənməz,
Min il bir hava çal, xalı tükənməz,
Bərəkət – ellərin havasındadı!

## "SARITEL"

Dil ver yenə telli saza,
Obam, dillən, elim, çağla!
Göy çəməndə gur bulağım,
Dağ döşündə selim, çağla!

Qoy dillənsin neçə pərdə,
Sevincim dərd olsun dərdə.
Xallar ötsün nəğmələrdə,
Bəmim, səslən, zilim, səslən!

Qaynar səsin bircə hanı?
Tutsun yenə bu cahanı.
Boş keçirmə bircə anı,
Çağla, "Sarıtel"im, çağla!

Sən dil açıb dinən zaman
Qul Abbasım xatırlanır.
İsinəndə sözlər saza
Xəstə Qasım xatırlanır.

"Ay həzərat, ay camaat,
Dağa qar düşdü, qar düşdü.
Özüm qaldım qürbət eldə,
Yada yar düşdü, yar düşdü".

Haraya bax, həsrətə bax,
Şair dərdi dilə düşüb.
Yandıran saz, yanan bizık,
Bizimki də belə düşüb.
Bir ürəkdə ocaq yanıb,
Odu "Sarıtel"ə düşüb!

Qulaq asdım bir xəstəyə,
Duyğuları döndü neyə.
Baxdı yerə, baxdı göyə,
Çırağam, keçirəm, – dedi.

Heç nə əritməz donumu,
Zaman yetirdi sonumu.
Öz əlimlə öz donumu
Son dəfə biçirəm, – dedi.

Qırılmasın vaxtsız budaq,
Qoy yaşasın oğul, uşaq.
Aç qoynunu, ana torpaq!
Karvanam, köçürəm, – dedi.

Dedim: nədir bu ıntizar?!
Kövrəlmə, qoca, kövrəlmə!
Hamı üçün bu səfər var,
Kövrəlmə, qoca, kövrəlmə!



Kədər sənə xoşmu gəlir?
Gülən gözdən yaşmı gəlir?
Belə vaxtsız qışmı gəlir?
Kövrəlmə, qoca, kövrəlmə!

Gül bitirrəm izlərində,
Taqət ollam dızlərində,
Nura dönnəm gözlərində,
Kövrəlmə, qoca, kövrəlmə!

Gözü sağa, sola baxdı,
Məclis andı, el istədi.
Pəncərədən yola baxdı,
Könlü "Sarıtel" istədi.

Buludla yeriyib, şimşəklə çaxıb,
Sellərlə baş-başa çağlamışdı o!
Qarlı zirvələrə doyunca baxıb,
Ömrünü dağlara bağlamışdı o!

Buydu son xahişi, son iltıması,
Məni saz üstündə qaldırın, – dedi.
Əllər gözlərimə torpaq tökməmiş
"Sarıtel" havası çaldırın, – dedi.

Gəldi oğul kimı, getdi ər kimi,
Bir gün başa vurdu öz həyatını.
Qaldı ürəyimdə nəğmələr kımi,
Bir yadigar qoydu bu bayatını!

"Viran qal, dağlar, səni,
Qar basar, bağlar səni.
Dostumun yaylağısan,
Dost gələr ağlar səni".

Danışan, oynayan, oxuyan, gülən,
Bir kəs də beləcə itdi dünyadan.

Ağlaya-ağlaya dünyaya gələn
"Sarıtel" üstündə getdi dünyadan!

Gedən getdi bu dünyadan,
Qalan çaldı "Sarıtel"i.
Dağ da, daş da səsə düşdü,
Çalan çaldı "Sarıtel"i.

Hardan alıb axarını,
Görən, bu səs nəydi belə.
Dilləndirdi könülləri,
Sarı simə dəydi belə.

Bır-birindən şirin gəlir,
Bu havanın xalına bax!
Bir havada təbiətin
Dəymişinə, kalına bax!

Gah sərt olur, cəngə düşür,
Gah yumşaq ahəngə düşür,
Gör, bir neçə rəngə düşür,
Yaşılına, alına bax!

Anla sazın hikmətini,
Vaxtında ver qiymətini,
Duyansansa ləzzətini,
Gəl, beçənin balına bax!

Hayıf ki, tez gedir bada,
Ömür azdı bu dünyada,
Gör, nələri salır yada,
Duyan qəlbin halına bax!

Güneş doğur, qar əriyir,
Yaylaqlara yol açılır.
İşıq verir gözlərimə
Yeni dünya, yeni aləm,
"Sarıtel"i dinləyirəm!



Səslər yatıb ürəyimə,
Eşqim qalxıb, oyaq olub.
Heç bilmirəm harda qalıb?
Unudulub kağız, qələm,
"Sarıtel"i dinləyirəm!

Baş götürüb qışım gedib,
Hər tərəfim çiçək olub.
Dünya elə durulaşıb,
İnsan dönüb mələk olub.

Həsrət keçib, dərd azalıb,
Ürəyimdə qalan ancaq
Şirin arzu, dilək olub.
Təbiətin özü kimi
Duyğularla dolub sinəm,
"Sarıtel"i dinləyirəm!

Sanıram ki, kəsib daha
Yer üzünün davaları.
Xoş arzular isindirir
Beşikləri, yuvaları.
Zaman özü dilləndirir
Belə şirin havaları.
Şadlıq, bayram olan yerdə
Qərar tutub qalarmı qəm,
"Sarıtel"i dinləyirəm!
"Sarıtel"i dinləyirəm!

## "MANSIRI"

Sənin bu xalların nə deyir bizə,
Nakam aşiqlərin sorağısanmı?
Könüllər göynədən, yara sızladan,
Qəmli bir dastanın varağısanmı?

Gördünmü boşalıb dolan günləri,
Gül kimi açılıb, solan günləri?
Məcnunun Leylisiz qalan günləri,
Bəxtinin qaralan çırağısanmı?

Gözündə yaşsanmı ötən anların?
Bəlkə, şahidisən axan qanların?
Dünyadan ayrılıb gedən canların
Dünyaya sığmayan fərağısanmı?

Yenə nə göynədib, nə yandırırsan,
Qəlbində min ahın, amanınmı var?
Şəhərmi talanıb, ölkəmi batıb,
Üzünə gülməyən zamanınmı var?

Çöllərdə qızaran qanmı, laləmi?
Hönkürən gözəlmi, gur şəlaləmi?
Od olub yandırır ahın aləmi
Dağlardan kəsilməz dumanınmı var?

Tellı saz, tellərdə o qüdrət hanı,
Yolundan qaytara gedən karvanı?
Torpağın qoynunda çürüyən canı
Yoxsa, sağaltmağa gümanınmı var?!

Bir həftə toy vuruldu,
Mansır adlı atanın
Əkiz oğullarına.
Könül verdi, söz açdı
Hər igid öz yarına.
Qızlar gəldi bir evə
İki təmiz ocaqdan.
Şirin-şəkər nəğmələr
Heç düşmədi dodaqdan.
Xalılarla bəzəndi
Yeri, yurdu bəylərin.



Cavanların üstünə,
Mahnıyla, çal-çağırla
Nuru yağdı göylərin.
Çatdı vüsal gecəsi,
Zamanın xoş anları,
Həyatın bal gecəsi.
Gözəllər eşqə gəldi,
Oğullar cəsarətə.
Son qoyuldu nəhayət,
Ayrılığa, həsrətə.
Axşamdan alışan şam
Hey yandıqca yanırdı.
Şöləsi gəlinlərin
Eşqitək odlanırdı!
Bu sevincin üstünə
Ay da işıq çilədi.
Vüsala çatanlara
Xoş gələcək dilədi.
Dönəndə xoş arzular
Nəğməli bulaqlara,
Gülüş, sevinc içində
Həyat bəylik edəndə,
Ölüm girdi qapıdan!
Varam bu gecə mən də!
Soyuq, buz nəfəsiylə
O söndürdü şamları.
Heç elədi bir anda
Arzuları, kamları.
Gəlinlər baxa-baxa
Oxudu fərmanını.
Aldı göz qırpımında
İgidlərin canını.
Silkələdi dünyanı
İki gözəl fəryadı,
İki qadın naləsi.
Çırpıldı, daşa dəydi
Məhəbbət piyaləsi

Əllər yoldu saçları,
Əllər döydü dizləri.
Yarandı göz yaşının
Çayları, dənizləri.
Qara xəbər yeyindi,
Qara xəbər qanadlı.
Gəldi eşidən kimi,
Gəldi piyada, atlı.
Dağ yandı, daş alışdı
Atanın harayından.
Göylər də külə döndü
Dilinin ah-vayından!
İki divar söküldü
Ömrünün sarayından.
Gördü zillət içində
Bəxtini, həyatını,
Söylədi yana-yana
Ağını, bayatını.

Əsil soylular, haray!
Çinar boylular, haray!
Qırdı ata belini
Təzə toylular, haray!

Qəm gəldi, oda saldı,
Coşdu, səs-səda saldı,
Məni Allah unutdu,
Əzrayıl yada saldı.

İki tabut götürdü
Ellər o gün çiyninə.
Ağbirçəkli analar
Qara geydi əyninə.

Bu dərdlə ömr eləmək
Ömürdümü, gündümü!
Belə dərdin içində
Yaşamaq mümkündümü?



Gözü kömürə dönən
Odu, ateşi neylər?
Qoşa çırağı sönən,
Ayı, Güneşi neylər?

İki oğul itirən
Sağlam bir canı neylər?
Versələr bal içində
Bütöv cahanı neylər?

Dəm verdi dədə Mansır
Gözlərinin yaşına.
Ağladı, layla çaldı,
Hava gəldi başına.
Susmadı, yorulmadı,
Oxuduqca, oxudu.
Sığışmadı oğulsuz
Yurduna, yuvasına.
Döndü bir gün nalesi
"Mansırı" havasına!
Gördü dərdin, həsrətin
Acısını, dadını.
Ellər "Mansırı" qoydu
Bu havanın adını!
Aşıq bağrına basdı
Burda telli sazını.
Qəm üstündə kökledı
Səsini, avazını.
Qoşa məzar başında
Çağladıqca çağladı.
Bu qanlı hava üstə
Ellər belə ağladı!

Səhər yönüm düşdü qəbiristanlığa
Yatanlar "bizdən də yaz, qayıt", – dedi.
Heçliyə varmağa xoşunmu gəlir,
Sən bu viranəyə az qayıt, – dedi.

Nə dərman gərəkdir, orda nə həkim,
Yaralar sağaldım, çiçəklər əkim,
İstədim o yerə bir də baş çəkim,
Tellər haray çəkdi, saz qayıt, – dedi.

Hər məzar daşına baxdım, qəm yedim,
Zəlimxan, bu yeri necə tərk edim?
Qış məni çağırdı ölümə gedim,
Açdı qucağını yaz, qayıt, – dedi.

## "RUHANİ"

"Ruhani" çalındı, haylı, haraylı,
Yellər zirvələrdə tufan eylədi.
Dünya silkələndi bulaqlı, çaylı,
Sellər dərələrdə tüğyan eylədi.

Mın yol havalandı, yatdı dalğalar,
Nahaqdan günaha batdı dalğalar,
Tahiri qoynundan atdı dalğalar,
Zöhrə taleyinə üsyan eylədi.

Daşıdı dünyanın dərdi-sərini,
Axtardı dayazı, gəzdi dərini,
Alı Xan yaralı tapdı Pərini,
Eşqiylə dərdinə dərman eylədi.

Sevincin, şadlığın atdı daşını,
Bir dünya gözəli çatdı qaşını,
Vəzir oğulların kəsdi başını,
Dünyanı nəfsinə qurban eylədi.

Yudu ayağını çəmənin şehi,
Daradı saçını dağların mehi,
Zərnigar çağırdı Aşıq Valehi,
Eşqini dillərdə dastan eylədi.



Dinlədim ruhunu mən dönə-dönə,
Bircə an həvəsim qoymadı sönə.
"Ruhani" çalındı, özünü yenə
Havalar içində sultan eylədi!

"Ruhani" çalındı, güllü, naxışlı,
Kitab ürəkləri saz varaqladı.
Bir tərlan cilvəli, maral baxışlı
Bu səsi eşidib ayaq saxladı.

Yolundan əylənən kimin yarıdı,
Tellərin sehrindən halıdı, bəlkə.
Nakam bir aşiqin yadigarıdı,
Havanın ən qəmli xalıdı bəlkə.

"Ruhani" vaxtında duydu Pərini,
Qaldırdı səsini zılə, danışdı.
Anladı gözəlin diləklərini,
O belə söylədi, belə danışdı:

– Qüdrətdən çəkilib qaşlar, ay gözəl!
Baxsan muma dönər daşlar, ay gözəl!
Nə yaman dağılıb saçlar, ay gözəl!
Varlığın yellərə sinəmi gərmiş?
Qızlar bulağından su içən zaman
İnsan da bu qədər gözəlləşərmiş!

Odlu baxışların heç olmaz sərin,
Eşqin ürəyimdə dərindən dərin.
Könlümün sazını çalan əllərin
De, hansı bağçanın barını dərmiş?
Bəyaz biləklərdə qar ağlığı var,
İnsan da bu qədər gözəlləşərmiş!

Sirrimi vermişəm, sirdaş olmuşam,
Məcnuna, Kərəmə qardaş olmuşam,
Gözəllik önündə çaş-baş olmuşam,
Bilmirəm mələkmiş, yoxsa bəşərmiş.

Günəşdən nur alıb, Aydan yaraşıq,
İnsan da bu qədər gözəlləşərmiş!

Söhbətə yad olar, sevgiyə uzaq,
Gözəlsiz, nəğməsiz çağlamaz bulaq.
Heyranı olduğum bu ana torpaq
Ayağın altına xalımı sərmiş?
Çiçəkdən ətirli, güldən sığallı
İnsan da bu qədər gözəlləşərmiş!

Saz dözə bilərmiş verməsən qiymət,
Yerişin nəğmədi, duruşun hikmət.
Səni yaradanda ana təbiət,
Qələmi qızılmış, naxışı zərmiş.
Düşəndə dünyanın xoş saatına,
İnsan da bu qədər gözəlləşərmiş!

Var ol, telli sazım, vəsf elə məni,
Yarısevinc mənəm, yarıqəm mənəm.
Dinlə ürəyimdən gəlib keçəni,
Qəribin sirdaşı Şahsənəm mənəm!

Neynim, səndən ayrı ürək durmadı,
Hayını eşitdim, səsinə gəldim.
Məni qar üşüdüb, buz dondurmadı,
Oduna isinə-isinə gəldim!

Səsinlə könlümün duruldu halı,
Nə yaxşı dünyanın sazı varıymış!
Dədələr yerində çəkib misalı,
Hər qışın çiçəkli yazı varıymış!

"Ruhani" çalındı, çeşmə çağladı,
Bir ceyran bulağın başına gəldi.
Gözü sevincindən doldu, ağladı,
Bu hal təbiətin xoşuna gəldi.



Qayanı söylədən, daşı dindirən,
O zilə qurbanam, pəsə qurbanam.
Ceyranı çeşmənin üstə endirən,
Gözünü dolduran səsə heyranam!

Quşlar göy üzündə qanad saxladı,
Lələk də "Ruhani" çalınır, – dedi
Göylər torpaq öpdü, yer qucaqladı,
Lələk də "Ruhani" çalınır, – dedi.

Hər yana nur yağdı, işıq süzüldü,
Biryolluq həsrətdən əllər üzüldü
Beşik də sevindi, körpə də güldü,
Bəlkə də, "Ruhani" çalınır, – dedi

Axdı yavaş-yavaş, çay tələsmədi,
Sellər dağ uçurub yollar kəsmədi,
Yer qulaq kəsildi, yellər əsmədi,
Külək də "Ruhani" çalınır, – dedi

Qəlbimdə ən çılğın ötən sim mənim,
Ruhumun qidası, "Ruhani"m mənim!
Çiçəkli baharım, şaxtalı qışım,
Babamdan balama çatan alqışım,
Ümman da, zərrə də səndə yaşayır!
Zirvə də, dərə də səndə yaşayır!
Quzu ləpələrin, şir dalğaların,
Yandıran Günəşin, donduran qarın,
Açan tumurcuğun, solan çiçəyin,
Hər qara tellinin, hər ağbirçəyin,
Mənalı dünyası səndə yaşayır!
Eşqinin aynası səndə yaşayır!
Sənin ahəngini dinləyəndə mən,
Sözü də, təbi də rəvan oluram!
Bütün qocalardan aqil, başbilən,
Bütün cavanlardan cavan oluram!

Qoymuram yaxına can ağrısını,
Əzabı ürəkdən qovan oluram!
Dərd məni arabir üstələyəndə
Dərdin ürəyini ovan oluram!
Nəğməsız, laylasız, səssiz, sədasız
Qaxaca dönürəm, yavan oluram!
Sənsiz harayıma yetər kim mənim?
Yetiş köməyimə "Ruhani"m mənim!!!

## "YANIQ KƏRƏMİ"

Ovçu ova, qartal dağa bağlanıb
Çölüm, düzüm, dağım, dərəm olannan.
El tanıyıb Koroğlunu, Fərhadı
Ulu sevgim, dəli nərəm olannan.

Telli sazdı aşıqların yarağı,
Yar sinəsi yar şerinin varağı.
Ellər gəzdı bırcə eşqın sorağı
Məryəm Əsli, Mahmud Kərəm olannan.

Dağ yeliylə dağlar başı darandı,
Yardan ötrü Beyrək içdi yar andı.
Bu torpağın "Kərəmi"si yarandı,
Ruhda üsyan, könüldə qəm olannan.

Sən elə yandın kı, "Yanıq Kərəmi",
Ellər yana-yana üstünə gəldi.
Deşəndə qəlbini dünyanın qəmi,
Görən dumanına, tüstünə gəldi.

Məni ki, bir belə oda salmısan,
Gərək sərinliyi qardan alım mən.
Gör, kimi nə yerdə yada salmısan,
Bu zaman Əslini hardan alım mən?!

Ağrısı hələ də çıxmır canımdan,
Hardasa bir zaman kül olub Kərəm.



Qızaranda üfüq, söküləndə dan
Alışan odlarda dil olub Kərəm.

Azdımı gözündən gur sellər axan,
Davadan doydumu davalı dünya?!
Təkcə sən deyilsən yandırıb yaxan,
Min hava yaradıb havalı dünya!

Namərdə qaydadı kəsər basdığın,
Hər kəs hesab çəksın öz arasında.
Yenə o yanğılı tellərə sığın,
Qalanda od ilə köz arasında.

Bağlayıb düyməni, itirib izi,
Nə ocaq yandırıb, nə şiş dağlayıb.
Biz sənə neylədik dağladın bizi,
Səni ki insafsız keşiş dağlayıb?

Təkcə Keşiş deyil məni yandıran,
Çoxu yara vurub, çoxu yandırıb.
Dağıdıb torpağı, bölüb Vətənı,
Qılıncı, nizəsi, oxu yandırıb!

Aləmə sığmadı ahı, naləsi,
Dünyanı götürdü harayı, ünü.
Ağrıdan goynədı tellərin səsi,
Babəkin qolları kəsilən günü.

Yandım bir ocağın, bır közün üstə,
Diriykən məzara qoydular məni.
"Ənəlhəq" deyilən bir sözün üstə
Tutub dabanımdan soydular məni.

Hayıf ki, ayılan çox gec ayıldı,
Özümə od vuran öz sağ əlimdi.
Bir dərdim yaralı Şah İsmayıldı,
Bir dərdim insafsız Sultan Səlimdi!

Qəmimdir qəlbimə yaralar vuran,
Min Kərəm olsa da, bu dərd bəsidir.
Ölümdür həyatı yıxan, uçuran,
Hər günüm bir Gəncə zəlzələsidir!

Mən belə yanmazdım, inan Allaha,
Məni cəllad döyür, yağı yandırır.
Böhtanın kəməndi, hiylənin toru
Çəkir ürəyimə dağı, yandırır!

Dağılır, seyrəlir istəkli kəslər,
Batır birdəfəlik doğmaca səslər,
Gəzir bəd əməllər, bayquş nəfəslər,
Solu qarsılayır, sağı yandırır!

Yanğılar kəsilmir əlimdən mənim,
Od qopur bəmimdən, zilimdən mənim?
Ağrı azalarmı telimdən mənim?
Zəhər sızıldadır, ağı yandırır!

Bütün zamanların dərdi, qəmiyəm,
Sızlayan yarayam, axan qanam mən,
Oğlunu itirmiş Qəmərbanıyam,
Üzülən nəfəsəm, çıxan canam mən!

Oğul yox, şad günü gətirən ola,
Gəlin yox, nazımı götürən ola,
Nəvə yox, əmrimi bitirən ola,
Yurdu sona çatmış bir insanam mən!

Ömrümün çoxunu ağlar görmüşəm,
Zülümlü, zillətli çağlar görmüşəm,
Həsrətdən sinəmdə dağlar görmüşəm,
Qapısı bağlanmış Ziyadxanam mən!

Canımda gördüyün bu zoqqultular
Kədərdən pay olub, ələmdən keçib.



Tale çiçək üstə ələyəndə qar,
Yanğı ciyərimə Kərəmdən keçib.

Hər ölüm görəndə ürəyim yanır,
Qarışır səsimə ahlar, amanlar.
Kərəm torpağından güllər boylanır,
Keşiş məzarından qaratıkanlar!

Axı nəyə görə budağın üstə,
Həm qızılgül olur, həm tıkan olur?
Bu niyə belədir, dodağın üstə,
Sevinc gül açanda, qəm tikan olur?

Dünyanın dərdini çəkdi duyanlar,
Belində zamanın şələsi yandı!
Əridi, töküldü, əsdi, titrədi,
Yananda, həmişə beləsi yandı!

Ağardı ahından dağların başı,
Dindirdi naləsi torpağı, daşı,
Axdı sinəsinə Əslinin yaşı,
Qara gözlərinin giləsi yandı!

Meydanı gen oldu həsrətin, qəmın,
Ömrü gödək oldu söhbətin, dəmin,
Özü yad ellərdə yanan Kərəmin
Ərzurum dağında Lələsi yandı!

Sən niyə yanırdın, ay yazıq Lələ,
Xanın bir əmrimi yandırdı səni?
Daşındı çiynində qəm şələ-şələ,
Kərəmin ömrümü yandırdı səni?

Kimlər şirinləşib qəlbinə girdi,
Kimlər ürəyinə dəydi həyatda?
Kərəm Əsli deyib çöllər gəzirdi,
Bəs sənin istəyin nəydi həyatda?!

Belədəm, belədəm etibarına,
Nə xanlıq istədin, nə də şahlığı.
Biryolluq göz yumub dünya varına,
Sən bayraq eylədin xeyirxahlığı!

Bu qoca dünyaya sən ömrün boyu,
Yaxşılıq toxumu səpmək istədin.
Dedin: – Qoy çalınsın Əslinin toyu,
Kərəmin alnından öpmək istədin.

Başına qar yağdı, dolu töküldü,
İnamın yolunda dönməz ər oldun.
Dözümün önündə dizim büküldü,
Sən mənim gözümdə peyğəmbər oldun!

Gəzir yer üzünü belədən-belə,
Güvənir rütbəyə, güvənir çınə.
Çoxu yüz yaşına çatsa da, Lələ,
Ucalmır Lələlık mərtəbəsinə!

## ALDI LƏLƏ NƏ DEDİ:

Yandı, ocağına tapındı ellər,
Yanmasa, minlərdən biriymiş Kərəm!
Belə alışmasa kim nə bilərdi,
Ölüymüş, yoxsa kı, diriymiş Kərəm!

Bu qədər yar deyib, gəzmək olarmı?
Bu qədər ürəyi üzmək olarmı?
Bu qədər hicrana dözmək olarmı?
Dözümün pələngi, şiriymiş Kərəm!

Kül oldu, sovruldu göyə düymələr,
Od vurdu kamana, neyə düymələr,
Niyə açılmadı, niyə düymələr?
Eşqin möcüzəsi, sirriymiş Kərəm!



Saznan havalandı, telnən oynadı,
Bəmnən ağırlaşdı, zilnən oynadı,
Zəlimxan ocaqnan, külnən oynadı,
Sevginin Məkkəsi, piriymiş Kərəm!

## "BORÇALI DÜBEYTİ"

Aşıq Əmrah, çal "Borçalı Dübeyti"ni,
Qarış-qarış Borçalını gəzim gəlim.
Öpüm yenə misraların hər beytını,
Tərlan kimi dağ başından süzüm gəlim!

Ürəklə çal, işıq gəlsın gözlərimə,
Nur ələnsin yollarıma, izlərimə.
Yüz pəhləvan gücü yığım dızlərimə,
Hünərimlə düşmən bağrı əzim gəlim!

Söhbət eylə quzeylərdə yatan qarla,
Həvəsə gəl güneyləri tutan barla,
Bülbül kimi səs-səsə ver Kamandarla,
Sevgınızi sətirlərə düzüm gəlim!

Bəlkə, elə bu havayla qanad açıb
Faxralıda pərvazlanan şair Nəbi.
İllər boyu məclislərə şölə saçıb
Xoş söhbətı, ötgün sözü, daşqın təbi.

Hər xal təzə qüvvət verir, ilham verir,
Xəyal yenə qanadlanıb dağlar aşır.
Elə bil ki, aran dağa salam verır,
Qarayazı Başkeçidlə qucaqlaşır!

Aşıq çaldı, nələr duydum mən bu səsdə,
Şöhrət oldu çəmən gülə, dağ bulağa.
Aman tapıb, özüm gedə bilməsəm də,
Fikrim getdi, sözüm getdi Ağbulağa!

Kəpənəkçi – isti yuvam, doğma kəndim,
Doğmaları, əzizləri xatırladım.
Saflığını çox eşitdim, çox öyrəndim,
Doğmaları, əzizləri xatırladım.

Burulğanlı, boğanaqlı, qasırğalı
Hava dindi, nələr, nələr yada düşdü.
Aman Allah, dərd naxışlı, qəm sırğalı
Şirin, acı xatirələr yada düşdü.

Bu eldə bir aşıq olub,
Ellərə yaraşıq olub.
Dərdi-qəmi dalğa-dalğa,
Sevinci bir qaşıq olub.

Eşitmişdim babalardan,
Ləqəbi Sərdəroğluymuş.
Məclislərdə meydan açan,
Ərdən olan ər oğluymuş.

Danışanda nəfəsi gül,
Oxuyanda həvəsi gül,
Hər sözünün töhfəsi gül,
Təbiətin tər oğluymuş.

Bircə qaşıq sevinci də
Ocağından küskün oldu
Qapısını açdı bəla,
Öz yurdundan sürgün oldu.

Təzənə yox, göz yaşıyla,
Aşıq çaldı "Dübeyti"ni.
Bu nə gündü, nə dövrandı?
Dəhşət aldı "Dübeyti"ni.

Dağ-dağ oldu yenə sinə,
Mətləbini elə dedi.



Sazı sıxdı sinəsinə,
Son sözünü belə dedi:

– Daha gəlin halallaşaq,
Yana-yana mən gedirəm.
Heç bilmirəm hansı yola,
Hansı yana mən gedirəm.

Sənə çatmaz səsim, ünüm,
Salamat qal, elim, günüm,
Güman yoxdu geri dönüm,
Düşdüm qana, mən gedirəm.

Zəhər içdim yad əlindən,
Çıxmadım fəryad əlindən,
Kəmfürsətin dad əlindən,
Gəldim cana, mən gedirəm.

Öldümü, qaldımı, bilən olmadı,
Həsrət buza döndü, ərimez oldu.
Gedən çox olsa da, gələn olmadı,
Sevincin karvanı yerimez oldu.

İndi duydum mən, bu hava –
Bir az dərddi, bir az dəva.
Dağılan yurd, uçan yuva
Qərib, qürbət havasıdır.

Səsi qalxar zilə doğru,
Pərdə-pərdə yanar bağrı.
Bir az nisgil, bir az ağrı,
Bir az həsrət havasıdır.

Bənd uçuran selləri var,
Alov tökən dilləri var,
Borçalı tək elləri var,
Elin şöhrət havasıdır!!!

## "DİLQƏMİ"

Hansı dağdı zirvəsini qar alan?
Hansı düzdü çiçəkləri saralan?
Kımdi gedib özgəsinə yar olan?
Könüllərın sitəmini bir də çal!
Aşıq dostum, "Dilqəmi"ni bir də çal!

Gözlər dolub, kirpiklərə nəm düşüb,
Ortalığa həsrət çöküb, qəm düşüb,
Yaxşı yerdə əlimizə çəm düşüb,
Yəhya bəyin aləmini bir də çal!
Aşıq dostum, "Dilqəmi"ni bir də çal!

Yaz kövrələr, payız ağlar, qış mələr,
Bu möhnətə dağ inildər, daş mələr,
Gözsüz qaldı qaynar gözlü çeşmələr,
Nakam eşqin ələmini bir də çal!
Aşıq dostum, "Dilqəmi"ni bir də çal!

Bundan artıq haray olmaz, ün olmaz,
Bundan ağır ömür olmaz, gün olmaz,
İnsafsızda insaf olmaz, din olmaz,
El dərdini, el qəmını bir də çal!
Aşıq dostum, "Dilqəmi"ni bir də çal!

Gözü nurdan, dizi heydən ayrılıb,
Bəxti yatıb, günü göydən ayrılıb.
Dostu xanım Yəhya bəydən ayrılıb,
Fələk kəsib kərəmini, bir də çal!
Aşıq dostum, "Dilqəmi"ni bir də çal!

Bəy olasan, bəyliyından enəsən,
Atıb gedə can dediyin yar səni.
El içində başın ola aşağı,
Xəcil edə qeyrət səni, ar səni.



Fikir, xəyal dumanlara bürünə,
Gün yerinə qara bulud görünə,
Tərlan eşqin ilan kımi sürünə,
Addımbaşı döyə boran, qar səni.

Gözdə hər gün nisgil ola, yaş ola,
Qəmın arta, hər qəmlərdən baş ola,
Yarın dönə, duyğuları daş ola,
Eşitməyə qulaqları kar səni.

Könül ağlar belə gündə,
Yanaqları nəm olarsan.
Allah kimı hökm eləsən,
Yenə bəxti kəm olarsan.

Dada çatıb, haya qalmaz,
Könül yıxan könül almaz,
Sən deyəni sazın çalmaz,
Zildən enib, bəm olarsan.

Qanadlanıb yayılmazsan,
Toyda, yasda sayılmazsan,
Bıhuş qalıb ayılmazsan,
Dərd əlındən dəm olarsan.

Seçəmməzsən yeri göydən,
Canın, ruhun düşər heydən,
Əsər qalmaz Yəhya bəydən,
Dəyişib Dilqəm olarsan.

"Dilqəmi" dillənir Dilqəm eşqinə
Təzənə sustalır, tel yazıqlaşır.
Saz elə kövrəlir, elə yalvarır,
Barmaq fağırlaşır, əl yazıqlaşır.

Yanır taleyinə bir bəxti kəmin,
Xallar xal-xal olur, güllər ağlayır.

Əlləri yaraya çatmır məlhəmin,
Pərdələr dil deyir, tellər ağlayır.

Saz necə bağlanıb insan qəminə,
Eşidən sarsılır, çalan zarıyır.
Yəhya bəy çəkilib öz aleminə,
Təklikdən qocalır, eşqi qarıyır.

Düşünür, daşınır bu taleyi kəm,
Arzusu, istəyi heç gəlmir yola.
"Bu dünyada yarı görməyən Dilqəm,
Barı o dünyada görüşərmola!"

Gözünə tor düşür, saçlarına dən,
Hər sözdən ürəyi qanlar ağlayır.
Torpağın üstündə sevinc görməyən
Torpağın altına ümid bağlayır.

Sevgisi olsa da şirindən şirin,
Vədəsiz ayrılıq qəlbini sıxıb.
Sevilən şairin, sevən şairin
Evini həmişə gözəllər yıxıb.

"Dilqəmi" dillənir yaslı, yaralı,
Dalaram xalların şəriyyətinə.
Sevən sevdiyindən düşür aralı,
Salır arzuları bərkə, çətinə.

"Dilqəmi" dillənir, dinləyən mənəm,
Çalanın yadına, görən, kim gəlir?
Bu həsrət içində inləyən mənəm,
Yadıma dumanlı tarixim gəlir.

Könül, gah ağlayır, gah ağladırsan,
Axır göz yaşından Araza damla.
Həsrətin əlində üzülsə də can,
Danışmaq istəmir Araz adamla.



İnləyən kamandı, ağlayan sazdı,
"Çöpü də ikiyə bölmərəm daha,
Mənə görüş verin, azadlıq azdı,
– Görüşsəm, ayrılmaq bilmərəm daha!"*

"Dilqəmi" susarmı belə bir anda,
Dilqəm talelidir bu xalqın özü.
Qardaş o yandadır, bacı bu yanda,
Çoxdandır yollara dikilib gözü!

Qızdırıb arzumun yurd-yuvasını,
Görüşə, şadlığa can atmalıyam.
Çoxdan yaradıblar qəm havasını,
Mən sevinc havası yaratmalıyam!

## "MİSRİ"

Sən ocaqdan, alovdan,
Qığılcımdan yarandın.
İldırımdan od aldın,
Qığılcımdan yarandın.
Şax yerişim, düz sözüm,
Sərt baxışım sən oldun!
Yadellilər başına
Od yağışım sən oldun!
Döndün Misri qılınca,
Dağ doğradın, daş kəsdin.
Kəsərin olmasaydı,
Kəsərdilər başımı!
Daş üstə qoymazdılar
Mənim bircə daşımı!
Bu xalqı boğmaq üçün
Nə qədər hücum oldu.

* Bu misralar Söhrab Tahirindir

Hər gün sənin kəsərin
Qeyrətim, gücüm oldu.
Vaxt vardı ki, həyatda
Torpaq döşəyim idi,
Qaya balıncım mənim.
Ağır günlər gələndə,
Bu torpağın eşqini
Qoruyan da sən oldun,
Yaşadan da sən oldun,
Misri qılıncım mənim!
Vaxt olub ki, yurdumuz
Qıyma-qıyma doğranıb,
Xıncım-xıncım olubdu.
Yenə məni yaşadan
Öz səsim, öz nəfəsim,
Öz qılıncım olubdu.
Bir yerdə öldürüblər,
Min yerdə dirilmişəm.
Ox kimi atılmışam,
Yay kimi gərilmişəm.
Ümıd yerim olmusan
Misri qılıncım mənim!
Sən bəxtimə düşəli,
Yoxdu qaxıncım mənim!
Misri qılıncım mənim!
"Misri" mənim nəyimdir?
Özümə sığmazlığım,
Döyüşüm, mübarizəm!
Bu dünyaya alovlu
Bır həvəslə gəlməyim,
Ər kimi yaşamağım,
Kişi kimi ölməyim!
"Misri" çalınmasaydı
Beşiyimin yanında,
Tamam itib batardım
"Çaldıran" savaşında!
"Misri" mənim nəyimdir?
Kamalda bitkinliyim.



Sınaqlarda dözümüm
Döyüşdə yetkinliyim!
Mən onu çala-çala
Qeyrətimi qorudum,
Mərdliyimi yaşatdım!
İnadımı qorudum,
Sərtliyimi yaşatdım!
Qovğa düşdü çox zaman
Xalqımın qismətinə.
Qoymadım ləkə düşə
Anamın qeyrətinə
Bacımın ismətinə!
Deyirlər hərdən mənə
"Bu qədər ki vuruldun
Bu xallara, güllərə,
Bu saz sənə nə verdi?"
Başım uca, üzüm ağ,
Bu saz mənim xalqıma
Qələbə bağışladı,
Sevinc, təntənə verdi!
"Misri" çalınmasaydı
Körpələrin yanında,
Qeyrət gur çaylar kimi
Çağlamazdı qanında!
Koroğlu deyildimi,
41-45 arası
Gərayım, Həzim mənim?!
Mehdi – Şahdağım oldu,
Qafur Kəpəzim mənım!
Cəbhədən gəlmirdimi
Aşıq Əsədin səsi?
"Misri"nin bir xalıydı
Hər igidin zərbəsi!
Bakıdan başlanan yol
Çatdı, Berlinə çatdı!
"Misri"mizin nəfəsi
Bir milləti, xalqı yox,
Bu dünyanı yaşatdı!

Qüvvət olub gözümdə, işıq olub gözümdə,
Ürəyimdə ölməyən əsəri var "Misri"nin!
Zülmətlərin içində şəfəqləri solmayan,
Günəşi tutulmayan səhəri var "Misri"nin!

Qoca dünya nə qədər igid görüb, ər görüb,
Gözlərimiz həyatda xeyir görüb, şər görüb,
Döyüş meydanlarında gücümü bəşər görüb,
Mənə toxunan olsa, xətəri var "Misri"nin!

Harda qovğa başlanar, harda çalhaçal düşər,
Qorxaq aşar yəhərdən, qulaq batar, lal düşər.
Birliyimdən düşmənin ürəyinə xal düşər,
Aynalısı, Nəbisi, Həcəri var "Misri"nin!

Hücumdadır hər zaman, nə dincələr, nə yatar,
Vaxtında dillənməsə, inam sönər, ad batar.
Ən uzaq mənzillərə səsi birinci çatar,
Havalar yarışında nəməri var "Misri"nin.

Tuş gəlsə də qəmlərə, çılğın oldu, şən oldu,
Şan-şöhrəti ən uca zirvələrə tən oldu.
Qazandığı qələbə, Tanrısı Vətən oldu,
Xalqın hər istəyindən, xəbəri var "Misri"nin!

Dağılmaz torpağımın nə bəndi, nə bərəsi,
Hansı havanı çalsam, bir qoşundu hərəsi.
Adıyla qoşalaşdı Koroğlunun nərəsi,
Misri qılıncım kimi kəsəri var "Misri"nin!!!

## MÜXƏMMƏS

Bu gün ellər bayramıdı,
Cümlə aşıqlar oxusun.
Qorxmasın, çəkinməsin,
Nə qüdrəti var, oxusun.



Nəğməsini, avazını,
Çəksin, eldə car oxusun.
Çiçəklənsin sənət bağı,
Bağban gülsün, bar oxusun.
Can versin, ölməz eləsin,
Gündə bir dastanı sazım!

Salam olsun el ruhunu
Bir saz kimi çalanlara.
Salam olsun bu dünyada
Dünya qədər qalanlara.
Salam olsun Yunus İmrə
Hikmətiylə dolanlara.
Diz çökürəm dəryaların
Son qatına dalanlara.
Dönə-dönə xatırlasın
Qaracaoğlanı sazım!

El içində gör nə qədər,
Xəstə Qasım "xəstə"si var.
Qul Abbasa qulam – deyən
Pərvanələr dəstəsi var.
Yaylaqların yaddaşında
Aşıq Alı bəstəsi var.
Hər aşığın öz havası,
Laylası, şikəstəsi var.
Qurbanidi, Ələsgərdi
Məclislərin canı, sazım!

Bu sənətin şöhrətidir
Dədə Şəmşir ləyaqəti.
Hər ürəkdə sözü qaldı,
Hər sinədə min sərvəti.
Nəvələrə qanad verdi
Babaların əmanəti.
Zaman-zaman ellər gəzər
Vurğun – Şəmşir həqiqəti.
Ağsaqqallar dünyasına
Çağırar insanı sazım!

Sehirlənsin Aşıq Əmrah,
Axşamları dan eləsin.
Hər keçiddə, döndərmədə
Təzə bir nişan eləsin.
Hər havanın hikmətini
Bir şirin dastan eləsin.
Öz müqəddəs sənətini
Xalqa şərəf, şan eləsin.
Ər kişilər sinəsində
Dolansın dünyanı sazım!

Saraclı Hüseynin sözü
Kəlməbaşı dönsün bala.
Gah güldürsün, gah ağlatsın,
Məclis düşsün haldan-hala.
Yada gəlsin əslim, zatım,
Dalsın könül xoş xəyala.
Ozan olsun, dədələşsin
Telli sazı çala-çala.
Könüllərdən ayrılmasın,
Eləsin dövranı sazım!

Aşıq Kamandar oxusa,
Bülbüllər kəsər səsini.
"Göydə gedən beş durnalar"
Dayandırar dəstəsini.
Eşqi ayağa qaldırar
Aylar, illər xəstəsini.
Könlü dustaq olan varsa,
Parçalayar qəfəsini.
Gül açılsın xallarında,
Görməsin xəzanı sazım!

Azaflı girsə meydana,
Baxışından nur tökülər.
Gözlərindən od, qığılcım,
Dodağından dürr tökülər.



Sinəsindən məclislərə
Araz axar, Kür tökülər.
Coşub daşar söz bulağı,
Sısqa gəlməz, gur tökülər.
İstəsən, göydən endirər
Alıcı tərlanı sazım!
Alov dili, od nəfəsi,
Desin min bir hekayəni.
Coşdursun Aşıq İmranı
Koroğluya məhəbbəti.
Özü versin ustad kimi
Nəğmələrə təravəti.
Qopsun yenə başımızda
Havaların qiyaməti.
Mənəm deməyə haqqı var,
Qoy alsın meydanı sazım!
Möcüzədir Ədalətin
Hər naxışı, hər ilməsi.
Möcüzədir duyğuların
Tez-tez ölüb-dirilməsi.
Tamaşadır gur saçların
Pərdə üstə sərilməsi.
Qəzəblənmiş çaya bənzər
Kök simlərin gərilməsi.
Aşıq yenə gəlsin cuşa,
Başlasın tufanı sazım!

Aşıq Əkbər havalanır,
Dərman olur dərdə səsi.
Elə qalxır zilə doğru,
Çatdırammır pərdə səsi.
Ölməzliklə qucaqlaşır
Cəh-cəhinə qurban olum,
Tanrı verir mərdə səsi.
Danış, bir də heyran elə
Min dəfə heyranı, sazım!
Keçmişini xatırlasın,
Sabahını ansın yenə.

İncə-incə mətləbləri
Kəlmə-kəlmə qansın yenə.
Düşsün Kərəm atəşinə,
Yan desələr, yansın yenə.
Hər nəfəsdən bir od alsın,
Qoy ömrü uzansın yenə.
Özünə sirdaş eləsin
Şair Zəlimxanı sazım!

## SON SÖZ

Sənsiz mənim bir məclisim,
bir şənliyim olarmı heç?
Adın ilə öyünməsə,
sinəm belə dolarmı heç?
Qorqud dədəm, Ozan babam!
İlk sözümü sənə dedim,
son sözüm də sənə bağlı,
Keçmişim də, sabahım da,
mən özüm də sənə bağlı.
Bağlılıqda bağ sözü var,
solmaz onun çiçəkləri,
Yaşadırsan zaman-zaman
ən müqəddəs dilekləri!
Səndən sonra min il keçdi,
sən yaşarsan!
Taleyimə bir yaraşıq,
tariximə bir vüqarsan!
Vüqarını ana sazın
tellərinə bağışladın.
Nəfəsini candan əziz
ellərinə bağışladın.
Duysun dedin bu sənəti
oğlum mənim, qızım mənim.
Bu gərdişin axarında,
qoy susmasın sazım mənim.
Saz susanda, onda gərək,
zərif xallı tellər susa!



Tel susanda, onda gərək,
nəğmə deyən dillər susa!
Dil susanda, onda gərək
şeir canlı ellər susa!
Yox-yox! Sazın tellərində
nə susmaq var, nə lallıq var!
Hər pərdənin ahəngində
bir ölümsüz halallıq var!!!

Axıt çaylarını simlərin üstə,
Yağdır sevincini qəmlərin üstə,
Dəm gətir bu şirin dəmlərin üstə,
Duyğusuz ürəkdə nə bahar, nə yaz,
Yaxşı ki, sən varsan, ay sədəfli saz!

Qalxıb şəhər könlüm, meyli kəndədi,
Xəyalım yaylaqda, göy çəməndədi,
Özüm Göyçədə yox, Göyçə məndədi,
Hər yanı gəzməyə ömür də çatmaz,
Yaxşı ki, sən varsan, ay sədəfli saz!

Əfsanə saymasın ötən həsrəti,
Tapmaq çətin olur itən həsrəti,
Qərib könüldəki Vətən həsrəti,
Yazılsa, kitaba, dəftərə sığmaz,
Yaxşı ki, sən varsan, ay sədəfli saz!

Səni Koroğlutək ər Nigar bilər,
Qədir-qiymətini hər nigar bilər,
Valeh nə deməkdi, Zərnigar bilər,
Odunu görəndə çəkilir ayaz,
Yaxşı ki, sən varsan, ay sədəfli saz!

Axıb dərələrdə sellənə bilməz,
Süzülüb, durulub, lillənə bilməz,
Bir kəlmə söz deyib dillənə bilməz,
Quruyar yanında ilhamı dayaz,
Yaxşı ki, sən varsan, ay sədəfli saz!

# SİZİ QINAMIRAM

*Bu əsəri mənə Xocalı dərdi, Şuşa əzabı, Laçın ağrıları yazdırıb*

Sizi qınamıram, ay xocalılar,
Sizin başınızda şimşək oynadı,
Sizin başınızda dumanlar oldu.
Millətin dağ boyda fəlakətinə
Gözünün ucuyla dönüb baxmayan,
Nazlanıb, gözünü yumanlar oldu!

Mən qurban görmüşdüm qoçdan, quzudan,
Mən qurban görmüşdüm, qoyun qurbanı.
Bir belə milləti, bir belə xalqı
Gör, kimlər elədi oyun qurbanı.
Ay Laçın! Yaralı canına qurban,
Ay Şuşa! Ağlama boyun qurbanı!

Namussuz olanın nə vecinədir,
Harda namus gedir, harda ar gedir.
Hələ tapammırıq oyunçuları,
Ortada şıdırğı bir qumar gedir.

Laçın qayıtmasa Laçınlığına,
Şuşa qayıtmasa Şuşalığına,
Min dəfə şübhəm var, tərəddüdüm var
Bugünkü bəylərin bəy olmağına!
Bu gün paşaların paşalığına!

Vaxtında yumasaq günahımızı,
Goru çatlayacaq babalarımın,
Sultan bəy Laçından baş qaldıracaq!
Pənah xan Şuşanın qalası boyda
Bizim başımıza yağdırmaq üçün
Qaya uçuracaq, daş qaldıracaq!
Yerin ağırlığı, göyün ləngəri,
Sıxıb xıncım-xıncım əzəcək bizi.



Çox əllər tutacaq çox yaxalardan,
Ruhlar addım-addım gəzəcək bizi!
Ruhlar deməyəcək günah kimdədi,
Həkimdə, şairdə, ya hakimdədi
Ruhlar deyəcək ki, düşünəcək ki,
Dünyanın düz vaxtı bu yer üzündə
Xocalı adlanan qırğın olubsa,
Cavanlar yollarda pələsəng olub,
Qocalar çöllərdə yorğun olubsa,
Tək bircə nəfərin bu xalq içində
İsməti, namusu ləkələnibsə,
Bir Vətən övladı, bir Vətən qızı
Ağrılar əlində yeddi qat olub,
Düşmən sevincindən yekələnibsə,
Məğrur bir dədəni kimsəsiz görüb
Bir gədə üstünə kəkələnibsə,
Belə bir Vətənin vətəndaşları
Yersizdi üstündə yaraq gəzdirə!
Artıqdı başında papaq gəzdirə!
Belə bir torpağın adamlarına
Yüz dəfə, min dəfə haqlıdı düşmən
İt kimi yal tökə, yalaq gəzdirə!

Allah! Görünməmiş möcüzə göstər,
Qaldır bir anlığa Xanı məzardan.
Diriynən ölünü üz-üzə göstər,
Qurtarsın yatanın canı məzardan.
İxtiyar vaxtında, qoca yaşında,
Qəlyan damağında, papaq başında,
Qoy görsün Şuşası nə günə düşüb!
Ellər tamaşası nə günə düşüb!
"Qırmızı koftalı, yaşıl tumanlı,
Şuşanın dağları başı dumanlı",
Bu ulu mahnını mənim Xan babam
Oxumaq istəsə, oxuya bilməz!
Ancaq qan qoxuyar onun nəfəsi,
Yəqin ki, gül-çiçək qoxuya bilməz!
Oxumaz, qavalı daşlara çırpar!

Oxumaz, başını daşlara çırpar!
Səni and verirəm qadır Allaha,
Oxuma, ay Qədir, oxuma daha!
Cabbardan ayıbdı, Xandan ayıbdı.
Natəvan ağlayıb, göz yaşı tökür,
Şəhəri dağılıb, ondan ayıbdı!
Tanrı soraqlasa, Allah çağırsa,
Səni oxumağa, məni yazmağa,
Sən qavalı tulla, mən də qələmi,
Gedək özümüzə qəbir qazmağa!
Hələ qan axıdır İsa bulağı,
Hələ Cıdır düzü cıdırsız qalıb.
İllərdi Qarabağ alışıb yanır,
İllərdi burnunun ucu göynəyir,
Qənirsiz Qarabağ Qədirsiz qalıb!

Sizi qınamıram, ay şuşalılar!
Sizin taleyiniz, sizin bəxtiniz
Zamanın səsinə, küyünə düşüb.
Qırx arşın quyunun dibi görünür,
İllərdi işiniz düyünə düşüb.
Açar əlindədi, qıfıl əlində,
Açmaq istəyənlər açmağa qorxur.
Bilir ki, üstünə dağ yeriyəcək,
Qaçmamağa qorxur, qaçmağa qorxur.
Xocalı dağıldı.. İstintaq gedir!
Şuşa bir nağıldı... İstintaq gedir!
İgidlər oylağı Laçın dağları
Qanında boğuldu... İstintaq gedir!
Təyyarə alışdı göyün üzündə
Oğullar kül oldu... İstıntaq gedir!
Hər şey sirrə döndü sandıq içində,
Hər şey müşkül oldu... İstintaq gedir!
Bəsdirin,
bəsdirin,
bəsdirin daha,
Bir az fikirləşin, bəsdirin daha!



Bəsdır, az danışın ağ yalanları,
Yığmayın dağ üstə dağ yalanları!
Gözü yaxşı görür xalqın, millətin,
Torpaq sata-sata dikəlirsiniz!
Qarabağ bir yağlı quyruğa dönüb,
Torpaq yeyə-yeyə kökəlirsiniz!!!
Əgər belə getsə, bizdən ötəri
Göy göyə çəkilər, yerdə yer olmaz
Bir az xatırlayın Allahınızı,
Bir az cilovlayın tamahınızı,
Torpaqla bu qədər sərt alver olmaz!
Elə bu ağılla, elə bu başla
O boyda Təbrizi bada vermişik!
Keçi qiymətinə, su qiymətinə
Dərbəndi götürüb yada vermişik!
Bu gün əllərindən torpaq gedirsə,
Sabah gözlərindən yanan nur gedir
Gözünü yumanda Göyçə mahalı,
Gözünü açanda Zəngəzur gedir!
Ağbaba talanıb, Çəmbərək yanıb,
Qafanımız gedib, Mehrimiz gedib
Nəcəfin belində qaynar samovar,
Sənətimiz gedib, sehrimiz gedib!
Vaqifə məqbərə tıkıb Qarabağ,
Məzarı düşmənin tapdağındadı!
Qan düşüb Nəvvabın naxışlarına,
Gözü xilaskarın sorağındadı!
Birdi qaytarsaq da, qaytarmasaq da,
Şuşa əlimizdən gedibsə əgər,
Şuşa qızlarının düşmən əlində
Bağrını şübhələr didibsə əgər
Tarixin önündə, deməli, qardaş,
Aldıq boynumuza nanəcibliyi,
Aldıq boynumuza nakişiliyi.
Sel kimi yeriyib, su kimi axıb
Nə rus götürəydi, nə çar alaydı.

Allah insaf versin İbrahim xana,
Bu gün ermənilər alan Şuşanı
Kaş elə o zaman Qacar alaydı!
Dını dinimizdən, donu donumdan,
İlki ilkimdəndi, sonu sonumdan.
O, bızə nə qədər yüngül olardı,
Bu, bizə nə qədər ağır olubdu.
İgid məmləkətin, məğrur millətin,
Dönüb birdən-birə fağır olubdu.
Məni bağışlasın Xətayi babam,
Yandıran özgələr, yanan biz olduq.
Vətən deyə-deyə vətənsizləşib,
Qeyrət deyə-deyə qeyrətsiz olduq!
Birı öz-özünə bəy oldu getdi,
Biri öz-özünə xan oldu getdi.
Yekəlik meydana çıxandan bəri
Millətın qazancı qan oldu getdı!
Çəkdi Çələbi xan Şəkiyə sarı,
Çəkdi Mustafa xan Talışa sarı,
Çəkdi Fətəli xan Qubaya sarı.
Hərə bir tərəfə, bir yana baxdı,
Nə günə qoydular bu məmləkəti?
Nə günə saldılar bu torpaqları?!
Evimiz nə zaman yıxılıb, babam,
Cavad xan meydanda təklənən günü!
Qızıl xəzinəsi qızıl Gəncənin
Dəvələr belinə yüklənən günü!
Günahı bizdədi "Türkmənçay"ın da!
Günahı bizdədi "Gülüstan"ın da!
Bir yana baxanda hərənin ağzı
Düşmən nəslimizi boğdu qanında!
Bizim gözümüzün qabağındaca
Yağılar taladı, çapdı Gəncəni.
Biz ki kef çəkmişik ağıl ucundan,
Gönü qalınlara, beyni kütlərə,
Tarix yaxşı verir bu əzabları,
Allah yaxşı verir bu işgəncəni!



Yerin bərəkəti çəkilib göyə,
Coşmur Araz indi, daşmır Kür indi.
Dünən xanlıqlara bölünən Vətən
Xırda bəyliklərə bölünür indi!

Sərvəti talanıb əlindən gedən,
Sonası ovlanıb gölündən gedən,
Kəməri açılıb belindən gedən,
Elə bil heç zaman biz olmamışıq!
Alovlar içində yanan, qovrulan,
Torpağı kül olub, göyə sovrulan,
Yeri tüstülənən, yurdu qıvrılan,
Elə bil heç zaman biz olmamışıq!

Qanadı qırılan, qolu bağlanan,
Arandan yaylağa yolu bağlanan,
Dodağı tikilən, dili bağlanan,
Elə bil heç zaman biz olmamışıq!

Alanlar yenə də almağındadı,
Satanlar yenə də satmağındadı.
Yenə mürgüdədi mürgü döyənlər,
Yatanlar yenə də yatmağındadı!

Bizdə ki bu qədər biganəlik var,
Bizdə ki bu qədər divanəlik var,
İlahi, min şükür məsləhətınə!
Nə yaxşı çəkirık nəfəsimizi,
Nə yaxşı çevrilib buz olmamışıq!!!

Bəlkə, buz olmuşuq, xəbərımiz yox,
Bəlkə də çevrilib buz olmuşuq biz!
Qulağı eşitməz, gözlərı görməz
Daş olub, daşlara qoşulmuşuq biz!
Bəlkə, meyitlərik bu yer üzündə
Yerin üstü deyil, yerin altıyıq.
Vətən nə, millət nə, başa düşməyən
Gərəksiz, quruca boş qaraltıyıq!

Kimin ətəyindən tutmağı bilmir,
Kımin əllərini sıxmağı bilmir.
Məqamı gələndə şilləyə dönüb
Barmağı gözlərə soxmağı bilmir.
Bəlkə də, əlimiz əl deyil hələ?!

Əvvəli hardadı, sonu hardadı,
Biz tapa bilmirik onu, hardadı?
Bəlkə də, qolumuz qol deyil hələ?!
Bəlkə də, elimiz el deyil hələ?!

Ən uca xitabət kürsülərinə
Arzu olunantək yol aça bilmır.
İtir dalğasında farsın, ərəbin,
Dillərın içində dil aça bilmir.
Bəlkə də, dilimiz dil deyil hələ?!

Nə bilim, bəlkə də, adam deyilik,
Biz adam olsaydıq başdan-ayağa,
Vətəndaş olardıq, Vətən olardıq,
Görən göz olardıq, eşidən qulaq,
Yurda baş olardıq, bədən olardıq!
Nə bilim, bəlkə də, millət deyilik,
Biz millət olsaydıq, bəlkə dünyada
Astar bir olardıq, üz bir olardıq!
Əməl bir olardıq, söz bir olardıq!
Hiyləli dillərlə haçalı dillər
Ayıra bilməzdi bir-birimizdən,
Bütün keçidlərdə biz bir olardıq!
Məhlə davasından yuxarı qalxar,
Tayfa davasından yuxarı qalxar,
Dilin dediyini əl yaradardı,
Əlin yapdığını dil yaradardı!
Birləşə bilsəydi xalqın qüdrəti,
Qızıldan olardı damı, dirəyi,
Hamı qızıl tapar, ləl yaradardı!



Biz dövlət olsaydıq, bəlkə dünyada,
İyirmi üç aylıq dövlətın ömrü
Bütün ömürlərdən uzun olardı!
Oynada bilməzdi qılıncını şər,
Meydan həqiqətin, düzün olardı!
Biz dövlət olsaydıq, qamaşardılar,
Bizi parça-parça qoparmazdılar!
Qızılı, gümüşü, pulu, axçanı,
Apara bildikcə aparmazdılar!
Zaman yaxşı bilir, biz biz olanda
Erməni kımiydi, gürcü kimiydi.
Tarıxdən soruşun, mın illər boyu,
Qafqazın qalası, bürcü kımiydi.
Yersizlər çıxanda yer davasına
Qalanı dandılar, bürcü dandılar!
Haqqı itirdilər, borcu dandılar!
Tarixi fürsəti əldən verməsək,
Mənim mən olmağım danılardımı?
Ağır həqiqətlər, acı xəyallar,
Nifrətlə, qəzəblə anılardımı?
Laçında oğullar tanıyıram mən,
Erməni qarışıq Ermənistanı
Tutub qayalardan ata bilərdi!
Şuşada oğullar tanıyıram mən,
Nərəsi, harayı Bakıdan ötüb,
Gedib fələklərə çata bilərdi!
Kaş ki kar olaydım, eşitməyəydim,
İlahi, Laçın da basılardımı?!
Yetimtək dərdini içınə qısıb,
Şuşa bir tərəfə qısılardımı?!
Oğuldan-uşağa güllədən keçib,
Xocalı boğazdan asılardımı?!
Heç nə özbaşına olmur dünyada,
Asan arxasında bir asdıran var!
Yerin sinəsini dağ-dağ eyləyib,
Göyün sinəsinə dağ basdıran var!

Arxayın olmasın qan udduranlar
Qan qusan bilir ki, qan qusduran var!
Bir gün haqqın özü ayağa qalxar,
Nahaqqı əbədi bir susduran var!

Sizi qınamıram, ay laçınlılar!
Mənim qınadığım, gileyləndiyim
Qardaşdan qardaşa biganəlikdır!
"Məndən ötdü" deyib, yana çəkilmək
Ağıllılıq deyil, divanəlikdır!
Sizi qınayıram, ağlı dayazlar,
Sizi qınayıram, çənəsi sazlar!
Sizi qınayıram, başı pozuqlar,
Sızi qınayıram, diri yazıqlar!
Sızi qınayıram, canlı meyitlər,
Sizi qınayıram, barsız söyüdlər!
Sizi qınayıram, qəlbi kirlilər,
Sizi qınayıram, boş fikırlilər!

Kimi eşşək gəzir həriflәməyə,
Kimi yəhərlənmiş hazır at gəzir.
Şuşa əllərindən gedəsi olsa,
Çoxu kəllesinə güllə sıxırdı,
Maşallah! Hələ də salamat gəzir!
Tutaq kı, qaytardıq Şuşanı, qardaş,
Talanan namusu, tökülən gözü,
Tapdanan isməti kim qaytaracaq?!
Anadan, bacıdan, qızdan, gəlindən,
Alınan isməti kim qaytaracaq?!
Doğranan qisməti, donan qıçları,
Kəsilən başları kım qaytaracaq?!
Ana gözlərindən bala köksünə
Tökülən yaşları kim qaytaracaq?!
Qarabağ davası çıxıb ortadan,
Nə torpaq, nə millət davası gedir.
Meydanda şan-şöhrət davası gedir!
Meydanda pul-rüşvət davası gedir!



Kim kimi aldatdı, kim kımi satdı,
Badalaq, xəyanət davası gedır!
Ayaqda çığnandı ayaqdakılar,
Başda ayazımız başın davası.
Hərə bir kitabə eşqinə düşüb,
Vəzifə davası, maşın davası!
Gözüm yox heç kimin vəzifəsində
Kimin halalıdı, qoy, halal olsun!
Kımin haramıdı, qoy, haram olsun!
Gərək el yolunda yanan ürəklər
Doğan Günəş olsun, yanan şam olsun!
Yerı unutmasın göynən gedənlər.
Yerıni, yurdunu unudanları
Tutub, bircə-bircə endirəcəklər!
Yəhərdən üzülüb yıxılanları
Palanın üstünə mindirəcəklər!
Hər kəs öz yerini tanımalıdı,
Xalqın sözü birdi, fikrı qətidi.
Qəbul etsəniz də, etməsəniz də,
Yazdığım zamanın həqiqətidi!
Eşidin səsimi aşağılardan,
Haqlı olduğumçün mənə haqq verin.
Gözucu baxmayın sətırlərımə
Dediyim zamanın həqiqətıdi!
Şairin səsini eşitməyən kəs
Xalqın səsini də eşidə bilməz!!!

*Yanvar, 1993*

## MÜNDƏRİCAT

*Ön söz* .......................................... 4

### ŞEİRLƏR

#### Mələk dodağında dinən nəğmələr

Gəldim .......................................... 13
Ruhum .......................................... 14
Arasındasan .......................................... 15
Ey Allahı sevənlər .......................................... 16
Bir insan sevgisi, bir Allah eşqi .......................................... 17
Şair süfrəsi .......................................... 19
Məndədi .......................................... 20
Haqqa doğru yol gedirəm .......................................... 21
Gəldim .......................................... 22
Köməyə haqqı çağırın .......................................... 23
Quranı səhv oxuma .......................................... 24
Allah evində .......................................... 26
Məkkə yolu .......................................... 27
Məkkədə .......................................... 28
Açıldı üzümüzə Kəbənin qapıları .......................................... 31
İşıqlan Kəbənin nurunda, könlüm .......................................... 32
Həzrəti Əliyə qəsd olan gecə .......................................... 33
Kərbəla torpağı .......................................... 35
Ucalıq .......................................... 38
Ziyarətin qəbul olsun, insan oğlu .......................................... 39
Şairin andı .......................................... 40
Şeri varaqdan oxuma .......................................... 45
Haqqın dili .......................................... 46
Haqqa arxa çevirsən .......................................... 47
Aydın üfüqlərə bax, durul – dedi .......................................... 47
Tanrım .......................................... 48
Qocatəpə camesində .......................................... 49
Mövlana türbəsində .......................................... 49



Unutma .......................................... 51
Gizlidi .......................................... 52
Arzu .......................................... 53
Ruh .......................................... 53
Ruhum .......................................... 53
Şair .......................................... 54
Heyif göy üzünə, heyif göylərə .......................................... 55
Söz .......................................... 56
Gəlib .......................................... 57

#### Təbiət Allahın şah əsəridi

Çıraqqala .......................................... 58
Bax, bu yaşamaqdı, bax, bu həyatdı .......................................... 59
Başkeçid .......................................... 60
Başkeçid yaylağı .......................................... 61
Səhnə .......................................... 62
Yaşıl çəmən .......................................... 63
Göygöl .......................................... 63
Bir şair "dost"uma .......................................... 64
Gözəldir .......................................... 65
Getmərəm .......................................... 65
Xoşbəxtəm .......................................... 66
Çamlıca .......................................... 66
Saxla .......................................... 67
Təbiət Allahın şah əsəridi .......................................... 68
Təbiətin qoynunda .......................................... 70
Salam, Sarvan dağları .......................................... 71
Təbiətin ovsununa düşəndə .......................................... 72
Kəndirli qartal .......................................... 73
Yol .......................................... 74
Dağlar qonaqlıq verir .......................................... 74
Dağlar oğlu .......................................... 75
Qaytar aldıqlarını .......................................... 76
Bir köhlən at mindim Qarabulaqda .......................................... 76
Baharın gəlişi .......................................... 78

## Meydan həqiqətindir

Meydan həqiqətindır ....................80
Ən böyük qəhrəmanlıq ....................81
Hər şey gözəl olacaq ....................82
Barışmaram ....................84
Səbr eləmə ....................85
Şəhid qanı ....................86
And yerimiz ....................88
Qalmaz ....................89
Nifrətım ....................90
Sən qalib gələcəksən ....................91
Çıxış edir Xəlil Rza ....................92
Sual-cavab ....................94
Mən öləndə üzümü Borçalıya çevirin ....................94
Borçalıyla Azərbaycan arasında ....................95
Əsgər qardaşıma məktub ....................96
Şerım ....................98
Dur ayağa, məmləkətim ....................100
Azərbaycan torpağıyam ....................102
Torpaq məni yaman çəkir özünə ....................102
Heç nədır ....................103
Arxalanmışam ....................104
Əyilməz ....................105
Olar ....................105
Gözəlləşdirər ....................106
Yaxşıdı ....................107
Bu xalqın ....................107
İki dövlət, ıki tale ....................109
Əlinı üzmə millətdən ....................109
Döyüşən türk, oyanan türk, qalxan türk ....................110
Tanrım, məni şəhid elə ....................112
Ölümə səfərbər olmayan kişi ....................113

## Mənim ömrüm – Adəm ömrü

Gəlmişəm ....................115
Mənim ömrüm Adəm ömrü ....................115



Xatirə ....................116
Yolçusuyam yolların ....................117
Məni ....................118
Arxayın olma ....................119
Ayrıdı ....................119
Həsrət ....................120
Ölümdən sonra həyat var ....................120
Yatır ....................121
Dünya məni bulandıra bilmədi ....................121
Zəlimxan ....................122
Zaman adlı yumruğu var dünyanın ....................123
Hayıf, vaxtımız azdı ....................124
Zaman ....................125
Nağıl kımi gəlir mənə bu dünya ....................125
Çox şükür ....................127
Ana laylası ....................127
Bəndənin Allaha duası anam ....................128
Bu sevinci alma mənım əlimdən ....................129
Ömrə yazılan dəqiqələr ....................130
Deməmişəm ....................130
Ömrün yolları ....................131
Atama, müəllimımə ....................132
Xeyir-dua ver, ana ....................132
Anamın gileyi ....................133
Yola çıxmaq nə gözəldi ....................134
Xoşbəxt elə ....................135
Qalacaq ....................136
Qoşalaşdırıb ....................137
Dünyada ....................137
Gedəsən ....................138
Belə qocalasan ....................138
Övladlarıma ....................139

## Dərdimizin bayatı düzümü

Dərdimizin bayatı düzümü ....................143

**Yaxşı ki sən varsan, ay sədəfli saz**

Əmrah dayı . . . . ........... .. ........... . . .158
Aşıq Kamandara məktub ..... ... . .. ......... . . . .158
Ədaləti dinlədim ...... .... . ............. . . . .159
Aşıq Xanlara . ..... .. . .. ............... . . . .160
Bu, sazdımı .. ... .. .................. .. . . . .160
Tellər .. .. . .. . ............. ........ . .161
Bəlkə . . ................. .. ..........162
Dindirə . ................. ..........162
Aşıq Əmrah . ...... ......... .. ..........163
Üç muqəddəs duyğu ............ .... ..............163
Gileyli dostuma . ..... ...... ... .... ...........164
Çəkər . . ... . . ..... ............... . . .164
Sarıldığım sazdı mənim ................. .. .... . . .165
Bu saz kimi . .... .... .. ... ............ . . .166
Nə demişəm ki .. .......................... .. . 167
Deyişmələr ... ........................ .. ... ...... .169

**POEMALAR**

Saz ..... . . ....... ...... .........179
Sizi qınamıram .................................232



**ZƏLİMXAN YAQUB**

**SEÇİLMİŞ ƏSƏRLƏRİ**

İKI CİLDDƏ

I CİLD

"ŞƏRQ-QƏRB"

BAKI-2006

| | |
|---|---|
| Buraxılışa məsul | *Əziz Guləliyev* |
| Nəşriyyat redaktoru· | *Əlişirin Şukurlü* |
| Tərtibatçı-rəssam. | *Nərgiz Əliyeva* |
| Kompyuter səhifələyicisi: | *Ələkbər Kərimov* |
| Korrektorlar: | *Cəmilə Məcidova*<br>*Elsevər Muradov* |

Yığılmağa verilmişdir 25 04.2006 Çapa imzalanmışdır 22.05.2006
Formatı 60x90 $^1/_{16}$. Fiziki çap vərəqi 15,5. Ofset çap üsulu.
Tirajı 25000 Sifariş 64

Kıtab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küçəsi, 17.

Ш6
У-24

